ISSN 2664-1917

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI QIZLAR UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR
# НАУЧНЫЕ ТРУДЫ
# SCIENTIFIC WORKS

Cild 14 №1 2023 (53)
Vol. 14 №1 2023 (53)
Том 14 №1 2023 (53)

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI QIZLAR UNİVERSİTETİ**

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *SCİENTİFİC WORKS*

**"Elmi əsərlər" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 06 yanvar 2010-cu il tarixdə qeydiyyata alınmış (№10/M-4850) və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir:**
**Filologiya, pedaqogika, psixologiya elmləri.**

*(jurnal ildə 4 dəfə nəşr olunur)*

**Cild 14 №1 2023 (53)**
**Vol. 14 №1 2023 (53)**
**Том 14 №1 2023 (53)**

**BAKI – 2023**

**Təsisçi**
*Bakı Qızlar Universiteti*

**Baş redaktor**
*pedaqogika elmləri doktoru, professor Ağarəhim Rəhimov*

**Baş redaktor müavini**
*pedaqogika elmləri doktoru, professor Akif Abbasov*

**REDAKSİYA HEYƏTİ**

*filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov*
*filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı*
*pedaqogika elmləri doktoru, professor Lyudmila Verbitskaya (Rusiya)*
*filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə*
*filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli*
*fizika-riyaziyyat elmləri doktoru, professor Aqil Xanməmmədov*
*pedaqogika elmləri doktoru, professor Zbiqnev Kvetsinskiy (Polşa)*
*tarix elmləri doktoru, professor Tarix Dostiyev*
*tarix elmləri doktoru, professor Nərgiz Quliyeva*
*tarix elmləri doktoru, professor Anar İsgəndərov*
*pedaqogika elmləri doktoru, professor Svetlana Bondıreva (Rusiya)*
*fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev*
*pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılov*
*pedaqogika elmləri doktoru, professor Anastasiya Vançova (Slovakiya)*
*pedaqogika elmləri doktoru, professor Fərrux Rüstəmov*
*filologiya elmləri doktoru, professor İsmayıl Kazımov*
*pedaqogika elmləri doktoru, professor Hümeyir Əhmədov*
*filologiya elmləri doktoru, professor Nizami Məmmədov*
*filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlı*
*pedaqogika elmləri doktoru, professor Aygül Bulatbayeva (Qazaxıstan)*
*psixologiya elmləri doktoru, professor Ramiz Əliyev*

**Bakı Qızlar Universiteti Elmi Şurasının 13 may 2023-cü il tarixli iclasının (protokol №3) qərarı ilə nəşr edilir.**

# *BAŞ REDAKTORDAN*

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ
## БИБЛИОГРАФИЧЕСКОЕ ОПИСАНИЕ ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ
## BİBLİOGRAPHİC DESCRİPTİON OF USED LİTERATURE

Jurnalımızın son səhifələrində azərbaycanca, rusca və ingilis dilində "Təqdim olunan məqalələrə tələblər"i əks etdirmişik. Müəlliflər həmin tələbləri ciddi şəkildə nəzərə aldıqları halda bəzi müəlliflər mövcud qaydaları gözləmədən redaksiyaya məqalə gətirir, yaxud elektron poçtla göndərirlər. Bu isə, o deməkdir ki, təqdim olunan məqalə işlənmək üçün geri qaytarılmalı, yaxud da redaksiya tərəfindən redaktə edilməlidir. Belə məqalələr, adətən zəif olur, özündə elmi ideya əks etdirmir, təsviri xarakter daşıyır, məqalənin sonunda verilən ədəbiyyat siyahısı da necə gəldi formalaşdırılır.

2019-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının yeni Əsasnaməsi təsdiq olunmuş, dissertasiyaların, avtoreferatların, ədəbiyyat siyahısının tərtibinə yeni tələblər verilmişdir. Ölkəmizdə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərdə öz məqalələrini görmək istəyən alimlər, gənc tədqiqatçılar – doktorantlar və dissertantlar "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i ilə tanış olmalı, həm dissertasiyalarında, həm məqalələrində, həm də konfrans materiallarında mövcud tələbləri nəzərə almalıdırlar.

"İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i aşağıdakı bölmələrə ayrılır: nəşrin növü; biblioqrafik təsvirin forması; nümunələr. Tələblərə diqqət yetirək:

***Çoxcildli nəşrlər*** belə yazılır:

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.
2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H. Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.

***Müəllifi göstərilməyən nəşrlər*:**

Azərbaycan bayatıları / tərt. ed. B.Abdulla – Bakı: XXI – Yeni nəşrlər evi, –2004. –304 s.

***Müəllifi dörd nəfərədək olan nəşrlər*,** o cümlədən ***bir müəllifli nəşrlər*:**

Əlizadə, Ə.Ə. Qadın psixologiyası: Fəlsəfi-psixoloji esselər / Ə.Ə. Əlizadə. – Bakı: Təhsil, – 2015. – 416 s.

***İki və üç müəllifli nəşrlər*:**

Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.

***Müəllifi dörd və daha çox olan*** nəşrlər. ***Dörd və beş müəllifli*** nəşrlər:

Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti / Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov [və b.] – Bakı: Adiloğlu, – 2003. – s. 48

***Beşdən çox müəllifli nəşrlər*:**

Kurikulum bələdçisi: İzahlar və tətbiqlər / Ə.M. Abbasov [və b.] – Bakı: Elm və təhsil, – 2019. – 320 s.

***Jurnal məqalələri*:**

Məmmədli L.A. Şagirdlərin milli qəhrəmanların nümunəsində tərbiyə olunması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. №6, – s. 59-62.

***Müəllifi üçdən çox olan*** jurnal məqalələri:

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə. Rüstəmov, İ.A. Yolçuyev, Ə.T. Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

***Konfrans materialları*:**

Аббасов, А.Н. Подготовка подростков и молодежи к семейной жизни // Материалы 66-й Международной научно-практической конференции на тему: «Актуальные вопросы науки», Москва: Спутник: -10 августа 2020, с. 33-37

***Dissertasiyalar:***

Əliyeva, L.X. Təhsilin demokratikləşdirilməsi pedaqoji kadrların hazırlanmasının mühüm prinsipi kimi: ali pedaqoji məktəblərin bakalavr pilləsinin materialları əsasında: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / - Bakı, 2012. - 147 s.

***Dissertasiyanın avtoreferatı*:**

Əliyev, R.S. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / - Bakı, 2003. - 29 s.;

***Elektron resurslar*:**

Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994. – CD-ROM. Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm

***Normativ-hüquqi sənədlər*:**

Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.

***Qəzet məqalələri*:**

Abbasov, A.N. Pedaqoji internatura // Azərbaycan müəllimi. -2020, 22 avqust. – s. 6

***Arxiv materialları*:**

Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Bakı Qızlar Universitetinin "Elmi əsərlər"inə pedaqogikanın, təhsil, təlim və tərbiyənin, didaktikanın, təhsilin idarə olunmasının müxtəlif məsələləri ilə bağlı məqalə yazan alimlərə, gənc tədqiqatçılara xahişimiz budur ki, istifadə edilmiş ədəbiyyatın siyahısını hazırlayarkən yuxarıda göstərilən qaydalara əməl etsinlər.

***PEDAQOGİKA***

## *Ümummilli Lider Heydər Əliyev – 100*

# Heydər Əliyev və milli təhsil siyasətinin kreativləri

**Həsən Bayram oğlu Bayramov**
*pedaqogika elmləri doktoru*
*Bakı Qızlar Universitetinin kafedra müdiri*
**E-mail:** bayramov.hasan@mail.ru

**Rəyçilər:** ped.e.d., prof. A.N.Abbasov,
ped.ü.f.d. M.S.Kazımov

*Mən dünyada müəllim adından*
*yüksək ad tanımıram.*
**Heydər Əliyev**

*Azərbaycan təhsil tarixi hər birimizin*
*fəxr etdiyi nailiyyətlərlə zəngindir.*
**İlham Əliyev**



*Azərbaycanda müstəqil respublika quruculuğu prosesini 1991-1993-cü illərin böhranlar dövründən siyasi sabitliyin hakim olduğu təşəkkül mərhələsinə (1993-2003-cü illər) daşıması Ulu öndər Heydər Əliyevi nəinki üçüncü Respublika quruculuğu tarixinə daxil etdi, qeydsiz-şərtsiz onu bu mərhələnin memarı və fatehi olaraq yeni mərhələnin tarixini yazan ümummilli liderə çevirdi.*

*Bu tarixi mərhələdə onun titanik fəaliyyətinə daxil olan ciddi sahələrdən biri də milli təhsil quruculuğu strategiyasını müəyyən etməklə onu müstəqil respublika quruculuğu prosesinin tərkib hissəsinə çevirə bilməsi idi. Hələ Sovetlər dönəmində Baş nazirin birinci müavini işlədiyi vaxtlarda təhsil islahatlarına rəhbərlik etməsi, ictimai-humanitar və elmi-texniki istiqamətlər üzrə imperiyanı böhrandan xilas etməkdə açar rolu olaraq dəyərləndirməsi sonralar üçüncü Respublika quruculuğu prosesi üçün də təhsilin ümdə strateji əhəmiyyətini önə çəkməsi ilə milli-təhsil siyasətini müstəqil dövlət quruculuğu prosesinin aparıcı lokomotivi kimi xüsusi diqqətdə saxlanmasını təmin etdi.*

**Açar sözlər:** təhsil islahatı, müstəqillik dövrü, Bolonya prosesi, təhsildə rəqabət qabiliyyətlilik
**Key words:** education reform, independence period, Bologna Process, in education competitiveness
**Ключевые слова:** реформа образования, период независимости, Болонский процесс, образование конкурентоспособность

***Sovet dövründə təhsil: 70-80-ci illərdə məktəb islahatı layihəsinə rəhbərliyi.***

Sovet dövrü 20 ilə yaxın bir müddətdə Azərbaycana və Sovetlər İttifaqına rəhbərlikdə ləyaqətlə təmsil olunduğu vaxtlarda Heydər Əliyevin reallaşdırdığı çoxşaxəli islahatlar içərisində təhsildə baş verən yeniliklər bu gün də ciddiyyətini qorumaqdadır.

Miqyasına görə, ən geniş, məqsəd və vəzifələrinə görə ən dərin tarixi transformasiya mərhələlərindən biri kimi xarakterizə edilən Sovet İmperiyasının süqutu və respublikalarda başlanan müstəqilləşmə prosesi içərisində təhsil də bu dəyişikliklərin mərkəzində dayanmışdır.

Sovet dövründə ideoloji təmayüllərə istinadən əvvəlki təhsil ənənələrindən imtina etməklə kommunist tərbiyəsini gənc nəslin həyata hazırlığının başlıca ideoloji doqması kimi təsbit edilməsi Sovet təhsili anlayışını doğurdu.

Ümumi icbari təhsilə keçmək üçün vaxtı ilə ümumi icbari, ibtidai, yeddiillik, səkkizillik, doqquzillik formatındakı ənənəvi icbari təhsil mərhələsindən ümumi icbari təhsilə, yəni 10 illik təhsilə keçidə başlanması Sovet İttifaqı Kommunist Parti1yası Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin "Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1966-cı il 10 noyabr tarixli qərarı ilə ümumi icbari orta təhsilə (onillik təhsilə – H.B.) keçirilməsi ilə Azərbaycana rəhbərliyə gəlməsi eyni vaxta düşmüş Heydər Əliyevin ölkənin sosial-iqtisadi, ictimai-mədəni və elmi-texniki inkişafı prosesini yeni mərhələyə uğurla daşımasını təhsildə də ciddi quruculuq mərhələsini təmin etmiş oldu.

Sonralar "Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" 1972-ci il 20 iyun və "Kənd ümumtəhsil məktəblərinin iş şəraiti daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1973-cü il 3 iyul tarixli partiya-hökumət qərarları ilə ölkədə həm məktəb tikintisinin surətlənməsi, ümumtəhsil, yeni orta məktəblərin şəbəkəsinin genişlənməsi internat və xüsusi tip təhsil müəssisələrinin şəbəkələşməsi, nəhayət elmi-pedaqoji kadr hazırlığının surətlənməsi, nəhayət, ümumtəhsil məktəblərinin əmək və politexnik məktəblər formatına keçməsi kimi tarixi mərhələnin Heydər Əliyevin sovet dövrü Azərbaycanda həyata keçirdiyi təhsil quruculuğu mərhələsinə təsadüf etməsi, eləcə də yaranmış tarixi şəraitdən Azərbaycan təhsilinin inkişafı üçün bacarıqla istifadə edilməsi ilə başa çatdı. Belə ki, 1979-cu ildə Azərbaycanda məktəblərin ümumi sayı 4000-ə, o cümlədən ibtidai məktəblər 395, səkkizillik 1609, orta məktəblər 1969, digər xüsusi tip məktəblinin sayı 23-ə çatdı (8, s.49).

Bu dövrdə keçmiş ittifaq üzrə məktəblərin orta sıxlığı da Azərbaycanda imperiya üzrə orta sıxlığa çatdı. Belə ki, sovet imperiyası üzrə orta məktəblərin sıxlığı 585,1, o cümlədən şəhərlər üzrə 842, kənd məktəbləri üzrə 399,9 idisə Azərbaycan SSRİ üzrə orta sıxlıq 579,8, o cümlədən şəhərlər üzrə 905,8, kənd məktəbləri üzrə 439,0 idi (9, s.75).

Bu dövrdə Azərbaycanın partiya-hökumət siyasətinin başlıca şüarı "Hər bir gəncə orta təhsil" adlı kampaniyanı uğurla davam etdirmək məqsədi güdürdü. Bu dövrdə Azərbaycanda pedaqoji kadr hazırlığının dinamikası da xeyli artmışdır. 1979-cu ildə müəllimlərin ümumi sayı 108 min nəfər idi ki, əvvəlki dövrə nisbətən 51,74-dən 65,3 faizə yüksəlmişdir ki, bu göstərici 1980-ci illərdə keçmiş Ümumittifaq göstəricilərinə çatmaq demək idi (9, s.76).

Bu dövrdə texniki peşə təhsili, orta və ali ixtisas təhsili sahəsində ciddi irəliləyişlər əldə edilmişdir. 1977-ci ilin avqustunda "Texniki peşə təhsili sistemi şagirdlərinin təlim və tərbiyəsi prosesini daha da təkmilləşdirmək haqqında qərarı Azərbaycanda bütün sahələrdə surətli inkişafın tərkib hissəsi olaraq yetkin şəbəkələşmə mərhələsinə daxil olmuşdur. 1980-ci illərdə üzümçülük, pambıqçılıq, meyvə-tərəvəzçilik, taxılçılıq, heyvandarlıq, nəhayət maşınqayırma, neft-kimya sənayesi, yerli və yüngül sənaye sahələrində keçmiş ittifaqın ən nümunəvi respublikası kimi yetkin inkişaf etmiş aqrar-sənaye və elmi-texniki tərəqqi ölkəsi olaraq ən yeni ixtisas sahələri üzrə peşətəhsili məktəbləri də, yəni ibtidai texniki məktəblər, orta texniki məktəblər, nəhayət, sənət məktəbləri səbəkəsi formalaşmış, peşə təhsili kompleksləri yaradılmışdır. Bu sahədə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti "Azərbaycan SSR gənclərinin texniki peşə təhsilini daha da inkişaf etdirmək haqqında" 1975 qərar qəbul etdi. Bu qərar peşə təhsilini cəmiyyətin artan inkişaf səviyyəsinə cavab verəcək bir sahəyə çatdırılmasında tarixi rol oynadı. Bu qərarla 1975-ci ilədək gündüz texniki peşə məktəblərinə qəbul ildə 50 min nəfərə, o cümlədən orta təhsilli ixtisaslı fəhlələr hazırlayan texniki peşə məktəblərinə qəbulun 20 min nəfərə, gündüz texniki peşə məktəblərindən qəbulun isə 38 min nəfərə çatdırılması nəzərdə tutulurdu ki, bu çağırışlara cavab olaraq respublikada təkcə 1971-1975-ci illərdə 54 yeni peşə məktəbi yarandı (3, s. 204-205).

Bununla da Azərbaycanda 1981-1985 və 1986-1990-cı illər üçün texniki-peşə təhsilinin inkişaf perspektivlərini göstərilən parametrlər üzrə yüksək səviyyəyə qaldırmaqla üçün maarif ictimaiyyətinin səfərbərliyi təmin edildi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, eləcə də Sovet rəhbərliyində çalışdığı illərdə ən ahəngdar inkişaf edən təhsil sferası ali təhsil olmuşdur. Öncə respublikanın ali məktəblərində aparılan elmi-tədqiqatların maliyyələşdirilməsinə dövlət təhsisatları ildən-ilə artırıldı. Əgər 1965-ci ildə əsaslı vəsaitlər ayrılması 510,4 min manat idisə, 1979-cu ildə 1 milyon 757,5 min manat olmuş, yəni 14 ildə 3 dəfədən çox artırılmışdır (3, s. 262). Yenə həmin əsərdə qeyd edildiyi kimi 1971-1979-cu illərdə Azərbaycan ali məktəblərində 45 respublika miqyaslı və 15 Ümumittifaqmiqyaslı elmi-praktik və elmi-texniki konfrans təşkil edilmiş, bu konfranslarda digər qonşu respublikalarda 2530, xarici ölkələrdən isə 121 alim iştirak etmişdir (3, s. 264).

Sovet Azərbaycanın rəhbəri Heydər Əliyevin bilavasitə ahəngdar fəaliyyəti sahəsində təhsildə əldə edilən bu nailiyyətlər içərisində keçmiş ittifaqın məşhur ali məktəblərinə azərbaycanlı tələblərinin göndərilməsi də mühüm yer tuturdu.

Ölkə miqyasında ən unikal təhsil təşəbbüsü kimi xarakterizə edilən bu kampaniya azərbaycanlı gənclərin bütün SSRİ boyu məşhur ali məktəblərində oxumaqla yetkin mütəxəssislər olaraq azərbaycanlıların elmi və ictimai sferalarda daha da möhkəmlənməsinə, nəhayət respublikamızın elmi və ictimai simasının yetkinləşməsində böyük rol oynadı. Hələ o vaxtlar bu təşəbbüsün əhəmiyyətindən bəhs edən Heydər Əliyev 1979-cu ilin noyabrında Moskvada təhsil alan Azərbaycan tələbə və aspirantları ilə görüşdəki çıxışında demişdir: "İqtisadiyyat və mədəniyyətin daha da inkişafı üçün respublikamızın qarşısında əzəmətli perspektivlər açılır. Bizim gələcək üçün ciddi planlarımız vardır… Və bizlər qarşıdakı illərdə böyük maraqlı işlər görməli olacağıq" (2).

Göründüyü kimi ümummilli lider Heydər Əliyevin Sovet dövrü Azərbaycana rəhbərliyi bütün sahələrdə ciddi irəliləyişlərlə müşahidə olunmuşdu. Sovet dövlətinin siyasi-tarixi iflası yuxarıdan başlanan böhranın nəticəsi olaraq Azərbaycanda başlanan inkişaf prosesini də yarımçıq qoydu.

Heydər Əliyevin Moskvada yüksək dövlət vəzifəsinə irəli çəkilməsi, yəni indiki anlayışla desək Baş nazirin birinci müavini təyin edilməsi əslində SSRİ-ni gözlənən böhrandan çıxarmaq baxımından ona göstərilən böyük etimad idi. O, bu vəzifədə çalışdığı qısa dövrdə Gəncə avtomat zavodunun yaradılması, Xəzəryanı sahillərin, yəni Xaçmazdan Astarayadək ümumittifaq kurort mərkəzinə çevrilməsi, neft-kimya qurğularının modernləşməsi, kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmış öncül baza respublikasına çevrilməsi… kimi layihələrin reallaşması üçün Moskvada ciddi qərarların qəbuluna nail olsa da siyasi sistemin süqutu ilə bu tarixi şans reallaşa bilmədi.

Amma sovet Azərbaycanın rəhbərliyi ilə ölkədə ümumi təhsilə keçilməsi, peşə, orta və ali ixtisas təhsili sahəsində ciddi qərarların qəbulundan maksimum bəhrələnərək ölkədə təhsil şəbəkəsinin yeniləşməsi ilə bağlı ciddi nəticələr əldə edildiyi kimi, keçən əsrin 80-ci illərində də onun Moskvada yüksək dövlət vəzifəsinə irəli çəkildiyi vaxt da təhsil islahatlarına ciddi ehtiyac duyulduğu bir dövrə düşdü. O, ümumi və peşə təhsilinin inkişaf istiqamətləri üzrə SSRİ Ali Sovetində əsas məruzə ilə çıxış etdi və ölkənin təhsil islahatının memarına çevrildi. Təəssüf ki, İmperiyanın səriştəsi idarəçilik ucbatından iflası bu sahədə islahatların reallaşmasına mane oldu.

***Müstəqillik dövrü Azərbaycanda milli təhsil quruculuğunun prioritetləri.*** Sovet Azərbaycanına və SSRİ hökumətinə rəhbərliyi dövründə təhsil islahatları sahəsində ciddi həyati təcrübəyə malik olması sonralar müstəqil Azərbaycan Respublikasının quruculuğu prosesinə rəhbərliyi dövründə də vaxtı ilə ürəyincə həyata keçirə bilmədiyi təhsil quruculuğunu reallaşdırmağa başladı.

Əvvəlcə 1991-1993-cü illərin böhranlar mərhələsinə son qoydu. Yeni Konstitusiyanın qəbulu ilə (1995), eləcə də neft-qaz müqavilələri ilə bağlı beynəlxalq konsorsiumun yaradılması ilə ölkədə siyasi-iqtsadi sabitliyi təmin edilməsini nail oldu. Bunun ardınca təhsilə dair beynəlxalq layihələrin həyata keçməsinin önü açıldı.

Öncə 1992-ci ildə müstəqillik dövrünün Təhsil Qanunu hüquqi-normativ bazanın yaradılmaması səbəbilə əsaslı şəkildə həyata keçirilmədiyindən, 1993-cü ildən başlayaraq mərhələli şəkildə problem həll edilməyə başladı. Ardıcıl olaraq aşağıdakı sənədlər qəbul edildi.

— “AR ümumtəhsil məktəbinin nümunəvi Əsasnaməsi”, 1994;

— Məktəb sənədlərinin aparılması və saxlanması haqqında Təlimat və b. 21 sənəd qəbul edildi; 1995.

— Azərbaycan Respublikası ilk milli Konstitusiyası qəbul edildi (1995). Burada 42-ci maddə “Təhsil hüququ”nu əhatə etməklə əsas strategiyanın ümumi müddəaları təsbit edildi;

— 1996-cı ildə AR Konstitusiyasının tələbələri baxımından ümumtəhsil məktəblərində icbari ümumi orta təhsilin həyata keçirilməsi Qaydası təsdiq edildi;

— 1998-ci ildə Respublika Müəllimlərinin XI qurultayı keçirildi ki, onun ikisi, — 1978 və 1998-ci illərdəki Qurultaylar Ulu Öndərin iştirakı ilə keçirilmişdir.

— 1998-ci ildə Azərbaycan Respublikası təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradıldı.

— 1999-cu ildə Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı qəbul edildi və təhsilin modernləşməsi yeni mərhələyə daxil oldu.

Həmin ili Azərbaycan Respublikası hökuməti və Beynəlxalq İnkişaf Bankı arasında Təhsil islahatının mərhələlərlə icrası məqsədilə 5,5 milyon dollarlıq məbləğ ayrıldı. Bundan sonra

Pilot məktəblər anlayışı təhsil siyasətində aparıcı ifadə oldu və təhsilin bütün sferalarında ali və özəl təhsil müəssisələri anlayışı ictimai anlayışa çevrildi.

"Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il tarixli fərmanı qəbul edildi. Bunun nəticəsi olaraq 2001-ci ildə Təhsil İslahatı layihəsinin icrasına 18 milyon dollar vəsait ayrıldı ki, onun 1,8 milyon Azərbaycan tərəfindən ödəndi. Ölkədə təhsilə dair 5 komponent üzrə 8 istiqamətdə layihələr həyata keçirilməyə başlandı.

2008-ci ildə 2009-2014-cü illəri əhatə edən 2-ci kredit sazişində komponentlər üzrə 41 vəzifə müəyyən edildi ki, bununla:

— Ölkədə ümumtəhsildə unikal dərslik siyasəti həyata keçirildi, belə ki, dərslik siyasəti ilə Ümumtəhsil məktəblərinin pulsuz dərsliklərilə təmin edilməsi reallaşdırıldı;

— Ümumtəhsil məktəblərində islahatları təkmilləşdirildi, yeni qiymətləndirmə sisteminə keçildi, məktəb binalarının tikintisi və təmini surətlə reallaşdırıldı, bu islahatlar peşə, təhsilində, orta və ali təhsil sferalarında daha sistemli xarakter aldı, məsələn, ölkədə ali təhsil sahəsində 1999-cu ildən başlayaraq 2003-cü ilədək 14 Qərar, Fərman və Dövlət Proqramı qəbul edildi, həmçinin dövlət və özəl ali təhsilin alternativ fəaliyyəti təmin edildi, nəhayət, Tələbə Qəbulunun yeni meyarlarla fəaliyyəti təkmilləşdirildi;

— Ulu öndər Heydər Əliyevin milli təhsil siyasətində yeni əlifba ilə dərsliklərin və ədəbi-bədii külliyyatın nəşri mühüm yer tutdu.

Ölkədə həyata keçirilən uğurlu Təhsil İslahatının bir nümunəsi bu günki Bakı Qızlar Universiteti idi. Birbaşa ulu öndərin xeyir-duası ilə fəaliyyətə başlayan müəssisə, formaca, məzmunca, idarəetmə uslubuna görə spesifik mahiyyət daşıdı.

1992-ci ildə Bakı Ali Pedaqoji Qızlar Seminariyası kimi fəaliyyətə başlayan Universitet, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 fevral 1996-cı il tarixli qərarı ilə özəl ali təhsil müəssisəsi kimi qeydə alınandan sonra Psixologiya, Pedaqogika və psixologiya, Pedaqogika və ibtidai təhsilin metodikası, Sosial pedaqogika ixtisasları üzrə bakalavr, sonralar isə Pedaqogika nəzəriyyəsi və tarixi, eləcə də İbtidai təhsil pedaqogikası ixtisasları üzrə magistr hazırlığı prosesinə qoşuldu.

2005-ci ildən Bakı Qızlar Universiteti kimi fəaliyyət göstərən ali pedaqoji təhsil müəssisəsi əsası Heydər Əliyev tərəfindən qoyulan milli təhsil və siyasətinin bariz nümunəsidir.

Bakı Qızlar Universiteti kimi xüsusi statusu olan bu məktəb cəmiyyətin özəyini təşkil edən tərbiyəçi-müəllim – ana hazırlığı kimi müqəddəs bir missiyanı uğurla yerinə yetirməkdədir.

Göründüyü kimi bu dövrdə yeni təhsil quruculuğu siyasətinin tərkib hissəsi, kimi, peşə ixtisas, eləcə də orta və ali ixtisas təhsilinin də sürəkli inkişafının şahidi oluruq. Peşə təhsili sahəsində dövlət siyasətinin başlıca hədəfi peşə təhsili müəssisələri ilə dövlət və qeyri-dövlət təşkilatları arasında səmərəli əlaqələrin yaradılması sahəsində təkmil sistemin formalaşması idi. "Ulu öndərin beynəlxalq nüfuzu sayəsində Neft strategiyasının əsasını təşkil edən "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkə iqtisadiyyatına sərmayə axınının müşahidə edilməsi, transmilli şirkətlərin ölkəmizə marağının artması və neft sektoru ilə yanaşı, qeyri-neft sahəsinin də sürətlə inkişafı respublikamızda texniki-peşə təhsili sistemi qarşısında yeni imkanlar açdı" (4, s. 241).

Heydər Əliyevin əsasını qoyduğu müstəqil dövlət quruculuğu prosesinin tərkib hissəsi olaraq həyata keçirilən təhsil siyasəti bu dövrdə orta ixtisas təhsilindən də yan keçməmişdir. Bu sahə də böhranlar mərhələsini uğurla adlaya bilmiş, 1993-2003-cü illərində mövcud maddi-texniki bazanın, müəllim-köməkçi heyətin keyfiyyət təminatına nail olmuşdur. Belə ki, 2003-cü ildə artıq dövlət orta ixtisas müəssisələrinin sayı 55, tələbələrin sayı 52,256, müəllimlərin sayı 6,353 olmaqla, özəl texnikumlarda isə belə müəssisələrin sayı 5, tələbələrin sayı 1438,

müəllimlərin sayı 151 nəfər təşkil etmişdir (4, s. 259).

Azərbaycan Respublikasında milli təhsil quruculuğunun əsasını ali ixtisas təhsilinin təşkil etməsini xüsusi vurğulamaqla ulu öndərin bu sahəyə müstəsna diqqət və qayğısını görürük. Onun birbaşa rəhbərliyi ilə "dövlət və özəl ali məktəblərin şəbəkələşməsi təmin edilmiş, ali məktəbə qəbulla bağlı tələbə qəbulu üzrə Dövlət Komissiyasının fəaliyyəti gücləndirilmiş, iki pilləli təhsilə və bakalavriaturaya keçilmiş, Bolonya prosesinə qoşulmaqla ölkəmizin Avropa ali təhsil məkanına daxil olması məqsədilə ciddi hüquqi-normativ və maddi-texniki bazanın yaradılmasına başlanmışdır. Aparılan islahatlarda məqsəd ali təhsilin yeni prinsiplərlə idarəeolunmasını təmin etməyə, idarəetmənin dövlət-ictimai xarakterini inkişaf etdirməyə, təhsil məslələrinə daha geniş səlahiyyətlər verməyə, onların məsuliyyətini artırmağa, idarəolunmada əks mərkəzləşməni həyata keçirməyə nail olunmaq idi" (5, s. 33).

Onun qətiyyətli addımları sayəsində ali məktəblər də böhrandan xilas edilmiş, belə ki, artıq 2003-cü ildə 32 ali məktəbdə 104 min tələbə təhsil alırdı ki, onların təlim-tərbiyəsi ilə 11.303 professor-müəllim heyəti məşğul olurdu (5, s. 289) Ulu öndərin həyata keçirdiyi milli təhsil siyasəti içərisində mühüm yer tutan ali təhsilin modernləşməsi üç amilə xüsusi diqqət yetirilməsi ilə bağlı idi. Tədrisin beynəlxalq praktikaya uyğunlaşdırılması, maliyyə vəsaiti ilə təminat, nəhayət səmərəli idarəetmə sisteminə keçidə nail olmaq. Məhz bu prinsiplər ali təhsilin milli mahiyyətini qorumaqla beynəlxalq təcrübəyə uyğunlaşmasını təmin edərək yeni təhsil quruculuğunun təşəkkül mərhələsini təşkil etmiş oldu.

Beləliklə, ulu öndərin uğurla həyata keçirdiyi müstəqil dövlət quruculuğu prosesində təhsil siyasəti də mühüm yer tutmuşdur.

Sonrakı dövrlərdə onun əsasını qoyduğu təşəkkül prosesini (1993-2003-cü illər) həmin siyasi kursun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev tərəfindən inkişaf mərhələsinə çatdırılmaqla ölkəmizi brendə çevirmiş, "Təhsil haqqında" Qanunun (2009), Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının (2013) və Azərbaycanda ali təhsil müəssisələrinin Beynəlxalq rəqabətliliyinin artırılması haqqında Dövlət Proqramının (2019) qəbulu ilə təhsil siyasəti yeni mərhələyə daxil edilmiş oldu.

**Məqalənin aktuallığı.** Ulu öndər Heydər Əliyevin siyasi irsi ölkəmizin bütün istiqamətlər üzrə inkişafının rəhnidir. Müstəqillik dövründə onun formalaşdırdığı təhsil siyasəti bu sahənin beynəlxalq rəqabətliliyinin təmin olunması üçün də çox aktualdır. Məhz bu kimi ciddi ictimai-nəzəri problemə həsr edilməsi məqalənin aktuallığını xarakterizə edir.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan təhsil tarixinin müxtəlif tarixi mərəhələlər üzrə, xüsusilə son dövr elmi-pedaqoji fikir kontekstində öyrənilməsi tələbələrin nəzəri hazırlığına yardımçı olmaqla onların rəqabət qabiliyyətli şəxsiyyət hazırlığına yiyələnmələrini təmin etməlidir. Məqalədə təhsilşünaslıq baxımından vacib problemə toxunulur onun həlli istiqamətləri, yolları və vasitələri göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta və ali ixtisas, eləcə də ümumtəhsil məktəblərinin müəllimləri, nəhayət, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009.
2. "Kommunist" qəzeti, 1979, 5 dekabr.
3. M. Mehdizadə, T. Allahverdiyev, Q. Əliyev. Azərbaycanda xalq maarifinin surətli inkişafı. Bakı, 1980, 272 s.
4. M. Mərdanov. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, 2009, 528 s.
5. M. Mərdanov. Azərbaycan təhsil tarixi. IV cilddə. III cild. Bakı, 2011, 672 s.
6. M. Mərdanov. Azərbaycan təhsil tarixi. IV cilddə. IV cild. Bakı, 2012, 912 s.

7. M. Mərdanov, F. Şahbazlı. Azərbaycanda təhsil siyasəti. I kitab. Bakı, 2005.
8. SSRİ-də xalq maarifi, elm və mədəniyyət. Statistik məcmuə. M., 1977.
9. "Xalq maarifi" 1979-cu ildə. M., 1979.

**Г.Б. Байрамов**

**Гейдар Алиев и креативы национальной образовательной политики**

**Резюме**

В статье говорится, что период руководства великого сына азербайджанского народа Гейдара Алиева как Советскому Азербайджану, так и Советскому Правительству и независимому Азербайджану рассматривался как особая стратегическая сфера образования, с достижением его правово-нормативного и организационного обеспечения было обеспечено укрепление международного имиджа страны.

**H.B. Bayramov**

**Heydar Aliyev and creativity of national education policy**

**Summary**

In the article, the period of leadership of Heydar Aliyev, the great son of the Azerbaijani people, both to Soviet Azerbaijan, the Soviet government and to independent Azerbaijan, treated education as a special strategic area, strengthening the international image of the country by achieving its legal-normative and organizational support.

**Redaksiyaya daxil olub:** 05.06.2023

# Milli-mənəvi dəyərlərimizə Heydər Əliyev qayğısı

**Sevda Sultan qızı Tağıyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Qızlar Universiteti*
**E-mail:** sevda-sultan@mail.ru

**Rəyçilər:** ped.ü.f. d., dos. F.M. Allahverdiyeva,
ped.ü.f. d., dos. P.M. Həsənova

**Acar sözlə:** milli- mənəvi dəyərlər, adət və ənənələr, Azərbaycan dili, mərasim, milli lider.
**Key words:** national moral values, aditions, Azerbaijan language, ceremony, national leader
**Ключевые слова:** национально-нравственные ценности, обычаев и традиций, азербайджанский язык, церемония, национальный лидер

*Biz öz milli dəyərlərimizlə, adət-ənənəmizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli mənəvi dəyərlərimizi yaşadıblar və bunlar indi xalqımızın mənəviyyatını təşkil edən amillərdi.*

***Heydər Əliyev***

Azərbaycan xalqının böyük oğlu, Heydər Əlirza oğlu Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı xalqımızın tarixində ən parlaq səhifədir.

Bu qayıdış ölkəmizin hər bir vətəndaşında müstəqilliyimizin əbədi olacağına və onun daha yüksək zirvələrə doğru irəliləyəcəyinə inam yaratdı.

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda sabitliyin, əmin-amanlığın təmin edilməsi, ölkəmizin həqiqi vətəndaş cəmiyyəti və huquqi dövlətə cevrilməsinə, demokratiyanın bərqərar olunmasına əlverisli zəmin yarandı. Dövlətimiz tərəqqi və inkişafın yeni mərhələsinə qədəm qoydu. Bu qayıdış Heydər Əliyev dühasının fəaliyyətində yaradıcılıq, yüksəliş dövrü oldu. Yeni-yeni yollar salındı, şəhər, qəsəbə, kəndlər öz simasını dəyişdi, iqtisadi həyatın bütün sahələrində nəticələr əldə edildi, neft sənayesi və kənd təsərrüfatında uğurlar qazanıldı.

Hakimiyyətə gəldiyi ilk gündən bu uzaq görən siyasətçi, dahi insan təhsilin hər bir dövlətin prioritet sahəsi olduğunu, millətin gələcəyinin, dövlətimizin gündən-günə çiçəklənməsinin, sənaye və digər sahələrdə nailiyyətlərin yetişməkdə olan gənc nəslin dərin intellektual səviyyəsinin, zəka və təfəkkürünün vacibliyini bildirmiş və bunun ucun Azərbaycanda təhsilin inkişafını ön plana çəkmişdir.

Ulu Öndərin mahiyyətcə gələcəyə yönəlmiş inkişaf strategiyasında başlıca məqsəd Azərbaycanı beynəlxalq arenada dünyanın inkişaf etmiş ölkələri sırasında görmək, neft sənayesi, ölkə iqtisadiyyatı, istehsal qüvvələrinin, elmin, təhsilin, mədəniyyətin, mənəvi dəyərlərin qorunub saxlanılmasına nail olmaq idi.

“Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini dünyaya nümayiş etdirirlər” (Aforizmlər)

Bu fikir məhz Heydər Əliyev dühasına şamil oluna bilər. Çünki görkəmli şəxsiyyət hakimiyyətə qayıdışı ilə yenicə qurulmus, müstəqil gənc bir dövlət olan Azərbaycanın siyasi və iqtisadi inkişafını dirçəltməklə bərabər, milli ideologiyanın, milli-mənəvi dəyərlərimizin dirçəlməsini, qorunub saxlanmasını, inkisaf etdirilməsini millətimiz qarşısında əsas vəzifə olduğunu bildirmişdir.

"...biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli–mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" söyləyən dahi səxsiyyət Heydər Əliyev milli-mənəvi dəyərlərin və milli dövlətciliyin sıx vəhdətdə olduğunu hər zaman vurğulamış və həyatı boyu milli-mənəvi, dini-əxlaqi dəyərlərimizin, eləcə də milli adət-ənənələrimizin keşiyində durmuşdur. "Biz öz millimənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik". Ulu öndərin bu fikri də milli ideologiyamızın, dövlət quruculuğumuzun irəliyə doğru inkişafımızın leytmotivi idi.

Hər bir xalqın milli-mənəvi dəyərlərinin inkişafında dil müstəsna əhəmiyyətə malikdir. Ümummilli liderimiz, görkəmli səxsiyyət Heydər Əliyev üçün ana dili mənəvi dəyərlərimizin əsas meyarı idi. O, ana dilinin gənclərin vətənpərvərlik ruhunda yetişməsi üçün həlledici rola malik olduğunu qeyd edirdi. Gənclərin Forumunda Ümummilli Lider öz çıxışında demişdir: "... ana dilini bilməyən gənc Nizamini, Fizülini, Nəsimini, Vaqifi, Sabiri, Cəlil Məmmədquluzadəni və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilmirsə, o tariximizi bilməyəcək, onları oxuya bilməsə, mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli–mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq" (H.Əliyev və müstəqil Azərbaycan gəncləri. s., 328)

"Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" – deyən ümummilli lider cəmiyyətin diqqətini tarixi mədəni dəyərlərə yönəltmişdir (s. 12).

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə – milli dövlət quruculuğu dövründə xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, milli adət-ənənələrimizin, mədəni yaddaşımızın bərpası üçün çox çalışmış, cəmiyyətimizi qədim, möhtəşəm, böyük bir dil abidəsi ilə fəxr etməyə, qürur duymağa səsləmişdir.

Milli-mənəvi dəyərlərimiz sırasında xalqımıza məxsus olan, zaman-zaman tarixin süzgəcindən keçmiş adət-ənənələri var. Təbii ki, hər bir millətin dəyəri, millətlər arasında mövqeyi onun milli-mənəvi dəyərlərində, adət-ənənələrinin qorunmasında öz əksini tapır.

Ulu Öndər Heydər Əliyevin yaşadığı və ölkəmizə əzmlə rəhbərlik etdiyi dövrdə milli və dini bayramlar, mərasimlər, adət-ənənələr xalqa qaytarıldı və öz dəyərləri ilə millətimizə sevinc bəxş etdi.

"Hər bir xalq qarşısında qərinələr boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərini, milli məfkurəsini pak və sağlam niyyətlərlə qoruyaraq, bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsilləri ötürmək kimi çətin missiya durur. Azərbaycanda bu məsuliyyətli missiyanı məhz Ulu Öndər Heydər Əliyev öz çiyinlərinə götürərək xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşadıb, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimi qoruyub, onun ədəbi yaşarlığını edib" (N. Alışova. s. 13).

Bəli, hər bir xalq dünyada özünün adət və ənənələri, milli-mənəvi dəyərləri ilə tanınır. Bayram adət-ənənələri, şənlik, toy, yas mərasimləri, islam dininin bəşəri hisslərə köklənən dəyərləri Azərbaycan xalqının milli-mənəvi simasını əks etdirir. Bu nöqteyi-nəzərdən öz zənginliyi, tarixiliyi ilə özünəməxsus yer tutan Novruz bayramını qeyd etməsək olmaz.

Uzaqgörən siyasətçi Heydər Əliyev fəaliyyəti dövründə vaxtilə qadağan edilmiş, keçirilməsinə icazə verilməyən milli və dini bayramları, adət və ənənələri xalqımıza, millətimizə qaytardı.

Xalqını ürəkdən sevən ulu öndər Novruz bayramını çox sevər, əhali ilə bayram keçirməyi tərcih edər və bundan xüsusi zövq alardı. Çünki, Novruz adətləri xalqımızın mədəniyyətinin zənginliyini göstərir. İnsanların kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkməsi, bir-birinə sovqat ərməğan etməsi ilə qəlblərdə sevinc hissləri yaşadır və gözəl dəyərli milli ənənələri özündə ehtiva edir.

Ümumiyyətlə, hər bir xalqa məxsus olan adət-ənənələr insanlar arasında münasibətlərin, əxlaqi-mənəvi keyfiyyətlərin formalaşmasına, zənginləşməsinə zəmin yaradır və xalqı öz rəhbəri ətrafında birləşərək böyük zəfərlər qazanmağa sövq edir.

Eləcə də adət və ənənələr, milli-mənəvi dəyərlər sistemində əxlaqi keyfiyyətlərin, estetik hisslərin, sənətkarlıq bacarığının, əməyə məhəbbətin nəsildən-nəslə ötürülməsi üçün mühüm vasitələrdən biridir və millətimizin keçmişi, bu günü və gələcəyi arasında mənəvi körpü rolunu oynayır.

Milli dəyərlərimizdən hesab edilən dini bayramlar, toy şənlikləri, yas mərasimləri də zəngin xalq adət-ənənələrinə istinad edir.

1993-cü ildən Azərbaycana rəhbərlik etməyə başlayan, adət və ənənələrin hər bir xalqın həyatındakı rolunu yüksək qiymətləndirən Heydər Əliyev milli adət və ənənələrimizin bərpası üçün əlindən gələni etmiş, gənc və müstəqil ölkə qurucularının milli ruhda formalaşmasını tövsiyə etmişdir: “Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli adət və ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz” söyləyən milli mənəviyyat, milli qürur nümunəmiz, milli liderimiz Heydər Əliyev Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin gənclərin hərtərəfli və ahəngdar inkişafında rolunu açıqlamışdır.

Bu doğru qənaətdir ki, “Milli-mənəvi dəyərlərimizin, dilimizin sədaqətli daşıyıcısı, yorulmaz təbliğatçısı, hamisi və islam dəyərlərinin təəssübkeşi, mədəniyyətimizin və elmimizin dərin bilicisi olan ümummilli liderimizi əbədiyaşar edən, ona xalqın ədəbi sevgisini qazandıran səbəblər sırasında mənəviyyat amili ön cərgədə durur” (S. Əhmədova, s.15).

Milli-mənəvi dəyərlərimizin qorunması, milli mədəniyyətimizin və incəsənətimizin bütün dünyada tanınması, azərbaycançılıq ideyasının milli şüurda kök salması ümummilli lider Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Bu, böyük siyasətçinin milli-mədəni dəyərlərimizdən biri olan milli musiqimizə, muğamlara olan sevgisində də öz əksini tapmışdır. Təbiətcə musiqiyə vurğun olan, həssas qəlbə, incə duyuma və yüksək zövqə malik bu fenomen rəhbər öz həyatını və fəaliyyətini heç zaman musiqi mədəniyyətindən kənarda hiss etməmişdir.

Ümummilli lider Heydər Əliyev musiqini sevməklə bərabər, həm də xalqımıza bu milli dəyəri qorumağı və nəsildən-nəslə ötürməsini tövsiyə edirdi. O, mədəniyyətimizi, musiqimizi, ümumiyyətlə, milli-mənəvi dəyərlərimizi beynəlxalq aləmdə tanıtdı. Bu, görkəmli dövlət xadiminin milli-mədəni dəyərlərimizə məhəbbət və ehtiramının təcəssümü və xalqın gələcəyinə dərin inamının ifadəsidir. Ulu Öndər Heydər Əliyev çox dərin köklərə malik olan milli musiqimizi çox sevir və onun sirlərini yaxşı bilirdi. Bunu onun Novruz bayramı günlərində və el şənliklərində fəal iştirak edərək rəqs etməsində və özünəməxsus tərzdə ifalarında yaxından müşahidə etmək mümkündür. Milli-mənəvi dəyərlərimiz kimi musiqimiz, rəssamlığımız, xalça sənətimiz Ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısı ilə beynəlxalq aləmdə tanındı və böyük şöhrət qazandı.

Xalq mahnısı “Küçələrə su səpmişəm” onun ifasında qeyri-adi dərəcədə səslənməsi də buna nümunə ola bilər:

Küçələrə su səpmişəm
Yar gələndə toz olmasın...

**Məqalənin aktuallığı.** Milli-mənəvi dəyərlərimizin qorunması, onların təbliği aktual məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Vətənimizin milli-mənəvi dəyərlərinin qorunub saxlanması, gənc nəslin məhz bu prosesin içərisində özünün azərbaycançılıq məfkurəsini dərk edərək mövqeyini müəyyənləşdirməsi mühüm əhəmiyyət kəsb edir.

Ulu öndər Heydər Əliyevin dövlətin gələcəyinə yönəlmiş inkişaf strategiyasında, eyni zamanda milli-mənəvi dəyərlərinin də qorunmasına verdiyi xüsusi diqqət və qayğısı bu gün də dövlət səviyyəsində layiqincə davam etdirilir.

**Məqalənin elmi yeniliyi.** Milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində ölkəmizdə aparılan hər bir fəaliyyət, hər bir təbliğat yükü böyük əhəmiyyət daşıyır. Milli-mənəvi dəyərlərimizi əks etdirən adət-ənənələrimiz, musiqimiz, maddi-mənəviyyat nümunələrimiz yetkin, hərtərəfli vətəndaş cəmiyyətinin formalaşmasında əsas amillərdən biridir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Gənc nəslin milli-mənəvi dəyərlərə hörmət hissinin formalaşmasında, eyni zamanda, qorunub saxlanması məsuliyyətinin dərk etdirilməsində pedaqojiyönlü bütün təhsil prosesi prioritet istiqamət kimi fayda verə bilər.

**Ədəbiyyat**

1. Alışova N. Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. Bakı, 2011.
2. Adıgözəlov Z. Mustafayev İ. H.Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı, 2003.
3. Əhmədova S. Heydər Əliyevin dil siyasəti. Bakı, 2008.
4. Aforizmlər.

**С.С. Тагиева**

**Забота Гейдара Алиева в наших национальных и нравственных ценностях**

**Резюме**

Традиции, принадлежащие каждому народу, создают основу для формирования и обогащения отношений, нравственных и духовных качеств между людьми, имеют большое значение в формировании таких качеств, как передача эстетических чувств, мастерства, любви к делу из поколения в поколение. поколение. Он служит нравственным мостом между прошлым, настоящим и будущим нашего народа. Дальновидная личность Г.Алиев сказал: «Молодёжь, который плохо знает наши национальные ценности, национальные обычаи и традиции, нашу историю, не может быть патриотом». Именно в необходимости всегда прививать эти ценности новому поколению и заключается смысл статьи.

**S.S. Taghiyeva**

**Heydar Aliyev‘s care in our national and moral values**

**Summary**

The traditions belonging to each nation create a foundation for the formation and enrichment of relations, moral and spiritual qualities between people, and are of great importance in the formation of qualities such as the transmission of aesthetic feelings, craftsmanship, love for work from generation to generation. It serves as a moral bridge between the past, present and future of our nation. The farseeing personality H. Aliyev said: "A young person who does not know our national values, national customs and traditions, and our history well cannot be a patriot." It is the necessity of always instilling these values to the new generation that is the point of the article.

**Redaksiyaya daxil olub:** 07.04.2023

# Heydər Əliyev və ümumtəhsil sahəsində həyata keçirilən islahatlar

**Ayşən Təvəkkül qızı Salahova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**E-mail:** salahovaayshen9@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. F.M. Allahverdiyeva,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** Heydər Əliyev, Ulu Öndər, təhsil, islahatlar, elm, uğur, müvəffəqiyyət
**Ключевые слова:** Гейдар Алиев, великий лидер, образование, реформы, наука, успех
**Key words:** Heydar Aliyev, great leader, education, reforms, science, success

*Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz*

**Heydər Əliyev**

Hər bir xalqın müasir vəziyyətini və gələcəyini öyrənmək istəyiriksə, onun elm və təhsil sahəsindəki uğurlarına diqqət etməliyik. Çünki hər bir ölkənin, dövlətin inkişafı və tərəqqisi onun təhsilindən asılıdır. Tarixi sübut edir ki, böyük uğurlar qazanan xalqlar təhsil və tərbiyəsi düzgün qurulan xalqlardır.

Azərbaycan təhsili çox qədim tarixi köklərə malikdir. Azərbaycan müstəqillik qazanandan sonra təhsil sahəsində uğurlu islahatlar həyata keçirilməyə başladı. Milli quruculuq, siyasi-iqtisadi sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də uğurlar qazanıldı. Azərbaycanın milli təhsil sisteminin qarşısında duran əsas vəzifə və son məqsəd zəngin mənəviyyata, dərin və hərtərəfli biliyə, müstəqillik amalına və demokratik prinsiplər, xalqına sədaqətli və xalqını sevən ahəngdar inkişaf etmiş əsl Azərbaycan vətəndaşları yetişdirməkdir.

Tarixi inkişaf yolu bizə sübut edir ki, hansısa milləti məhv etmək lazımdırsa, onun elmini və təhsilini məhv etmək yetərlidir. Bu kontekstdən yanaşsaq, Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarı oldu. Təhsil sahəsinin prioritet sahə kimi qəbul edilərək islahatların aparılmasının vacibliyini Ulu öndər xüsusi vurğulayırdı və inkişafın elmdən, təhsildən asılı olduğunu bildirirdi.

Siyasi tariximizə xilaskarımız kimi daxil olan dövlət xadimi və xalqın sevgisini qazanan dahi şəxsiyyət Heydər Əliyev istər xalqın taleyində, istər ictimai həyatında, istərsə də dövlət quruculuğu və təhsil sahəsində misilsiz xidmət göstərən liderdir. Heydər Əliyevin həyata keçirdiyi dahiyanə siyasət və cəsarətli addımlar xalqımıza həmişə mənəvi dayaq olub, ona beynəlxalq səviyyədə şan-şöhrət və böyük hörmət gətirmişdir.

Ümummilli Lider Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyması ilə nəticələndi. Həyatın bütün sahələrinə, o cümlədən elm və təhsilə diqqət, qayğı daha da artırıldı. Bu kortəbii baş verən hadisə deyildi. Heydər Əliyev çox yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu təhsil səviyyəsinin artırılması, xalqın maarifləndirilməsi və fundamental elmlərə daha çox diqqət ayrılmasındadır.

O digər sahələrdə keçirdiyi islahatlarla paralel şəkildə elm və təhsilin inkişafı istiqamətində islahatlar həyata keçirirdi. Əminliklə qeyd edə bilərik ki, elm və təhsilin tərəqqisi Heydər Əliyevin rəhbərliyi dövrünə təsadüf edir. Təhsil sahəsindəki islahatlar yalnız paytaxtda deyil, respublikanın ucqar bölgələrini də əhatə edirdi: yüzlərlə təhsil müəssisəsinin, kitab-

xanaların, uşaq bağçalarının və mədəniyyət evlərinin inşa edilərək istifadəyə verilməsi onun adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdığı zaman kəsiyində təhsil sahəsinə yeni ab-hava gəldi, bütün təhsil işçiləri və ziyalılar dövlət qayğısı ilə əhatələndilər. Heydər Əliyevin 1970-ci ildə ADU-nun 50 illik yubileyində Azərbaycan dilində çıxışı, dərsliklərə Dövlət mükafatı verilməsi, rusdilli məktəblərdə təhsilə böyük qayğının göstərilməsinə parlaq nümunədir (3, s. 30).

Ulu öndərimiz Heydər Əliyev təhsilin vacib strateji bir sahə olduğunu vurğulayaraq belə qənaətə gəlmişdir ki, "Təhsil sahəsi həyatımızın ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır". Milli vətənpərvərlik ideyalarının məcmusu olan azərbaycançılıq təlimini gənc nəslə öyrətmək şərəfli vəzifə, mənəvi borcdur, ölkə rəhbərinin təhsilə, elmə böyük qayğısının nəticəsidir ki, 1993-cü ildən 2002-ci ilədək AAK tərəfindən 300 nəfərə elmlər doktora, 2119 nəfərə elmlər namizədi alimlik dərəcəsi verilmişdir (3, s.32).

Elm və təhsil həyatın bir çox sahələrində baş verən problemlərin həllində çox mühüm rol oynayır. Ölkədəki elm və təhsillə bağlı problemlər həm ümumi inkişaf, həm də dövlət siyasəti ilə qarşılıqlı vəhdət təşkil edir. Ümummilli lider Heydər Əliyev çıxışlarında təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu dəfələrlə vurğulamışdır. O, qeyd edirdi ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" (6, s. 3).

SSRİ dövründə – Heydər Əliyevin Azərbaycan respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də təhsil daim diqqət mərkəzində saxlanmışdır. 1972 və 1973-cü illərdə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarları qəbul edilib. Bu qərarlar nəticəsində Azərbaycan respublikasında orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilmiş, 765-dən 2117-yə çatdırılmışdır. Bu uğur ucqar rayon kəndlərində minlərlə azyaşlının təhsilə yönləndirilməsinə səbəb oldu (6, s. 3).

Ölkədə yüksək ixtisaslı kadrların yetişdirilməsi dövlət müstəqilliyinin əsasını təşkil edən mühüm səbəblərdən biridir. Ulu Öndər təhsil və maarifin inkişafına qayğısını əsirgəmirdi. Nadir ixtisaslar üzrə kadr kontingenti və milli kadr potensialının yaradılması respublikamızın əldə etdiyi tarixi nailiyyətlərindən biri idi. Bu səbəbdən Heydər Əliyev demək olar ki, hər il gənclərimizi təhsil almaq üçün keçmiş SSRİ-nin tanınmış ali təhsil müəssisələrinə göndərmişdir. 15 minə yaxın azərbaycanlı gənc mütəxəssis SSRİ-nin 170 ali təhsil ocağında təhsil almışdır. 1970-ci ildən başlayaraq Azərbaycandan xaricə hər il 800-900 tələbə təhsil üçün yollanmışdır. (6, s. 3)

Təhsil sahəsində mövcud problemlərin aradan qaldırılması və Azərbaycan təhsilinin dünyanın inkişaf etmiş ölkələrinin təhsilinə uyğunlaşdırılması və dünya təhsil sisteminə inteqrasiya üçün ölkə rəhbəri bir sıra məqsədli, ciddi tədbirlər həyata keçirmiş, fərman və sərəncamlar imzalamışdır.

"Azərbaycan respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncam 2002-ci il 4 oktyabrda verilmişdir. Ümumtəhsil məktəblərinin genişləndirilməsi həmçinin, maddi-texniki bazanın möhkəmləndirilməsində bu sərəncam mühüm rol oynamışdır (6, s. 3).

17 fevral 2003-cü ildə "Azərbaycan respublikasında yeni ümumtəhsil məktəblərinin tikilməsi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında sərəncam ölkədə təhsil sahəsində yaranmış problemlərin aradan qaldırılmasında xüsusi əhəmiyyətə malik olmuşdur (6, s. 4).

Elm və təhsil ayrı-ayrılıqda iki müstəqil sahəni özündə ehtiva etsə də, onları bir-birindən təcrid etmək mümkün deyil. Bu səbəbdən elm və təhsillə bağlı problemlərə kompleks yanaşılmışdır. Elmi təhsilsiz, təhsili isə elmsiz təsəvvür etmək qeyri-mümkündür. Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Heydər Əliyev elm ilə təhsilin inteqrasiyası istiqamətində işlərin həyata keçirilməsinə nail olmuşdur.

Yüksək keyfiyyətli təhsildən yalnız o ölkələr danışa bilər ki, orada fundamental tədqiqatlar aparılmış olsun. Fundamental tədqiqat aparmayan ölkədə yüksək keyfiyyətli təhsildən danışmaq mümkünsüzdür. Yenilik və təşəbbüslərə bələd olan, müasir texnologiya və innovasiyaları mənimsəyən kadrlar olmadan arzu edilən inkişaf səviyyəsinə çatmaq mümkün deyil. Bunu xüsusi nəzərə alan Heydər Əliyev elmin inkişaf etdirilməsi ilə bağlı elmi mərkəzlərin üzərinə düşən vəzifələr barədə belə qənaətə gəlmişdir: “Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir (6, s. 5).

Azərbaycan Milli Elmlər Akademiyasında fəaliyyət göstərən yüksək ixtisaslı mütəxəssislər və alimlər birgə proqram üzərində işləməli və kompleks inkişaf proqramları ərsəyə gətirilməlidir. Təhsilin keyfiyyət faizinin yüksəlməsi bu tip proqramların həyata keçirilməsindən və kadr potensialının inkişafından birbaşa asılıdır.

Ümummilli lider Heydər Əliyevin ərsəyə gətirdiyi təhsil siyasəti konsepsiyasına əsasən ali təhsil müəssisələrinin əksəriyyətində təhsil alan gənc mütəxəssislərin elmi-tədqiqat işlərinə yönləndirilməsi üçün lazım olan şəraiti yaradılmışdır. Təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası nəticəsində Azərbaycanda təhsil alan tələbələr respublika üzrə olimpiadalarda, konfranslarda iştirak edir, xarici beynəlxalq əlaqələr qururdu. Nəticə etibarilə gənc mütəxəssislərdə elmə, elmi tədqiqatlara maraq daha da artır. 1998-ci ildən bu günə kimi ali təhsil və elmi-tədqiqat müəssisələrinin 1500-dən çox nümayəndəsi Türkiyə, Polşa, Amerika, Rusiya, Böyük Britaniya, Almaniya və digər ölkələrdə Azərbaycan elmini və təhsilini peşəkarcasına təmsil etmişlər. Aydın məsələdir ki, elm və təhsilin sürətli inkişafının ən əsas amillərindən biri dünyanın inkişaf etmiş ölkələrinin təhsillə bağlı təcrübələrinə yiyələnmək və beynəlxalq əməkdaşlıq etməsidir.

Ulu öndər Heydər Əliyevin elm və təhsilin təməl daşlarını təşkil edən islahatları hazırkı dövrdə cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təhsilin dünya təhsil standartlarına uyğunlaşdırılması, ümumtəhsil məktəb şəbəkələrinin genişləndirilməsi, həmçinin pedaqoji sahədə fəaliyyət göstərən müəllimlərin və elm adamlarının əmək haqlarının artırılması ilə bağlı fərman, sərəncam və digər sənədlər imzalanmışdır. Məqsəd isə birbaşa olaraq elmdə və təhsildə yaranmış problemlərin həll edilməsidir. Cənab İlham Əliyev 21 avqust 2004-cü ildə belə bir sərəncam imzalamışdır. “Azərbaycan respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında”. Günümüz üçün əhəmiyyətli olan bu sərəncam informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından böyük əhəmiyyət kəsb edir (6, s. 5).

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ümumxalq məhəbbəti qazanmış, xeyirxahlığı, alicənablığı, qayğıkeşliyi, yüksək insani keyfiyyətləri ilə “millət atası” və “dövlət qurucusu” missiyasını həyata keçirmiş, nəhəng dövlət və siyasi xadim kimi şöhrət qazanmış, “Heydər-xalq!”, “Xalq-Heydər!” hikmətli kəlamı dillər əzbəri olmuşdur. Onun dövlət quruculuğundakı fədakarlığı gələcək nəsillər üçün örnəyə çevrilmişdir (3, s. 35).

Ulu Öndər Heydər Əliyevin təhsil sahəsindəki islahatları bu gün də öz müsbət nəticələrini göstərir. Bir tərəfdən təhsil sistemimizi dünyada uğurla təmsil edən, digər tərəfdən respubli-

kamızın hərtərəfli inkişafında yaxından iştirak edə biləcək gənc mütəxəssislərin yetişməsinə zəmin yaradır.

**Məqalənin aktuallığı.** Yeniləşən, müasirləşən təhsil islahatlarının həyata keçirilməsində Heydər Əliyevin müstəsna xidmətlərinin üzə çıxarılaraq ümumiləşdirilməsi, sistemləşdirilərək təhlilə cəlb edilməsi aktual və prinsipial mahiyyət daşıyır, prioritet elmi nəticələrə gəlməyə əsas verir.

**Məqalənin elmi yeniliyi.** Təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin bu strategiyanın həyata keçirilməsində xidmətlərinin yeni elmi-meyar və prinsiplər əsasında dəyərləndirilməsi əsas məqsəd və niyyət kimi müəyyənləşdirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ümummilli lider Heydər Əliyevin ümumtəhsil sahəsində islahatlar konsepsiyasının ümdə müddəalarının təcrübi imkanları və icrası ilə bağlı məqalədə qaldırılan məsələlərdən praktik şəkildə faydalanmaq olar.

## Ədəbiyyat

1. H. Əhmədov. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, Elm, 2010.
2. N. Əhmədzadə. Heydər Əliyevin kəlamları. Bakı, Qanun, 2017.
3. A. Səmədov. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə, 2010.
4. Heydər Əliyev və Azərbaycan elmi: Biblioqrafik göstərici. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 40 illiyinə həsr olunur, Bakı: Şərq-Qərb, 2010.
5. https://ulfet-az.com/Home/SinglePost?Post/d=2100
6. http://anl.az/down/meqale/xalqqazeti dekabr 2009/99233.
7. htm//Xalq qəzeti. – 2009. – 12 dekabr. - s 6. “Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı”.

**А.Т. Салахова**

## Гейдар Алиев и реформы в сфере общего образования

### Резюме

Как и в других сферах жизни, обретший независимость Азербайджан добился блестящих успехов в области науки и образования и щедро служил своему народу. Гейдар Алиев в период своего руководства Азербайджаном провел реформы в области развития образования, строительства и благоустройства новых школ. Эти реформы, заложенные Великим Лидером, успешно продолжаются сегодня Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым.

**A.T. Salahova**

## Heydar Aliyev and reforms implemented in the field of general education

### Summary

As in other spheres of life, Azerbaijan, which gained independence, achieved brilliant success in the field of science and education and served its people with generosity. Heydar Aliyev carried out reforms in the field of development of education, building and improvement of new schools during his leadership of Azerbaijan. These reforms, which were founded by the Great Leader, are being successfully continued today by the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev.

**Redaksiyaya daxil olub:** 18.05.2023

**Heydər Əliyev irsində təhsildə milliliyin nəzərə alınması**

**Şölə Firdovsi qızı Mustafayeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**E-mail:** sholamustafayeva27@gmail.com

**Rəyçilər:** ped.ü.f. d., dos. F.M. Allahverdiyeva,
ped.ü.f. d., dos. P.M. Həsənova

**Açar sözlər:** millilik prinsipi, Heydər Əliyev irsi, milli dövlətçilik, ümumbəşəri və dini dəyərlər
**Ключовые слова:** принцип национализма, наследие Гейдара Алиева, национальная государственность
**Key words:** principle of nationality Heydar Aliyev heritage statehood, national moral and human values religious values

Respublikamız müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, təhsildə də yeniliklər əldə olunmuşdur. Tarixi təcrübə göstərir ki, cəmiyyətin inkişafında gənc nəslin təhsilinin rolu əvəzsizdir. Bu gün gənc nəslə verilən təhsil sabahkı elmin, mədəniyyətin, sosial tərəqqinin əsasını təşkil edəcəkdir. Ölkə prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi Milli Dövlət Strategiyasında deyildiyi kimi:

— məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqın milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

— milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran kadrlar hazırlamaq... müasir təhsilin başlıca vəzifələrindəndir.

Təhsilin prinsipləri təhsil-tərbiyənin məqsədləri ilə müəyyən olunur və tarixi xarakter daşıyır. Onun əsas vəzifələrindən biri intellektual səviyyə ilə yanaşı, həm də insanın sosial və mənəvi inkişafına təkan verməkdir. Müasir təhsilin əsas problemlərindən biri təhsilin inkişafetdirici və tərbiyəedici mahiyyətini dəyərləndirməkdir. Belə ki, müasir təhsil konsepsiyasında sərbəst düşüncə tərzinə malik, müstəqil, azad, demokratik baxışlı Azərbaycan vətəndaşlarının milli ruhda tərbiyəsi mühüm əhəmiyyət kəsb edir.

Xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı üçün qoyub getdiyi qiymətli irs mənəvi tərbiyəni, eləcə də milli mənəviyyatımızı zənginləşdirə biləcək dəyərli mənbədir. Prof. Ə.Ağayev haqlı olaraq belə bir qənaətə gəlirdi ki: “Heydər Əliyev cənablarının çıxışları, nitqləri və məruzələrində irəli sürülən tərbiyəvi baxımdan qiymətli fikirlər tərbiyə işinin həm məzmununu, həm də həyata keçirilmə yollarını müəyyənləşdirir, milli tərbiyə konsepsiyasının müddəalarını ortaya qoyur” (1, s. 205). Doğrudan da, Heydər Əliyev irsi ilə tanış olan hər kəs burada müstəqil Azərbaycanın inkişaf edib dünyada tanınması yollarını görə bilər. Ulu öndər cəmiyyətin gələcək tərəqqisini gənclərimizin mükəmməl təhsil almasında görürdü. O, deyirdi: ”Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Əlbəttə, bu da təhsil sistemimizin qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyası, təhsilin modernləşdirilməsi yolu ilə həyata keçə bilər. Müstəqil dövlətimizi möhkəmləndirmək üçün müasir gəncliyə elmi-texniki biliklər vermək, praktik vərdişlər mənimsətmək bacarıqları ilə yanaşı, milli-mənəvi dəyərlərə malik olmaq, milli xüsusiyyətlərinə hörmətlə yanaşmaq kimi hisslər də aşılamaq lazımdır. Ulu Öndər dönədönə bildirirdi ki, gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir, tariximizi, dilimizi, milli ənənələrimizi, milli dəyərlərimizi yaxşı bil-

məlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz... Bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır (2, s. 357-358).

Hər bir xalqın özünü təsdiqi üçün onun müstəqilliyini, azad, demokratik bir mühitdə yaşamasını təsdiq və təmin edə biləcək güclü dövləti, bu dövlətin rəmzi olan atributları, onun fəaliyyətini tənzimləyəcək Əsas Qanunu, dili, dini dəyərləri olmalıdır. Yalnız güclü, qüdrətli dövlət xalqın azad yaşamasının təminatçısı ola bilər, xalqını maddi və mənəvi sərvətlərinin əsl sahibi edə bilər, onun dilini, milli-mənəvi dəyərlərini yaşada bilər. Məhz belə bir azad, demokratik bir dövlətin qurucusu olan Heydər Əliyev hər bir Azərbaycan gəncinə bildirirdi: ”Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Gənclərin əsas vəzifəsi özünü Azərbaycan respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır. Vətənini, torpağını, dövlətini, müstəqil Azərbaycanı qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir“ (3, s. 15).

Dövlətçilik, milli müstəqillik, ana dilinin mövqelərinin möhkəmləndirilməsi, dini və milli dəyərlərə hörmət, milli sərvətləri qorumaq kimi məsələlər Heydər Əliyev irsində azərbaycançılıq prinsiplərinin əsasını təşkil edir. O bildirirdi: “Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycanın dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlarda da azərbaycançılıq hissləri yaşamalıdır” (5, s. 360).

Ümummilli Liderimiz qarşıya belə bir vəzifə qoyurdu ki, öz milli və mənəvi kökünə sadiq olan hər bir gənc, həm də ümumbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etməyi, onları öz mənəvi dəyərlərimizə birləşdirərək xalqımızın mənəviyyatını daha da zənginləşdirməyi bacarmalıdır. O, məsələnin ikinci tərəfini də açaraq qeyd edirdi ki, milli-mənəvi dəyərlərimizin dünyaya inteqrasiyası həm də ümumbəşəri dəyərlərə öz töhfəsini verə bilər.

Ulu Öndər Heydər Əliyev dövlətçilik atributlarını Azərbaycan milli ideologiyasının tərkib hissələrindən biri kimi dəyərləndirərək bildirirdi ki: “Mən hesab edirəm ki, məktəblərdə Azərbaycanın müstəqilliyinin atributları yaxşı təbliğ olunmalıdır. Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağına münasibət, onun müqəddəsliyinə hörmət hər bir uşaqda, yeniyetmədə daxilən olmalıdır. Azərbaycanın bayrağı sadəcə bayraq deyil, o, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir” (5, s. 22 ). O, bu fikirləri Əsas Qanun, gerb, himn haqqında da demişdir. Bu fikirlərlə kifayətlənməyərək Ulu Öndər “Azərbaycan Respublikası dövlət atributları işinin gücləndirilməsi haqqında” 13mart 1998-ci il tarixli sərəncamı ilə Dövlət bayrağının, Dövlət gerbinin, Dövlət himninin ölkə vətəndaşlarına, o cümlədən məktəblilərə öyrədilməsini ön plana çəkmişdir. Məhz bu sərəncamdan sonra “Azərbaycan Respublikasının dövlət rəmzləri” adlı ilk əsər nəşr olunur. Kitabda ilk dəfə müstəqil Azərbaycanın dövlət rəmzlərinin yaradılması tarixi sistemli işlənilir, milli rəmzlərin bərpası və qəbulu uğrunda H.Əliyevin rolu qeyd olunur, dövlət atributlarının mənası elmi şəkildə araşdırılır.

Hazırda Azərbaycan bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də nailiyyətlər qazanır. Bu proses həm də Azərbaycan mənəviyyatını zənginləşdirməklə yanaşı, milli-mənəvi dəyərlərimizə daha çox bağlı olmağı tələb edir. Heydər Əliyevin irsində təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçiliyi prinsipləri əsasında qurulması ideyasının ön planda durmasını görə bilərik. Düzdür, Heydər Əliyev xalqımızın mənəviyyatının zənginləşdirilməsinin bir yolu kimi ümumbəşəri və dünyəvi dəyərlərdən səmərəli istifadə etməklə, onları öz mənəvi dəyərlərimizə sintez etməkdə görürdü və bunu gələcək üçün strateji yol hesab edirdi. Lakin ulu öndər təhsilin məzmunca milli idealogiyaya uyğun, müstəqillik prinsiplərinə müvafiq qurulmasını dönə-dönə bildirirdi.

Təhsilin milli zəmində inkişaf etməsini, milli kadr potensialımızın günü-gündən artmasını tövsiyə edən Ulu Öndər məhz müstəqil dövlətimizin idarə olunmasını və inkişafını yüksək sa-

vada, biliyə, ixtisasa, yüksək elmə malik insanların olmasında, özü də onların cəmiyyətdə çoxluq təşkil etməsində görürdü.

**Məqalənin aktuallığı.** Məqalədə gənclərin milli ruhda tərbiyə olunması, milli-mənəvi dəyərlərə önəm verilməsi baxımından Ümummilli Lider Heydər Əliyevin vaxtilə irəli sürdüyü fikirlərin aktuallığı elmi-nəzəri cəhətdən dəyərləndirilir.

**Məqalənin elmi yeniliyi.** Ulu Öndər Heydər Əliyevin müasir təhsillə bağlı qəbul etdiyi qərar və sərəncamlar bu gün də bu sahənin inkişafına təsir göstərir, onun dünya təhsil sisteminə inteqrasiya olunmasına öz töhfələrini verir. Məqalədə belə bir yeniləşmə prosesinə qoşulma elmi-pedaqoji aspektdən əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə qaldırılan problemlər müasir təhsil təcrübəsində əhəmiyyət kəsb edə bilər, irəli sürülən müddəaların praktik baxımdan tətbiqi məsləhətdir.

**Ədəbiyyat**

1. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərləri. Bakı, Mütərcim, 2011.
2. "Azərbaycan müəllimi" qəz., 1997, 4 sentyabr.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir / Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar), Bakı: Azərnəşr, 1998, s. 13-18.
4. Qəndilov S., Cəfərov N., Əhmədov H., Heydər Əliyev Azərbaycan məktəblilərinin gözü ilə, Bakı: Gənclik, 1998.
5. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi, "Xalq qəzeti", 1996, 6 fevral.
6. Təhsil millətin gələcəyidir. M.Mərdanov və Ə.Quliyevin redaktəsi ilə, Bakı: Təhsil, 2012.

**Ш.Ф. Мустафаева**

**Учет национальности в образовании в наследии Гейдара Алиева**

**Резюме**

В статье был научно исследован национализм, являющийся главной скалой наследия Гейдара Алиева, в качестве главного аспекта взята интеграция с общечеловеческими ценностями и рекомендовано вновь и вновь пользоваться этим наследием.

**S.F. Mustafayeva**

**Account of nationality in education in Heydar Aliev's heritage**

**Summary**

The article scientifically studied nationalism, which is the main rock of Heydar Aliyev's legacy, took integration with universal values as the main aspect and recommended to use this heritage again and again.

**Redaksiyaya daxil olub:** 18.04.2023

***Ümumi pedaqogika. Fənlərin tədrisi metodikası***

**Milli-mənəvi dəyərlərimizdən**

**Gülarə Hüseynağa qızı Kərimova**
*BDU-nun Pedaqogika kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** mansur.manerov@mail.ru

**Rəyçilər:** ped.e.d., prof. L.N. Qasımova,
ped.ü.f.d. F.M. Allahverdiyeva

**Açar sözlər:** milli, mənəvi, dəyər, şagird, düzlük, doğruçuluq, inam, valideyn
**Ключевые слова:** народ, нравственность, ценность, ученик, честность, правдивость, вера, родитель
**Key words:** people, morality, value, student, honesty, truthfulness, faith, parent

Tərbiyənin təməli millilik zəmini üzərində qurulur. Onun təşkili və həyata keçirilməsi vətəndaşın gələcək normal inkişafını təmin edir. Milyon illərin təcrübəsindən irəli gələn bu fikir elmi pedaqogikada özünə hüquqi yer qazandırmışdır. Aristotel, Sokrat, H.Bəhmənyar, N.Tusi, N.Gəncəvi, M.M.Nəvvab, M.T.Sidqi kimi görkəmli şəxsiyyətlər bu məsələləri əsərlərində bu və ya digər dərəcədə əsaslandırmışlar. Sistemli olmasa da, bu problemin elmi əsaslarını şərh edə bilmişlər.

Tarixin inkişafı gedişində insanların intellektual səviyyələri xeyli artmış, iqtisadi və sosial şəraitlərin müxtəlif tarixi mərhələlərdə artıb-azalmış, məktəblərin və müəllimlərin, tərbiyə müəssisələrinin sayı və şəbəkələri genişlənmiş, məktəb və ailələrin tərbiyə vasitələri sırasına yeni informasiya vasitələri qoşulmuşdur. Bütün bunlar, böyüyən nəslin təlim-tərbiyəsinə əsaslı təsir göstərmiş və göstərməkdədir. Məhz bu baxımdan uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinin daim gündəmə gətirilməsi vacib məsələlərdən biri sayılmışdır.

Xalqın tarixi köklərindən süzülüb gələn milli-mənəvi dəyərlərindən biri düzlük və doğruçuluqdur. Doğru olmaq, mövcud həqiqətləri, obyektiv gerçəklikləri olduğu kimi görməkdir, onu bilmək və başqalarına olduğu kimi çatdıra bilməkdir. Xalqımız özünün əxlaq və tərbiyəsində doğruçuluq və düzlüyə xüsusi diqqət vermiş və onun əhəmiyyətini qeyd etmiş, ali keyfiyyət kimi nəsillərə çatdırmağa çalışmışlar. Doğruçuluq əxlaqın çəki vahidi, milli-mənəvi dəyərlərimizin əsas anlayışlarından biridir. Tarixən insanlar doğruçu və düzlüyü daim dəyərləndirilmiş və hörmətlilik rəmzinə çevrilmişdir. Belə adamlar el arasında sözü düz, əməli saf, əqidəsi təmiz şəxs kimi dəyərləndirililərlər. Təsadüfi deyildir ki, xalqın tarixi qaynaqlarından sayılan el ədəbiyyatında bu məsələyə geniş yer verilmişdir. “Doğruya zaval yoxdur”, “Doğru yolla gedən yorulmaz”, “Düzlük dost qalasıdır” kimi deyimlər bu qəbildəndir.

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, təbiətdə, cəmiyyətdə və insan təfəkküründə baş verən dəyişiklikləri, onların səbəblərini öyrənmədən, bilmədən fikir söyləmək qəbahət sayılır. Çünki həqiqi olmayan fikirləri dinləyənlər onları həqiqət kimi qəbul edə bilərlər. Bu isə insanların həqiqətdən uzaq düşməsinə imkan yarada bilir. Ona görə də insanlar doğruçuluq və düzlük, mənəvi tərbiyənin sahibi olmaları ilə xalqın gözlərində yüksələ bilirlər. Deməli, doğruçuluğun əsas şərtlərindən biri hadisələr, cisimlər, insanlar haqqında düzgün məlumatlar toplamaq, obyektiv, düzgün nəticələr çıxarmaqdır. Başqa formada desək, həqiqi elmə yiyələnməkdir. Prof. Z.İ. Qaralov deyirdi: “Həqiqi elmi, biliyi olmayan bir şəxs hadisələri öz başa düşdüyü (ağlına gələn) şəkildə şərh etməyə səy göstərəcək, beləliklə də adamları çaşdıracaqdır. Belə adamlar yalançılardır” (2, s. 132). Doğruçuluq tərbiyəsi dedikdə, əsasən düz danış-

maq, həqiqətləri təhrif etmədən başqalarına çatdırmaq bacarığını formalaşdırmaq nəzərdə tutulur. Düzlük və doğruçuluq milli-mənəvi dəyərləri həm də ümumbəşəri xarakteri daşıyır. Lakin bu dəyərlər Azərbaycan xalqının mənəviyyatının ən başlıca göstəricilərindəndir. A. Bakıxanov yazırdı:

Düzlükdən qüdrətli bir dövlət yoxdur,
Ey Qüdsi düzlükdə səadət çoxdur (1, s. 107).

Doğruçuluğun əsasında inam dayanır. İnam olmasa insanlar hər şeyə şübhə ilə yanaşar, tez-tez öz fikrini dəyişər, mövqeyini müəyyən edə bilməz. İnam olarsa, insan tərəddüd etmədən, çəkinmədən fikrini ifadə edə bilər. İnam düzgün olarsa, insanın doğruçuluğu şübhə altında olmaz. Böyük Nizami düzlüyü doğruçuluğun təməl daşı, ürəyin düz olmasını isə ədalətin əsası hesab edirdi. İnsanları düzlüyə çağıran Nizami Gəncəvi deyirdi:

Əyri gülü tikan qucar, aldadar,
Bil ki şəkər qamışı düzlüyündən bal dadar (4, s. 196).

Düzlük və doğruçuluğun bir sıra komponentləri vardır. Bu sıraya daxildir:

— Valideyn doğruçuluğu. Uşağın qəbul etdiyi ilk şirin səs valideyn nitqidir. Valideynin nəvazişli sözləri, səsləri, qayğısı altında uşaqlar böyüyür, valideynləri ən müqəddəs varlıq kimi qəbul etdikləri üçün böyüdükcə onların sözlərinə inanır və o sözləri varlıqlarına köçürürlər. Valideyn necə danışırsa, hərəkət edirsə uşaq onun daşıyıcısına çevrilirlər. Uşaqları düzgün tərbiyə etmək üçün ailə düzlük-doğruçuluq abu-havasını ailədə yaratmağı vacib məsələ saymalıdır. Bunun üçün ailədə ilk növbədə qarşılıqlı hörmət, səmimiyyət, etibar və inam hissi yaradılmalıdır. Belə olan halda ailədə düzlük və doğruçuluğun olması qaçılmazdır. Digər tərəfdən, ailədə inamsızlığa, sərtliyə, qorxuya, xudbinliyə yol verilməməlidir. Əgər ailədə yalan danışmağın olduğunu gördükdə onun həmin an üstünü açmamalı, üsyankarcasına onu açıqlamamalı, yalan danışana onun aydın göründüyünü tədricən başa salmaq lazımdır.

— Müəllimin doğruçuluğu. Bildiyimiz kimi, müəllim məktəbdə aparıcı qüvvə, əsas simadır. Buna görə də müəllim daim şagirdlərə nümunədir. Müəlliminə yaxından bələd olan şagird onun səmimiyyətinə, düzlüyünə hörmət edir, ona oxşamağa çalışır. Müəllimin istər dərsdə, istərsə də dərsdən sonrakı tədbirlərdə sözündə düzlüyü, doğruçuluğu, hərəkətində onlara sadiqliyini ifadə etməsi şagirdlərin bu ruhda tərbiyə olunmalarına stimul verir.

— Dostlarının doğruçuluğu. Şagirdin ünsiyyət qurduğu şəxslərdən biri də dostlarıdır. Dostunu düzlükdə, doğruçuluqda sınayan şagird özünün prototipini gördükdə ona sadiq olur və əsl dostunu tapdığına sevinir. Bir-birinə hörmətlə yanaşır və işə çəkinmədən birlikdə rəvac verirlər.

— Sosial həyatda doğruçuluq. Təbiidir ki, düz və doğruçu olan adamlar bütün illərdə irəli çəkilir, tez-tez tariflənir, gördükləri işlər işıqlandırılır, onların xidmətləri dəyərləndirilir. Düzlük və doğruçuluğun daşıyıcısı olan şəxs onların fəaliyyətinə verilən dəyərlərdən qürurlanır, yaxınlarını da belə görməyə çalışırlar. Onlar bilirlər ki, düzlük və doğruçuluq şöhrətə və hörmətə gedən yoldur. Bu baxımdan da ailədə böyütdükləri uşaqların da bu ruhda tərbiyə olunmalarına və bu ruhda böyüməlرinə çalışırlar. Nizami Gəncəvi doğru danışanları möhtəşəm şəxs hesab edir, düzlük və doğruçuluqdan bəhs edərkən belə deyir:

Düzlükdə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin ilk məziyyəti (4, s. 229).

Doğruçuluq azərbaycanlıların müqəddəs kredosudur. Fikrimizi fransız yazıçısı Aleksandr Dümanın "Qafqaz" kitabından gətirdiyimiz bir nümunə ilə aydınlaşdıraq: O, göstərirdi ki, Bakıda üç xalqın arasında azərbaycanlılar sözübütövlükdə, düzlükdə seçilən ən möhtəşəm xalqdır. O, yazırdı: "Farsla həmişə ehtiyatlı olun, onun tək imzası sizə inam yox, ehtimal verə bilər. Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdır, bu ehtiyatsızlıq onu iflas edə bilər, dilsizə və saxtakara çevrilib dünənki himayədarı bu gün bərk ayaqdadırsa ona nankorluq edər. Tatarın – azərbaycanlının imzasına ehtiyac yoxdur. Bircə sözü bəs edər. Düzlüklə doğruçuluq bir-birindən ayrılmaz əkiz qardaşlardır. Onları bir-birindən ayrı götürmək və fərqləndirmək çox çətindir. Doğruçu adama çox zaman düz adam kimi yanaşılır və ya təhlil edilir. Düzlük saflıqdır, təmkinlilikdir. Düz adam nəfsinin toxluğu, müdrik fikirləri ilə hamının sevimlisinə çevrilir. Düz adam bir sıra keyfiyyətləri özündə birləşdirir. Bunlardan biri insaflı olmaqdır. İnsaflı adam halallığı gözləyən şəxsdir. Belə şəxs görülən hər bir işdə halallıq axtarır, həmişə şahidliyini düşünür, insafsız olmaqdan qorxur. N.B.Vəzirov yazırdı: "Yer üzündə cənnət mümkündür, hərgah zəhər olsa, insaf olsa, vicdan olsa". "Quranın "Əl Bəqərə" surəsinin 280-ci surəsində göstərilir ki, əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin. Əgər bilmək istəyirsinizsə borcu ona bağışlamağınız daha yaxşıdır". İnsaflı adam mənsəbindən, əqidəsindən, peşəsindən asılılığı inkar edir. Vəziyyətindən, gördüyü işlərdən asılı olmayaraq, daim Allahdan qorxur. Düz şəxsin xarakter xüsusiyyətləri sırasında nəfs də mühüm yer tutur. Nəfis insanı çox halda pis əməllərə sövq etdirir. N.Tusi "Əxlaqi Nasiri" əsərində bu məsələyə geniş yer vermişdir. O, göstərdi ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapmalıdır. Onu (günaha) batıran isə əlbəttə, ziyana uğrayandır. A.A. Bakıxanov övlad üçün mal-dövlət, pul, qızıl, altun yığan valideynləri ittiham edirdi. Atanın varı özü üçün və öz istedadı üçün yığılmışdır. O, dövlətdən oğula pay düşmür. Nəfisi tərbiyə etmək, onu şagirdlərə aşılamaq, şagirdləri gözütoxluğa, xeyirxahlığa, səxavətliliyə yiyələndirmək lazımdır. Sədi Şirazi deyirdi:

Kini razı salsan qul olar sənə,
Nəfsi razı salsan əsir olarsan.

Düz şəxsin xarakter xüsusiyyətlərindən biri də şərəf və ləyaqət hissinin olmasıdır. Uzaq keçmişlərdə Azərbaycan torpağında məbədlərin qapısına iri hərflərlə insanlığa çağırış kimi səslənən kəlamı yazılmışdır. Kəlamlardan biri belə idi. Dünyaya vəkil edilmiş mələk deyir: dünyada xeyir də vardı, şər də. Elələri vardır ki, nə xeyirdir, nə də şərdir. Kim bu üç şeyin üçünü də lazım olduğu kimi tanısa, canını mənim əlimdən qurtaracaq və sağ qalacaqdır, tanımasa onu ən əziyyətli şəkildə öldürəcəyəm. Bu o deməkdir ki, mən onu tədriclə, yavaş-yavaş, uzun müddət içərisində məhv edəcəyəm (5, s. 154). Bu kəlamları qeyd etməkdə məqsəd şagirdləri insanlığa, xeyirxahlığa, ədalətliliyə, şərəfli, ləyaqətli ömür sürməyə yönəltməkdən ibarət idi. Bunları erkən yaşlardan şagirdlərin malına çevirmək üçün onlarda möhkəm əqidə formalaşdırmaq lazımdır. Bu sırada namuslu olmaq mühüm şərtlərdən biridir. Namus insan saflığının, müdrikliyin, ləyaqətin nəhəng daşıdır. O, insanı düzlüyə, sözübütövlüyə, məsuliyyətliliyə, vicdanlı olmağa yönəldir. Namus insanı daim paklığa, xeyirxahlığa, düz əməllərə sövq etdirir. Azərbaycanın böyük və tanınmış şairi M.Ə.Sabir "Uşaq və pul" şeirində namuslu olmağın insan üçün mühüm şərt olduğunu gündəmə gətirərək göstərir ki, uşaq qoca bir kişinin yoldan keçərkən yerə saldığı pulu görüb onu götürür və sahibinə vermək əvəzinə evə gətirir. Bunu görən ana oğlunu nəsihət edərək vicdanlı, namuslu olmağa səsləyir. O, deyir:

Gərçi pul çox fərəh fəzadır, oğul!
Leyk namus pak bahadır, oğul! (6, s. 21)

Namusluluğun ifadə formaları abır, həya, ismətdir. Abır-həya Azərbaycan xalqının soykökündən gələn dəyərlərdəndir. Azərbaycanlılar öz geyimləri, danışıqları, yemək stolu arxasında, böyüklərlə münasibətində də özünü təzahür etdirir. Tarixən xalq öz milli geyimi ilə, üzlərini örpəyə bürüməklə bu keyfiyyəti təcəssüm etdirmişdir. Bu gün qeyd olunanlar kölgədə qalsa da, milli soykökümüzdən gələn bu dəyər özünü qoruyub saxlamaqdadır. Yenə də böyüklər danışanda kiçiklər susar, gəlinlər böyüklərin yanında övladlarına süd verməz, qucaqlarına alıb yedizdirmək, xoşagəlməyən sözlər işlətməzlər. Abır-həyalı adam ağıl və hisslərinə əsaslanaraq oturub-durmağını, gülüşünün yerini, əl-qol ilə danışığını dərk edir, lüzumsuz hərəkətlərə yol vermir. Təsadüfi deyildir ki, xalq pedaqogikasında bu məsələyə geniş yer verilmişdir. Xalq demişdir: "Abır harda çörək orda", "Abrını abırsızdan saxla", "Abrını yeyib, həyacanı da belinə bağlayıb", "Abırlı olmaq el-oba yanında üzü ağ olmaq deməkdir" və s. Düzlük və doğruçuluğu əks etdirən xüsusiyyətlərdən biri də alicənablıqdır. Uşaqların valideynlərlə qarşılıqlı ünsiyyəti, ailə üzvlərinin səmimi rəftarı həm də alicənablıq üzərində köklənir. Müəllimin şagirddə gördüyü ən kiçik nöqsanı belə görüb, onu böyük nöqsanla uzlaşdırıb çox şişirtməməsi, onun qüsurlarını görüb köməklik göstərilməsi alicənablığın formalarıdır. Alicənab adamlarda geniş ürək, işıqlı təbəssüm, sözübütövlülük özünü açıq-aşkar göstərmiş olur. Onların başlıca məramı insanlar arasında əmin-amanlığı qorumaq, insanların firavan yaşamasına sevinmək, ədalətli mövqe tutmaq, şərdən, pislikdən, paxıllıqdan uzaq olmaqdır. Düz adam mülayim, həlim, mehriban, səmimi, təvazökar, sadə və xeyirxah olur.

Aparılan araşdırmalar göstərir ki, doğruçuluq və düzlük tərbiyəsinin bir sıra cəhətləri vardır ki, onların məktəblilərə aşılanması zəruri məsələlərdən biridir. Bu sıraya daxildir:

— sözlə əməlin vəhdəti doğruluğun atributlarındandır;
— doğruluq milli-mənəvi dəyərlərdəndir;
— doğruluq ağıla əsaslanır ki, o da adil insan olmağın ilkin şərtidir;
— insana doğru, insanlıq yolunu göstərən düzlükdür;
— doğruçu adamın sözü ilə özü birdir.

Şagirdlərdə düzlük və doğruçuluq hisslərinin necə aşılandığını öyrənmək məqsədilə orta məktəbin V-IX siniflərində dərs deyən ədəbiyyat, tarix, coğrafiya müəllimləri ilə sorğuların keçirilməsini məqsədəuyğun saydıq. İlk növbədə müəllimlərə "düzlük və doğruçuluq" anlayışını şagirdlərə necə aşılayırsınız sualı ilə müraciət etdik. Müəllimlərin cavabları çox da qaneedici olmasa da, fikirlərindən bu problemi az-çox mənimsəmələri, yeri gəldikcə onlardan qaynaqlana bilmələri aydın göründü. Lakin dərsdə onları necə tətbiq etmələri haqda heç bir söz demək istəmədilər. Buradan belə qənaətə gəlmək olur ki, müəllimlər düzlük və doğruçuluğun mahiyyətini bilsələr də, onu şagirdlərin təfəkkür məhsullarına çevirmələri haqda heç fikirləşməmişlər.

Aparılan araşdırmalardan belə qənaətə gəlinmişdir ki:

— şagirdlərin milli-mənəvi dəyərlərə məhəbbət ruhunda tərbiyə olunmaları üçün düzlük və doğruçuluğu daim gündəmdə saxlamaq lazımdır;

— düzlük və doğruçuluğun insanın başıuca olmasında əsas şərt olması şagirdlərə başa salınmalıdır;

— "düz adam kimi hesab etmək olar" – fikri ilə uşaqlara müraciət etməli və onların mahiyyətini şagirdlərə öyrətmək lazımdır;

— problem baxımından özlərini xarakterizə etmələrinə şərait yaradılmalıdır.

— uşaqlarda düzlük və doğruçuluğun tərbiyə edilməsi üçün bütün vasitələrdən maksimum istifadə edilməlidir;

— uşaqlarda düzlük və doğruçuluğun tərbiyə edilməsi üçün nümunələr gətirilməli, bu xüsusiyyətləri daşıyan şəxslərlə şagirdlərin ünsiyyətinə nail olunmalıdır.

**Məqalənin aktuallığı.** Müasir dövrdə məktəbin qarşısında duran məsələlərdən biri mənəvi dəyərlərə məhəbbət onu qoruyub saxlamaq hisslərini formalaşdırmaqdır. Milli-mənəvi dəyərlərin mövcudluğu xalqın varlığı deməkdir. Böyüyən nəslin bu dəyərlərə hörmət və məhəbbət ruhunda formalaşdırılması mövzunu aktuallaşdıran məsələlərdəndir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə milli-mənəvi dəyərlərimizin yeniyetmələrə aşılanmasının imkan və yolları işlənilmiş, eyni zamanda görkəmli şəxsiyyətlərin milli-mənəvi dəyərlərlə bağlı fikirləri ümumiləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bu sahədə tədqiqat aparan şəxslər, o cümlədən orta məktəblərdə dərs deyən müəllimlər bir mənbə kimi istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Bakıxanov A. Bədii əsərləri. Bakı, Azərnəşr, 1973.
2. Qaralov Z. Tərbiyə. II cild. Bakı, 2003.
3. Qasımova L, Mahmudova R. Pedaqogika. Bakı, Füyuzat, 2021.
4. Nizami Gəncəvi. Lirika. Sirlər xəzinəsi. Şərəfnamə. Bakı, Yazıçı, 1988.
5. Fətəliyev X. Ailədə milli tərbiyə, Bakı, 1966.
6. Sabir xatirələrdə. Tərtib edən: A.Zamanov. Bakı, Gənclik, 1982, 164 s.

**Г.Г. Керимова**

**От наших национальных и моральных ценностей**

**Резюме**

В статье говорится о воспитании честности и правдивости, которое считается одной из наших национальных и нравственных ценностей, и показаны возможности воспитания школьников в этом духе. При этом объяснялись составляющие прямолинейности и правдивости, ее атрибуты. Показано, какими качествами обладает натурал в современности и каковы его характеристики. Были обращены мнения видных ученых-педагогов по изучаемой проблеме, и приведены примеры оттуда.

**G.H. Karimova**

**From our national and moral values**

**Summary**

The article talks about the education of honesty and truthfulness, which is considered one of our national and moral values, and shows the possibilities of educating students in this spirit. At the same time, the components of straightness and truthfulness, its attributes, were explained. It has been shown what qualities a straight man has in modern times and what are his characteristics. The opinions of eminent pedagogic scientists regarding the studied problem were addressed, and examples were brought from there.

**Redaksiyaya daxil olub:** 05.06.2023

# Fortepiano alətinin yaranma tarixindən və təhsil prosesində ondan istifadə yolları

**İradə Əhməd qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinın baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** dos. K.R. Sədirxanova,
dos. A.F. Aşumova

**Açar sözlər:** tələbə, alət, B.Kristofori, fortepiano
**Ключевые слова:** студент, инструмент, Б.Кристофори, фортепиано
**Key words:** student, instrument, B.Kristofori, piano

1709-cu ildə italyan ustası Bartalomeo Kristofori ilk dəfə olaraq çəkicli fortepianonu yaratdı. "Qravihembaokol piano forte" — usta öz əsərini məhz belə əyləncəli adla adlandırdı. Doğrudur, alət hələ ki lazımi səviyyədə qiymətləndirilməmişdi. Bartolomeo Kristoferi XVIII əsrin əvvəllərində "çəkicli klavesini" yaratmaq barəsində düşünən yeganə insan olmamışdır. 1716-cı ildə bu növ alətin modelini Elmlər Akademiyasına fransız Marius, bir il sonra isə alman musiqi müəllimi Şreter təqdim etdi. Bir-birilərindən xəbərsiz olmayaraq onların hər biri çəkicli fortepianonu quraşdırmışdı.

Fortepiano barəsində ilk xəbərlər ustaları sevindirməyə bilməzdi. "Fortepiano klavesin kimi səsli deyildir. O kameralı alətdir və məhz elə buna görə də uca səsli musiqinin ifasında ondan istifadə oluna bilməz. Baxmayaraq ki, fortepianonun üst təbəqəsi - əsrarəngizdir - baslar sərt və boğuq səslənirlər, həm də həddindən artıq ölgündürlər..".

Beləliklə, fortepiano həyata vəsiqə qazanması üçün hələ uzun müddət mübarizə aparmalı idi və alətin gələcəyi də onun ifaçılar ilə bəstəkarlar tərəfindən tanınmasından asılı idi.

Yalnız XVIII əsrin 60-70-ci illərində fortepiano barəsində fikirlər dəyişikliyə məruz qalmağa başlayır. İndi artıq klavesin hücum hədəfinə çevrilir. Məlum olur ki, onun «boğuq və eyni zamanda da kəskin ahəngdarlığı» ahəngli parçaların ifası üçün heç də yararlı deyildir. İndi isə klavesin solistinin fortepianoya uduzmasını nəzərdən keçirək.

Hansısa bir iki onilliyin keçməsindən sonra bu "dahiyanə musiqi çevrilişinin" müasirləri amansızcasına bu kəlmələri bəyan edirlər: "klavesin yalnız orkestrdə ifa olunmaqdadır və bu da çox təəccüblüdür, axı nə üçün ondan indiyə qədər də istifadə etməkdə davam edirlər? Onun səsi kəskin, iti və qulaq batırıcıdır". Buradan belə bir qənaətə gəlmək olar ki, klavesin orkestr aləti kimi də yararsız olması dəyərlənidirilmişdir. Beləliklə, onun musiqi aləmindəki hakim mövqeyi dəyişikliyə məruz qalmışdır. Əgər əvvəllər musiqi alətlərinin "kralı" rütbəsinə orqan layiq görülmüşdürsə, sonra isə davamlı müddət ərzində klavesin hakim mövqeyi tuturdusa, artıq indi kral mövqeyi fortepianoya, daha dəqiq desək, royal (mənası da "kralsayağı" deməkdir) adını almış qanadşəkilli fortepianoya məxsusdur.

İlk fortepianolar klavesinlərin bütün əsas növlərinin əksi olmuşlar: klavitsim — balldan şaquli fortepiano formalaşmışdır, ingilislərin vircinanları "masaşəkilli" alətlərin nümunəsi kimi çıxış etmişdir. Lakin burada ən çox istifadə olunan və əlverişli alət quşun qanadlarına bənzər və onun formasını təkrarlayan royal çoxçeşidli fortepianonun bir növü olduğu anlaşılır: o sanki məhz belə bir çanağa malik olan alətin fərqli akustik xüsusiyyətlərini təsdiqləmişdir. Bundan sonra royal «musiqili düşüncələrin hökmdarı» kimi çıxış edəcəkdir. Lakin onun hələ təkmilləşmə prosesi keçməsi tələb olunur.

Əgər yüz il əvvəl klavesinin əsrarəngiz, lakin asta səsi musiqiçilər ilə dinləyicilərin heyrətinə səbəb olmuşdusa, XIX əsrdə nəinki salonları, həm də iri zalları zəbt edən royalın səsinin

zəifliyi açıq-aydın şəkildə nəzərə çarpmağa başlamışdı. Ustalardan klavesinin yüngüllüyü ilə onun əsrarəngizliyindən heç də geri qalmamaq şərtilə orqan kimi qüdrətli səslənən və orkestr kimi müxtəlif çalarlı olan royalların yaradılması tələb olunurdu.

Səsi gücləndirmək bir o qədər də çətin deyildi - bunun üçün simləri daha qalın və uzun edərək, onları daha da çox dartmaq lazım idi. Lakin simlərin dartılması bir neçə yüz kiloqrama bərəbər olduğundan taxta çanaqlar bütün bu proseslərə davam gətirə bilmirdilər. Belə olan təqdirdə onları metal ilə əvəz etməyə başladılar. Çanağın sərtliyinə simlərin iyirmi tondan yüksək olan qüvvəyə qədər dartılmasına şərait yaradan çuğun çərçivələrin quraşdırılması hesabına nail olunurdu. Simlərin özləri isə alət boyunca deyil, bir qədər çəpəki yerləşdirilmişdi. Bununla da onların daha çox uzunluğa malik olmasına nail olundu. Fortepiano daha ucadan səsləndi və səsin özü də daha parlaq və dolğun oldu.

Lakin bu nailiyyət nə musiqiçiləri, nə də ki musiqi ustadlarını heç də sakitləşdirmədi. Xüsusilə də pianoçular - fortepianonun texniki imkanlarının daha da güclü bir şəkildə inkişaf etməsinə və barmaqların daha sürətlə ötəriliyinə nail olmağa meyl göstərən bu kimi virtuozlar nəticələrdən heç də qane deyildilər.

Səsi təkrarlamaq üçün klavişi tamamilə buraxmaq yəni, onu əvvəlki vəziyyətinə qaytarmaq lazım gəlirdi. Yalnız bundan sonra barmağı yuxarı qaldırmaqla onun üzərinə yenidən basmaq olardı. Bax elə bu məqama da pianoçu özünün ən dəyərli dəqiqələrini sərf etmiş olurdu. Elə bu məqsədlə də klavişlərin basılma dərinliyini azaltmağa cəhd göstərdilər, lakin bu əks nəticənin meydana çıxmasına səbəb oldu, aləti ifa etmək daha da çətinləşdi.

Bir çox mexaniklərin üzərində çarpışdıqları bu mürəkkəb məsələni Fransanın nəslən fortepiano ustalarından biri olan və 1823-cü ildə royalın yeni konstruksiyasını təqdim edən Sebastyan Erar həll etdi. Erar öz kəşfini ikili gedişat adlandırmışdı, sonradan isə onu ikili repetisiyalı (yəni, təkrarlamalı) mexanizm adlandırmağa başladılar. Erar tərəfindən təqdim olunmuş fövqəladə şəkildə mürəkkəb olan mexanizmin yaradılması sayəsində musiqiçi klavişi hər dəfə sonuna qədər qaldırmamaqla dəfələrlə səsi əldə etməyi bacarmış oldu. Barmaqları klavişin üzərindən yüksəyə qaldırmaq zəruriyyəti də beləcə yoxa çıxmış oldu. Lakin fortepianonun imkanlarını beləcə genişləndirən bu möcüzəli kəşf, digər ən vacib məsələni həll etməyə qadir ola bilməzdi - səsin keyfiyyətliyini itirmiş olardı.

Hələ Bartolomeo Kristoforinin zamanından çəkicin üzərinə ucuz olsa belə, sərt olan dəri materialı çəkirdilər, burada ən əsas amil isə onun uzunömürlü olmamasında idi. Bir qədər qısa zaman keçdikdən sonra isə dəri köhnəlirdi və onsuz da "quru" olan səs daha da ahəngsiz olurdu. Yumşaq və ilk baxışdan davamlıqsız görünən keçə isə bu məqsəd üçün istifadə olunan material kimi o qədər əlverişli və münasib oldu ki, indiki dövrə qədər də o müasir fortepianoların çəkiclərinin başlıq hissəsini bürüməkdədir. Keçə ilə bürünmüş çəkic pianoçuların qarşısında müxtəlif çalarlı səslərə nail olmaq üçün böyük imkanları açmış oldu. Məhz onun sayəsində də fortepianonun səsinin "dolğun və şəffaf", "kəskin və mülayim", "parlaq və sönük" olması mümkündür.

Lakin fortepianonun ən heyrətamiz tərzdə təkmilləşdirilməsi kimi pedalın ixtira olunmasını hesab etmək olar. Klavişin buraxılmasından sonra səsin saxlanılması və yaxud da uzadılması üçün pedalı kəşf edən ustalar, bu cihazda hansı səs zənginlikləri ilə möcüzələrin gizləndiyindən çətin ki, xəbərdar olmuşdular. Pedal - pianoçunun palitrasında öz əksini tapmış ən mühüm çalarlardan biridir. Və pianoçunun bu çalarlardan necə bir tərzdə istifadə etməsindən də səsin nə cür melodik - mülayim və yaxud da sərt, səlis və hətta "quru" və yaxud da bütün zalı öz ağuşuna alacaq qədər dolğun olacağı asılıdır.

Bax, indi royalın konstruksiyası müasir royala tamamilə yaxın idi. Lakin bunun ümumilikdə fortepianoya deyil, royala aidiyyəti vardı. Axı royal konsert estradalarında və böyük zal-

larda əvəzolunmaz olsa da, fortepiano ailəsinin yeganə nümayəndəsi deyildi. Evdə yerləşdirməsi üçün o həddindən artıq iri idi: bəzi hallarda onu yerləşdirməyə yer belə tapılmırdı. Nəticədə ev fortepianosunun yaradılması zəruriyyəti yarandı. Beləliklə də, pianinonun meydana çıxması bir ehtiyaca çevrildi. Pianinonun ən qədim əcdadı klaviarfa olmuşdur, şaquli fortepiano da məhz ona istinad edilməklə yaradılmışdır.

Hal-hazırda yalnız muzeylərdə qorunub saxlanılan "Zürafə" fortepianosu ilə "piramidal" fortepiano yöndəmsiz və iri olması ilə yanaşı, həm də divara söykədilmiş aləti xatırladır. Bir qədər uzun müddətdən sonra həqiqətən də, royaldan götürülmüş çərçivənin əsasında digər daha fərqli çərçivəni yəni, bizim pianolarımızda quraşdırılmış hissəni düzəltməyə başladılar.

İfaçı üçün əlverişli hesab edilən çəkicli mexanizmi yaratmaq isə daha mürəkkəb idi. Royalın mexanizmini mühüm dəyişiklik olmadan pianinonun çanağına keçirtməyə səy göstərməklə musiqi alətlərinin ustaları ciddi çətinliklərlə üzləşməli oldular. Royalda çəkic zərbə endirdikdən sonra öz çəkisinin təsiri altında əvvəlki vəziyyətinə qayıdır.

Simləri şaquli vəziyyətdə yerləşdirilmiş və çəkici də klaviaturaya perpendikulyar istiqamətdə quraşdırılan pianono isə tamamilə fərqli bir alətdir. İlk pianinoların meydana gəlməsindən demək olar ki yarım əsr keçmişdi ki, royalda ifa olunma kimi münasib hesab edilən çəkicli mexanizmin konstruksiyası aşkar olundu. Və dərhal da demək olar ki, ildırım sürəti ilə nəinki "zürafələr" və "piramidalar", həm də "masaşəkilli" fortepianolar da yoxa çıxmağa başladılar. Onlar yalnız səsli və ölçüsünə görə kiçik olan pianinolardan geri qalırdılar.

Lakin pianonun fortepianonun bərabərhüquqlu çeşidi kimi qəbul olunması dövründə belə, o bizim onu bu gün görməyə vərdiş etdiyimiz təsvirə malik olmamışdır.

Hər bir fortepiano istehsal edən fabriklərin sayı XIX əsrin əvvəllərində onlarla idi. Öz konstruksiyaları və öz yeniliklərini də bu fabriklər təqdim etmək gücündə idi. Bəzi hallarda biri-biriləri ilə rəqabət aparan fabrikalar pianinoları tamamilə əcaib tərzdə "təkmilləşdirməyə" çalışırdılar. Adi fortepiano səsindən savayı həm də əlavə səs-küyü törədən zınqırovlu pianinolar da məhz bunun nəticəsi kimi meydana çıxmağa başladı. Rəqiblərini geridə qoymağa can atan daha bir fabrikin istehsalı olan pianono formasına görə.... skripkanı xatırladan rezonanslı deka yeşiyindən ibarət olmuşdur. Onun yaradıcıları belə bir ideyanı tətbiq etməklə pianononun səsinin daha ahəngli olacağını fərz edirdilər.

Ancaq ən çox müxtəliflilik alətlərin ölçüsü ilə formasını əhatə edirdi. Çətin ki iki müxtəlif fabrikin tamamilə biri-birinə bənzər iki pianinosunu aşkar etmək mümkün olardı. Bəzi fortepiano ustaları isə yəqin ki, qədim minatürlü klavirləri - spinetləri xatırlamaqla, bütün qüvvələrini pianinonun mümkün qədər kiçik ölçüdə istehsal olunmasına yönəltmişdilər. Bu yarışmada ölçüsünə görə iri yol çamadanının ölçüsünü geridə qoyan alət rekord nəticəni əldə etdi. "Pianetta" klaviaturası - balacanı məhz belə adlandırmışdılar - yuxarıya yerləşdirilirdi və onun qapağını örtmək kifayət edirdi ki, heç kim bu qutu yeşikdə musiqi alətinin olduğunu müəyyən edə bilməsin.

İlk klavişli alətlərin, ilk fortepianoların meydana çıxmasından artıq uzun bir müddət keçmişdir. Lakin bu gün də, konsertlərdə iştirak etməklə, biz hər dəfə daimi sehrbazlığın şahidinə çevrilməkdəyik. Pianoçu estradaya çıxır, royalın arxasına keçir və zal ona diqqət kəsilir - onun barmaqlarına itaət etməklə fortepianodan musiqi səsləri çıxmağa başlayır, hamının gözləri önündə isə ulu bir ayin icra olunur - meydana incəsənət gəlir.

**Məqalənin aktuallığı.** Fortepiano özünün heyrətamiz zənginliyi və səs çalarları, rənglərin çoxşaxəliliyi ilə iti sürətə malik olan musiqi aləti kimi qalmaqdadır.

**Məqalənin elmi yeniliyi.** Fortepiano hər yerdə əvəzolunmaz bir alətdir. Soloçu və müşayiətçi, ev şəraitində musiqi ilə məşğul olmaq üçün ən sevimli alət və orkestrlərin, ansamblların və teatrların daimi iştirakçısı olması elmi yenilik kimi özünün təsdiqini tapır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Təcrübədə məqalənin məzmununun istifadəsi forte-piano alətinin yaranması tarixindən bilikləri tələbə və müəllimlərin köməkliyinə gələ bilər.

**Ədəbiyyat**

1. Алексеев А. Клавирное искусство. М.- L., 1952.
2. Фейнберг С. Пианизм как искусство. М., 1969.
3. Куперен Ф. Искусство игры на клавесине. Ред. Д.Серова. М., 1973.

**И.А. Ахмедова**

**История и образование инструмента фортепиано важность способов его использования в процессе**

**Резюме**

Данная статья посвящена значению в учебном процессе знаний истории возникновения клавишных инструментов. Дается характеристика роли Б.Кристофори в этом процессе. Для обучения на фортепиано необходимы общие познания об его устройстве и его истории. В процессе обучения эти познания помогают студентам правильно их использовать на фортепиано.

**I.A. Ahmadova**

**History and education of the Forteriano instrument the importance of ways of using it in the process**

**Summary**

This article is devoted to the meaning of the knowledge of the history of keyboard instruments in the educational process. A description of B.Kristofori's role in this process is given. Piano training requires general knowledge of its structure and its history. In the process of learning, these cognitions help students use them correctly on the piano.

**Redaksiyaya daxil olub:** 11.03.2023

**Развитие музыкального мышления учащихся**

**Земфира Салим кызы Султанова**
*старший преподаватель АГПУ*
**E-mail:** zemfirasultanova52@mail.ru

**Рецензенты:** д.филолог., доц. Н. Абутидзе,
д.филолог., доц. А. Гусейнова

**Ключевые слова:** культура, музыка, развитие, искусство, психология
**Açar sözlər:** mədəniyyət, musiqi, inkişaf, incəsənət, psixologiya
**Key words:** culture, music, development, art, psychology

Проблема развития интеллектуальных способностей, постоянного пополнения знаний актуальна в музыкальнопедагогической науке. При изучении любого учебного предмета, а в музыкально-педагогической деятельности это означает прохождение музыкальных произведений учащимися, приходится осваивать новый музыкальный материал. Исследование показало, что последовательное пополнение систематизированными знаниями о музыкальном искусстве в процессе обучения способствует эффективному развитию музыкального мышления учащихся.

Одной из основных мыслительных операций человека является систематизирование. В процессе обучения в сознании учащихся происходит образование системы знаний, но усвоение системы знаний еще не достаточно, необходимо гибко и подвижно владеть усвоенными фактами и понятиями и применять их на практике. Чтобы овладеть наукой, необходимо изучать ее в системе. «Только система, - писал К.Д. Ушинский, - конечно, разумная, выходящая из самой сущности предметов, дает нам полную власть над нашими знаниями. Голова, наполненная отрывочными, бессвязными знаниями, похожа на кладовую, в которой все в беспорядке и где сам хозяин ничего не отыщет; голова, где только система без знаний, похожа на лавку, в которой на всех ящиках есть надписи, а в ящиках пусто.»

Способность к обобщениям является показателем более высокого уровня умственного развития учащихся и основывается на таком качестве мышления, как системность знаний. Практика показывает, что даже при хороших знаниях по теоретическим дисциплинам учащиеся часто не в состоянии эти знания систематизировать, сделать обобщение, в результате чего не могут применять эти знания в нужный момент.

В процессе обучения в классе фортепиано, разучивания разнообразных музыкальных сочинений учащиеся должны приобретать не просто хаотичные, отрывочные сведения, а специальные знания, логично выстроенные в систему, что должно способствовать более эффективному развитию их музыкального мышления и оказать существенную практическую помощь в самостоятельной работе. У учащихся интенсивнее развивается мышление, умение оперировать знаниями, применять их самостоятельно в практической работе, способность к аналитикосинтетической деятельности, если они овладевают знаниями в системе, построенной по принципу дедукции, т.е. от общего к частному. При освоении музыкального произведения, раскрытии его содержания необходимы прежде всего знания о стиле композитора, исторической эпохе, музыкальном жанре, структуре сочинения, и только на основе этих знаний возможен подробный анализ сочинения, понимание особенностей

музыкального языка, глубокого осознания замысла композитора.

В процессе обучения музыке, в данном случае в классе фортепиано, особого внимания заслуживают вопросы стиля композиторов, чьи произведения изучатотся учащимися. «Стиль-это исторически сложившаяся общность образной системы, средств и приемов художественного выражения, обусловленная единством идейного содержания искусства.»

Понятие «стиль в музыке» включает «... выражение некоторого единства, охватывающего какое-либо множество художественных явлений, произведений одного автора или ряда авторов, включая совокупность произведений, и относящихся к целому историческому периоду.

Стиль - многообъемлющее понятие, вбирающее в себя различные аспекты его характеристики; говоря о стиле, мы характеризуем не только способ отражения художником окружающей жизни и свойственные ему выразительные средства, но и отмечаем его. Самобытность, оригинальность и вместе с тем зависимость от общественных идеалов. Для понимания стиля композитора необходимо изучение всего его творчества в тесной связи с искусством, культурой той исторической эпохи и страны, к которой композитор принадлежит. «Изучая произведение, - говорит А.Б. Гольденвейзер, - необходимо вникнуть в личность автора, сквозь его музыку прочесть его душу, душу его народа, его эпохи, передать это слушателям.». В педагогической практике для глубокого понимания учащимися стиля композитора необходимо изучение целого ряда его произведений, т.к. основной задачей стилевой характеристики является именно выявление общих признаков, которые объединяют многие сочинения этого автора. Только получив глубокие знания о стиле композитора, учащиеся смогут разобраться и понять характерные особенности и жанра, и музыкальной формы и средств музыкальной выразительности. Изучение стиля повлечет за собой необходимость приобретения новых знаний, более глубоких и разнообразных, об исторической эпохе, творчестве композитора, музыкальной культуры в целом, а также о смежных областях искусства. Изучение стиля дает учащимся не только определенный багаж знаний, но и в процессе обучения, работы над музыкальным репертуаром у учащихся постоянно возникает необходимость оперирования ими при анализе, сравнениях и обобщениях, т.к. при разборе структуры каждого произведения, музыкального языка требуется глубокое понимание стилевых особенностей композитора. Таким образом, знания о стиле являются ведущими в процессе овладения музыкальными сочинениями, и постоянное накопление, углубление и оперирование ими эффективно содействуют развитию музыкального мышления учащихся.

Немаловажное значение в педагогическом процессе имеют знания о музыкальном жанре. Понятие «жанр» входит важной частью в общую иерархию понятий, которыми оперирует музыкальное мышление. «Музыкальные жанры» - это роды и виды музыкальных произведений, исторически сложившихся в связи с различными типами содержания музыки, в связи с определенными ее жизненными назначениями, с различными социальными функциями и различными условиями ее использования и восприятия.» Понятие «музыкальный жанр» включает понимание определенного круга образов определенного идейно-художественного содержания, воспроизводящихся в музыкальных произведениях и являющихся характерными для каждой исторической эпохи. Жанр может пониматься в узком и широком смысле слова. Например, жанр оперы широкое значение, а оперная ария, речитатив

- это жанр в узком смысле слова. Также возможен пример из фортепианной литературы: жанр фортепианной миниатюры «жанр прелюдии, в первом случае – широкое значение слова, во втором - узкое.

Музыкальное произведение представляет собой единство формы и содержания. «Под музыкальной формой понимается целостная организация музыкальных средств, воплощающая содержание произведения. Иначе говоря, все жанровые средства, все мелодические оттенки, типы фактуры, пропорции частей, организованные в данном произведении в единую, целостную систему средств для передачи содержания произведения, образуют его форму.».

Музыкальная форма, так же как и жанр, понимается двояко: в узком и широком понимании смысла слова. В широком смысле имеется в виду целостная организация музыкальных средств, которые воплощают содержание музыкального сочинения. В узком смысле это понятие означает композиционный план музыкального произведения, т.е. соотношение его частей. В свою очередь, в узком смысле музыкальная форма имеет два значения: первое - наличие конкретного композиционного плана определенного произведения; второе - это когда музыкальное сочинение можно отнести к исторически сложившемуся типу композиционного плана, т.е. имеется в виду собственно форма, вариации и др.

В учебном процессе учащиеся без знаний о музыкальной форме не смогут понять структуру произведения, логику его развития: исполнитель должен ясно осмысливать конструкцию сочинений, которые он изучает. Овладевая разнообразным по форме музыкальным репертуаром, учащиеся имеют возможность подробно анализировать каждое произведение, разбирать его строение, тем самым систематически приобретать новые и оперировать имеющимися знаниями, что интенсивно способствует развитию музыкального мышления.

Многие выдающиеся педагоги-музыканты прошлого и настоящего много внимания уделяли анализу средств музыкальной выразительности, которые характерны для данного произведения. Особенно большое значение придавалось гармонии, как одному из важных формообразующих средств музыкальной выразительности. Нейгауз говорит о значении подробного разбора гармонии с учащимися в процессе работы над музыкальными произведениями: «Рекомендую всегда учащимся, - пишет он, - ясно понять и проиграть гармонический скелет любого музыкального сочинения.... Это чрезвычайно помогает понять до конца его гармоническую структуру и предохраняет от ошибок».

Фактура является важным средством интонированного высказывания, способом воплощения гармонии в конкретном звучании. Красочность и выразительность фактуры в процессе обучения часто помогает учащимся определить творческий почерк композитора, т.к. приемы фактурного изложения гармонии имеют стилевую и историческую определенность. Анализируя музыкальные произведения, особенности фактурного преобразования гармонии должны рассматриваться учащимися в связи со стилем композитора и характером художественного образа данного сочинения. Итак, подробный разбор фактурных особенностей репертуара дает возможность учащимся расширить свои знания о выразительности гармонического языка, а также оперировать уже имеющимися сведениями о стиле композитора.

Мелодия - это выражение музыкальной мысли, проинтонированной в одном голосе. Гармония всегда едина с мелодией, обогащая ее, она подчеркивает мелодическую выразительность. В большинстве случаев гармония подчиняется мелоди-

ческому голосу, т.к. мелодия движет логикой гармонического развития. Закономерности внутреннего строения мелодии подчинены общей логике развития музыкального образа в целом.

Закон взаимосвязи развития и пополнения знаний в одинаковой мере действует в процессе музыкального обучения; для раскрытия содержания, понимания сути музыкальных произведений необходимы знания о стиле, музыкальном жанре, структуре, гармоническом языке, особенностях фактуры и мелодии; один из основных дидактических принципов обучения - системность - является также основным и для музыкального обучения, в данном случае фортепианного. По мере прохождения разнообразного репертуара учащиеся должны усваивать знания в строгой логичной системе, построенной по принципу дедукции.. Для постоянного применения системы музыкальных знаний на практике учащимся необходимо совершать такие мыслительные операции, как анализ, синтез, сравнение, обобщение; постоянное усвоение системы знаний помогает применять их на практике.

**Актуальность статьи.** В процессе овладения музыкальной культурой потребность в музыке характеризует уровень развития личности.

**Научная новизна статьи.** Любой, кто решит стать учителем музыки, должен развивать свои музыкальные интересы и творческие способности, постоянно совершенствуя их. Это искусство тесно связано с обществом, его культурой и идеологией, меняется и обновляется.

**Практическое значение и применение статьи.** Психологическое обоснование цели музыкального образования положительно влияет на развитие музыкального опыта учащегося, формирование отношения к искусству, отношение учащегося к миру музыки в целом.

### Литература

1. Ушинский К.Д. Собр. Соч. М., 1949, т. 5.
2. Нейгауз Г.Г. Воспитывать творческую самостоятельность учеников. М.-Л., 1966.
3. Михайлов М.К. К проблеме стилевого анализа. М., 1976.
4. Психология усвоения знаний. М., 1954.
5. Гольденвейзер А.Б. О музыкальном исполнительстве. М.-Л., 1966.
6. Мазель Л.А., Цуккерман В.А. Анализ музыкальных произведений. М., 1967.
7. Нейгауз Г.Г. Об искусстве фортепианной игры. М., 1967.

**Z.S. Sultanova**

### Tələbələrin musiqi təfəkkürünün inkişaf edilməsi

### Xülasə

Musiqi haqqında biliklərin sistemli şəkildə mənimsənilməsi, bacarıq və bacarıqların formalaşdırılması ilk növbədə uşaqların emosional həssaslığının, musiqiyə marağının inkişafına yönəldilməlidir. Musiqinin tədrisinə maraq problemi xüsusi əhəmiyyət kəsb edir ki, bu da ümumi pedaqogikanın əsas problemlərindən biridir.

**Z.S. Sultanova**

**Development of students' musical thinking**

**Summary**

Systematic acquisition of knowledge about music, the formation of skills and habits should be aimed primarily at the development of emotional sensitivity, children’s interest in music. The problem of interest in the teaching of music is of particular importance, which is also one of the main problems of general pedagogy.

**Redaksiyaya daxil olub:** 26.04.2023

**Ali təhsilin dəyişən paradiqmaları**

**Sevinc Sərdar qızı Əliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
**E-mail:** sevinc_aliyeva_27@bk.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. L.N. Qasımova,
ped.ü.f.d., dos. N.X. Mirzə

**Açar sözlər:** paradiqma, qloballaşma, inteqrasiya, strategiya, bacarıqlar, texnologiya
**Ключевые слова:** парадигма, глобализация, интеграция, стратегия, умение, технология
**Key words:** paradigm, globalization, integration, strategy, skills, technology

XXI əsrdə aktual təhsilin ən azı iki əsas istiqamətini göstərə bilərik. Təhsil təcrübəsinin hər bir şagirdin, yaxud tələbənin seçdiyi həyata uyğun olmasını və müasir həyatda tələb olunan bacarıqların aşılanmasını təmin etmək üçün bu istiqamətlər bir-biri ilə sıx əlaqəli olmalıdır.

İlk növbədə o, tələbələrin insanpərvərliyini gücləndirməklə, onları öz həyatlarının sahibi, cəmiyyətin həm lokal, həm qlobal miqyasda üzvü, işçi qüvvəsinin səmərəli və dəyişən mühitin fəal iştirakçıları kimi şəriştələrini inkişaf etdirməklə həqiqətən də, yüksəlişə nail ola bilərlər. Əsas məqsəd müdrikliyi təqib etmək üçün onlara imkanlar yaratmaqdan ibarətdir.

İkincisi, ictimai və qlobal düşüncəsini yüksəltməklə, məsuliyyətli vətəndaşlığa imkan yaratmaqla tələbələr, həqiqətən, sosiallaşdırılmalıdır. Bu baxımdan onlar cəmiyyətin mahiyyətinin dərk edilməsini və onun inkişafa olan ehtiyacını dərinləşdirməklə sosial-tənqidi təfəkkürə yiyələnməlidirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında belə bir əsas ideyanı vurğulayır ki, respublikamızda təhsilin başlıca strateji məqsədləri *insan kapitalının* formalaşmasına xidmət edir. Buna örnək olaraq Azərbaycan dövlət və hökumət strukturlarının “Təhsil haqqında”, “Təhsilin Strateji İnkişafı” qanunlarını, həmçinin Elm və Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş qanunlar, hüquqi-normativ baza sənədləri, təhsilin strategiyası və təhsil siyasəti sahəsində dövlət və hökumət səviyyəsində qəbul olunmuş fərmanlar, sərəncamlar, direktivlər və beynəlxalq konvensiyaları bura aid etmək olar. (1; 2; 3; 4)

Qloballaşma yeni təhsil sistemlərinə, pedaqoji paradiqmalara, öyrənmə bacarıqlarına təsir göstərməklə yeni təhsil modellərinin və tədris-təlim pedaqogikasının biliyə və xidmətə (servisə) əsaslanan post-sənaye cəmiyyətinin məqsədlərinə və prioritetlərinə üstünlük verir. Həqiqətən də, XXI əsrin əsas reallığı olan qloballaşma ali təhsilə artıq dərindən təsir göstərməkdədir.

Qloballaşmanı getdikcə inteqrasiya olunan dünya iqtisadiyyatı, sosial-mədəni kompleks şəraitində formalaşan reallıqlar dünyası, yeni məlumat və kommunikasiyalar texnologiyası (MKT), beynəlxalq bilik və servis şəbəkələr dəstinininin yaranması kimi qəbul edirik.

Beynəlmiləlləşmə regional və beynəlxalq səviyyədə çox mühüm olmuşdur. Avropada tətbiq edilən Bolonya prosesi və Lissabon strategiyası bu səviyyədə olan beynəlxalq iştirakın bariz nümunələridir. Bununla belə, 40-dan çox ölkədə tətbiq edilmiş Bolonya prosesi “Avropa Ali Təhsil Məkanı”nın yaradılmasında könüllü prosesə çevrilmişdir.

XXI əsrin interdisiplinar təhsil sistemində həyat və karyera bacarıqları xüsusi əhəmiyyətə malikdir. Həyat və karyera bacarıqları ayrı-ayrı insanların müxtəlif komandalarda işləmək, müxtəlif ideya və dəyərlərə açıq olma, məqsədləri müəyyən etmə və onlara nail olma, layihələrin səmərəli idarə edilməsi, nəticələrə görə məsuliyyət, etik təcrübənin nümayişi və həm özünə, həm daha böyük qrup insanlara görə məsuliyyət daşıma bacarıqlarına əsaslanır. Bura

aşağıdakı həyat və karyera bacarıqları çərçivəsində alt-bacarıqlar daxildir: liderlik və məsuliyyət; məhsuldarlıq və hesabatlılıq; sosial və mədəniyyətlərarası bacarıqlar.

XXI əsrin məlumat, media və texnoloji bacarıqları olduqca əhəmiyyətlidir və özündə - media və informasiya savadlılığını ehtiva edir. Günümüzdə tələbələri təhsilə səmərəli cəlb etmək üçün onlarda təxəyyül və yaradıcılıq qığılcımını alova çevirmək tələb olunur. Bütün biliklər humanist bilikləridir, biliklər insanın ümidlərinin, qorxularının və həvəslərinin məhsuludur. Tələbələrin fikrində bilikləri canlandırmaq üçün müəllim bilikləri tələbələrə məhz bu kontekstdə təqdim etməlidirlər. Bunu etməyin ən yaxşı yolu tələbələrdə yaradıcı təxəyyülü inkişaf etdirməkdən ibarətdir.

Tələbəyə bilik meneceri və bilik istehsalçısı kimi yanaşmaq lazımdır. Təhsil prosesində biliyin tələbə tərəfindən passiv qəbul edilməsi fikrindən "tələbə intellektinin işıqlandırılması" fikrinə doğru irəliləyişi artıq müşahidə edə bilirik. Bugünki tələbə biliklərini yalnız tətbiq etməklə məhdudlaşmayıb, həmçinin, sabahın biliklərini istehsal və şərh edən məlumatlı şəxs olmalıdır. Pedaqoji vəzifə daha az faktik biliklərin ötürülməsinə, daha çox tələbələrin sadə və yeni mürəkkəb problemlərin həll edilməsi üçün əqli bacarıqlara və onların təcrübədə tətbiq edilməsinə yönəlməlidir.

Əsas təhsil bacarıqları paradiqması da aktual məsələlərdən biridir. Oxu, yazı və riyaziyyat bacarıqları əvvəlki kimi ən mühüm bacarıqlar olaraq qalır. Lakin, əlavə olaraq, daha beş fundamental bacarıqların qeyd etdiyimiz üç bacarıqla müxtəlif kombinasiyalarını diqqət mərkəzində saxlamaq vacibdir. Təhsil prosesinin mühüm komponentlərini təşkil edəcək həmin bacarıqlar aşağıdakılardır – yaradıcılıq; konseptuallaşdırma (nəzəri təhlil); əməkdaşlıq; ünsiyyət və kompüterləşmə. Tənqidi və yaradıcı düşünməyi, məntiqi əsaslandırma aparmağı, nisbi qaydada şərh və bilik əldə etməyi, yaratmağı öyrənmək XXI əsrdə gündən-günə daha da çox üstünlük əldə edəcəkdir.

Ümumdünya "Təhsil Test Xidmətləri" (ETS) təşkilatı "Rəqəmsal Dəyişiklik" adlı nəşrində aşağıdakı bacarıqları qeyd etmişdi: "İKT Savadlılığı üçün konsepsiya" XXI əsrin öyrənmə bacarıqlarını: a) məlumatın toplanması və yaxud axtarışı; b) məlumatın təşkili və idarəedilməsi; c) məlumatın keyfiyyətinin, uyğunluğunun və faydasının dəyərləndirilməsi; d) mövcud resursların istifadəsi vasitəsilə düzgün məlumatın yaradılması qabiliyyəti kimi müəyyən edir (5).

"XXI əsr bacarıqları üçün əməkdaşlıq" təşkilatı XXI əsrin öyrənmə bacarıqlarının inkişafına dəstək üçün altı əsas elementi müəyyən edir:

1) əsas fənləri vurğulamaq; 2) öyrənmə bacarıqlarını vurğulamaq; 3) öyrənmə bacarıqlarını inkişaf etdirmək məqsədilə XXI əsrin innovativ texnoloji vasitələrindən istifadə etmək; 4) XXI əsrin kontekstində tədris etmək və öyrənmək; 5) XXI əsrin məzmununu tədris etmək və öyrənmək; 6) bacarıqlarının ölçülməsi məqsədilə XXI əsrin qiymətləndirmə meyarlarından istifadə etmək.

Biliyin yenidən inteqrasiyası məsələsi günümüzdə bizi düşündürən məsələlər sırasındadır. XVIII, XIX və XX əsrlərdə ölçülərdə dəqiqliyi və təcrübədə nəzarəti təqib etməklə "dekontekstualizasiya"ya üstünlük verilmişdir. Mürəkkəb (dinamik, çoxsəviyyəli) hadisələri öyrənmək üçün müxtəlif təhlillərə müraciət edilməsi zərurəti yaranıbdır. Keyfiyyət metodlarının XX əsrin sonlarında bu dərəcədə inkişafı və yayılmasının səbəbi, nəhayət ki, kontekstlər və çoxsaylı səbəb əlaqələrinin öhdəsindən yetərincə gələ bilməməyimizin nəticəsində baş vermişdir.

Təbii ki, təhsil sistemində subyektiv fikirlərin canlandırılması olduqca vacibdir. Qəribə olsa da, ənənəvi olaraq "obyektiv bilikləri" "subyektiv məlumatlardan" daha üstün tuturuq. Affektlərlə və sosial-psixoloji vəziyyətlə əlaqədar ziddiyyətlərə nəzarət etməyi və yaxud onun qabağını necə almağı indilərdə öyrənirik. Müasir sosial, psixoloji, beyin və bioloji elmlərin

insan fəaliyyətinin bu təsirli, emosional, situativ və sosial sferasına böyük əhəmiyyət verməsinə baxmayaraq, eynilə koqnitiv funksiyaları, yaxud sosial mövhumatı, insani hisslərdən, affektlərdən asılı olmadan nəzərdən keçirməyə daha çox meylliyik. Təhsildə hərtərəfli və dürüst qiymətləndirmə gələcəkdə subyektiv hallara qarşı, yəni subyektiv təsirə, xarakteristikaya, ekzistensional hala, emosiyaya, oxşarlığa, situasiyaya və o cümlədən tələbələrin cəlb edildiyi tədris və təhsil əlaqələrinə qarşı daha həssas olmalıdır.

Təlimin son nəticəsi kimi, qiymətləndirmənin yenidən balanslaşdırılması məsələsi əhəmiyyətlidir. Hesabatlılıq (məsuliyyət) çərçivəsində öyrənmənin nəticələrinin qiymətləndirilməsi hələ bir müddət davam edəcək. Lakin gələcəkdə öyrənmənin və öyrənməyə kömək edən tədris proseslərinin təsiri və inkişaf etdirilməsi məqsədilə qiymətləndirilmə böyük ehtimalla narahatçılıq yaradacaq. Siyasi təzyiq və bəzi sadələşdirilmiş mülahizələr hesabatlılıq məqsədilə, hətta bu cür təcrübə empirik dəlillərlə təsdiq edilmədiyi, bir çox aparıcı psixometriklər tərəfindən dəstəklənmədiyi halda belə, təhsilin qiymətləndirilməsi üzrə verilən uyğunsuz məlumatların dəstəklənməsi işi davam etdirilir. Bəzi pedaqoqlar bu təcrübələrin təyin edilmiş məqsədlər üçün qeyri-məhsuldar olduğunu hesab edirlər Bizə yüz ildən çoxdur ki, təhsil sahəsində etdiklərimizin qeyri-müəyyən və qeyri-dəqiq olduğu məlumdur. Bu model, əlbəttə, hamısına uyğun deyil. Təhsilə müdaxiləmizin əksər hissəsi təhlil edilməmiş, yaxud az öyrənilmiş sınaq və səhvlərdən ibarətdir. Biz inanırıq ki, təhsildə qiymətləndirmə hesabatlılığın əhəmiyyətini nəzərə almaqla, tədrisə, öyrənmə proseslərinə və nəticələrə təsir göstərəcək, onları inkişaf etdirəcək. Bu iki məqsədin eyni vaxtda və eyni qiymətləndirmə alətləri və sistemləri vasitəsilə yerinə yetirilə bilib-bilməməsi müasir zamanın cavablandırılmalı olan ən mühüm məsələlərindən biridir.

Öyrənmənin sosial proses olmaqla yeni funksiyaları yeni təhsil kontekstində maraqlı hadisədir.

Bəzi müəlliflər və təşkilatlar (National Science Foundation, Educational Testing Services, NCREL, Metiri Group və s.) XXI əsrdə öyrənmə bacarıqlarının orta və ali təhsil sahələrində zəruri dəyişikliyin həyata keçirilməsi üçün vacib olduğunu iddia edirlər.

İnsan intellekti sosial fenomen olmaqla yanaşı, sosial qarşılıqlı əlaqə və konsensus kontekstində həm təcrübədən keçirilir, həm də həmin təcrübə ilə şərtləndiyi kimi, eynilə tədris və öyrənmə prosesi sosial fenomen kimi tanınmağa başlayır. Hətta "təklikdə" baş verən öyrənmə prosesi belə ondan əvvəl gələn sosial fəaliyyətlərdən faydalanır. Elektron oyunlar, distant tədris və təhsil nisbətən sosial təcrid halında həyata keçirilir, lakin onlar digərlərin kollektiv şəkildə fəaliyyətindən asılı olan tədris və təhsil nümunələridir. Gələcəyin pedaqogikası tədris və öyrənmənin fərdi-sosial paradoksunu və bu paradoksun qiymətləndirmə üçün olan nəticələrini uyğunlaşdırmalı olacaq.

**Məqalənin aktuallığı.** Məqalədə XXI əsrdə ali təhsilin qarşısında duran əsas istiqamətlərini perspektivlər aktual bir problem kimi təhlil edilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Azərbaycan pedaqoji və təhsil məkanında ali təhsil modeli kimi interdisiplinar pedaqoji paradiqmanın mahiyyəti yeni elmi baxış bucağından dəyərləndirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəblərin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir, № 833-IIIQ http://www.e-qanun.az/alpidata/framework/data /18/ cf18343.htm

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. –Bakı, 24 oktyabr 2013-

cü il, № 13. http://www.e-qanun.az/framework/27274

3. «Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi 2020-2025». –Bakı: –2016, 52 s.

4. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası. – Bakı, 29 dekabr 2012-ci il. http://www.agdam-ih.gov.az/page/40.html.

5. Partnership for 21st Century Skills. –2009. –9 p. https://files.eric.ed.gov/ fulltext/ ED519462.pdf.

**С.С. Алиева**

**Меняющиеся парадигмы высшего образования**

**Резюме**

В статье показаны основные направления актуального образования в XXI веке. Укрепляя гуманность студентов в первом направлении, они действительно могут добиться прогресса, развивая их как хозяев своей жизни, как членов общества как в локальном, так и в глобальном масштабе, как активных участников эффективной и меняющейся среды труда. Во-вторых, студенты должны быть по-настоящему социализированы, повышая их социальное и глобальное мышление и способствуя ответственной гражданской позиции. В связи с этим им следует овладеть социально-критическим мышлением путем углубления понимания сущности общества и его необходимости развития.

**S. S. Aliyeva**

**Changing paradigms of higher education**

**Summary**

The main directions of current education in the 21st century are shown in the article. In the first direction, students can truly thrive by strengthening their humanity, developing their competencies as owners of their own lives, as members of society both locally and globally, and as active participants in the workforce and a changing environment.

Secondly, students should be truly socialized by raising their social and global thinking and enabling responsible citizenship. In this regard, they should master social-critical thinking by deepening the understanding of the essence of society and its need for development.

**Redaksiyaya daxil olub:** 05.06.2023

# Verilənlər bazasında SQL dilindən istifadənin xüsusiyyətləri

**Sevinc Ələkbər qızı Şabanova**
*ADPU-nyn Kompüter elmləri kafedrasının baş müəllimi*
**E-mail:** *Sevinc65@mail.ru*

**Rəyçilər:** riyaz.ü.f.d., dos. R.Q. Cəlilova,
tex.ü.f.d., dos. Ç.M. Həmzəyev

**Açar sözlər:** verilənlər bazası, İnformasiya sistemləri, sorğu dili, SQL, cədvəl, açar
**Key words:** database, Information systems, query language, SQL, table, key
**Ключевые слова:** база данных, информационные системы, язык запросов, SQL, таблица, ключ

Müasir informasiya texnologiyalarının ən səmərəli vasitələrindən biri informasiya sistemləridir. Hazırda İnformasiya sistemlərindən həm idarəetmə proseslərinin, həm də ayrı-ayrı istifadəçilərin informasiya tələbatını ödəmək üçün geniş istifadə olunur.

İnformasiya sisteminin tərkibinə bir və ya şəbəkə formasında təşkil olunmuş bir neçə kompüter, bir və ya bir neçə verilənlər (informasiya) bazası, verilənlər bazasının idarəetmə sistemi, tətbiqi proqramlar dəsti, istifadəçilərlə rahat və sadə dialoqu təmin edən interfeys və xidməti heyət daxildir. Tətbiq sahəsindən asılı olaraq informasiya sistemləri funksiyalarına, arxitekturalarına, reallaşdırılma səviyyələrinə görə fərqlənə bilərlər. Lakin istənilən informasiya sisteminə xas olan ümumi xüsusiyyətlər var: - informasiya sisteminin yerinə yetirdiyi əsas funksiyalar (informasiyanın toplanması, saxlanması, axtarışı, emalı) eynidir. Odur ki, hər bir informasiya sisteminin əsasısını verilənlərin saxlanmasını və onlara müraciəti təmin edən mühit – **verilənlər bazası** təşkil edir.

Xidmət sahələrində elə bir böyük təşkilat tapmaq mümkün deyildir ki, orada VB-dən istifadə edilməsin. Buna misal olaraq ölkəmizdə Dövlət İmtahan Mərkəzini (DİM), Azersell, Baksell operatorlarını, bütün bank sistemlərini, şəhər infrastrukturlarını, aerovağzalı, supermarket şəbəkələrini və başqa fərqli sahələri göstərmək olar. VB yaratmaq üçün kifayət qədər verilənlər bazasını idarəetmə sistemləri (VBİS) mövcuddur, hətta, Ms Excel ofis proqramı ilə də baza yaratmaq mümkündür.

VB ilə işləmək üçün SQL dilini bilmək zəruri şərtlərdən biridir.

Bu dildən (VBİS R) ilk olaraq 1974-cü ildə İBM öz layihəsi üçün istifadə etmişdir. Əvvəl bu dil SEQUEL(Structured English Query Language) adlanırdı, daha sonra isə bizim adət etdiyimiz SQL kimi adlanmağa başladı.

VBİS yerinə yetirdiyi əməliyyatlar:

— Verilmiş meyarlar üzrə informasiyanın axtarışını və seçimini yerinə yetirir;
— VB-da saxlanılan informasiyalar üzərində hesablamalar aparır;
— VB-dan informasiyalar çapa verir;
— VB-na yeni informasiyalar daxil edir;
— VB-da saxlanılan informasiyaları redaktə edilməsinə icazə verir.

SQL öz inkişaf səviyyəsinə görə şirkətlərdə, banklarda və digər yerlərdə yadda saxlanılan məlumatların çoxluğunu, istifadə olunan digər proqramları, əməliyyat sistemlərini nəzərə alsaq, müasir dövrdə Oracle şirkətinin yaratdığı VB daha çox istifadə olunur. Belə ki, Oracle şirkətini iki şirkətlə müqayisə etmək olar – Microsoft SQL Server və İBM DB2. Microsoft şirkətinin yaratdığı baza üçün əsas xas cəhət onun digər başqa sistemlərdə (Linux, Unix) run olmamasıdır. DB2 isə istənilən sistemlərdə run oluna bilər. Oracle-ın üstün cəhəti isə rahat istifadəsi, digər proqramlarla (Tools) paralel işlədikdə problem yaratmamasıdır.

Məhz buna görə də SQL dili ali məktəblərin bir çox ixtisaslarında tədris olunur. Biz də məqaləmizdə SQL dilində ən çox rast gəlinən, qarşıya çıxan sual və məsələləri araşdırmışıq. Onu da qeyd etmək yerinə düşər ki, VB ilə işləmək üçün şirkətlərə müraciət edənlərə əsasən bu cür suallar verilir:

- SQL dilində hansı JOİN tipləri var?

Cavab: INNER, JOIN LEFT, JOIN RIGHT, JOIN FULL, JOIN CROSS

- NULL və 0 (sıfır) bir-birindən nə ilə fərqlənir?

Cavab: Əvvəla 0 - ədəddir, NULL ədəd deyil, ikincisi, NULL onu göstərir ki, bu haqda məlumat ya məlum deyil, ya da yoxdur.

- "Order by" hansı parametrlərlə xarakterizə olunur?

Cavab: ASC və DESC

- Cədvəllərin birləşdirilməsində hansı operatorların olması mütləqdir?

Cavab: SELECT, JOİN, FROM

- UNION operatoru nə üçündür?

Cavab: Əgər cədvəlin eyni sayda sütunu, atributlarının tipi oxşar və yerləşməsi eyni ardıcıllıqladırsa, o zaman bu cədvəlləri UNION operatoru vasitəsilə birləşdirmək olar.

- VARCHAR ilə NVARCHAR-ın fərqi nədir?

Cavab: VARCHAR qiyməti ASCII formatında, NVARCHAR isə Unicode formatında saxlayır. VARCHAR, adətən, elektron ünvanlara tətbiq olunur.

- DELETE əmri ilə TRUNCATE əmri arasındakı fərqi izah edin.

Cavab: DELETE əmri – DML - əməliyyatıdır və bu əmrlə cədvəldən hər hansı bir şərtə görə yazını silirik. Məsələn, DELETE FROM table_name WHERE condition. Bu zaman silinməni geri qaytarmaq mümkündür. TRUNCATE isə DDL - əməliyyatıdır və cədvəli tamamilə dəyişir və bu əmri ləğv eləmək mümkün deyil. TRUNCATE TABLE table_name

- İNSERT İNTO SELECT operatoru nə üçündür?

Cavab: Bu operator bir cədvəldən verilənlərin surətini başqa cədvələ yerləşdirir və bu zaman verilənlərin tipi hər iki cədvəldə uyğun olmalıdır. Məsələn,

İNSERT İNTO second_table
SELECT * FROM first_table
WHERE condition;

- Cüt və ya tək ıd-si olan yazıları necə seçmək olar?

Cavab: SELECT * FROM sample WHERE id % 2 ! = 0; Əgər 2-yə bölmədə qalıq 0-a bərabərdirsə, id cüt, əks halda tək olur.

- Email ünvanı sahəsində dublikatları necə tapmaq olar?

Cavab: SELECT email, COUNT (email)
FROM customers
GROUP BY email
HAVİNG COİNT (email) > 1;

Məsələlər:

- Persons (əməkdaşlar) və Positions (vəzifələr) cədvəllərinə əsasən elə SQL sorğu yazın ki, 3-cü cədvəl alınsın:

Əməkdaşlar

| id | name | pos_id |
|---|---|---|
| 1 | Aysel | 1 |
| 2 | Nərgiz | 3 |
| 3 | Səmra | 6 |

Vəzifələr

| id | title |
|---|---|
| 1 | Dizayner |
| 2 | Redaktor |
| 3 | Proqramçı |

3-cü cədvəl

| id | name | pos_title |
|---|---|---|
| 1 | Aysel | Dizayner |
| 2 | Nərgiz | Proqramçı |
| 3 | Səmra | Redaktor |

Cavab:
SELECT persons.id, name, title AS pos_title
FROM persons INNER JOIN positions
ON persons.pos_id=positions.id;

- Transactions cədvəli verilmişdir.

| date | cash_flow |
|---|---|
| 20023-01-01 | -1000 |
| 20023-01-01 | -100 |
| 20023-01-01 | 50 |

Cash_flow – gündəik qazanc minus gündəlik xərclik.

Elə bir sorğu vermək lazımdır ki, gündəlik daxil olan məbləğin yekunu aşağıdakı cədvəl şəklində olsun

| date | cash_flow | cumulative_cf |
|---|---|---|
| 20023-01-01 | -1000 | -1000 |
| 20023-01-01 | -100 | -1100 |
| 20023-01-01 | 50 | -1050 |

Cavab:
SELECT date, cash_flow,
SUM(cash_flow) OVER (ORDER BY date ASC) AS cumulative_cf
FROM transactions;

- İki cədvəl verilmişdir.

EMPLOYESS

| id | name | job_id | current_task_id |
|---|---|---|---|
| 01 | Əsmər | 01 | 01 |
| 02 | Şəhla | 01 | Null |
| 03 | Rauf | 02 | 02 |
| 04 | Zaur | 05 | 03 |

TASK:

| task_id | comment |
|---|---|
| 01 | Project 1 |
| 02 | Project 2 |
| 03 | Project 3 |

- EMPLOYEES cədvəlindəki CURRENT_TASK_ID xarici açar olub TASKS cədvəlinin TASK_ID sahəsinə istinad edir. Bütün əməkdaşların adlarını və məşğuliyyətlərini ekrana çıxaran sorğu tərtib edin.

SELECT NAME, COMMENT FROM EMPLOYEES LEFT JOIN TASKS ON CURRENT_TASK_ID = TASK_ID

- Cədvəldən seçim edərkən, tarixə 1 gün əlavə edən sorğu verin.

Cavab: SELECT DATE_ADD (date, 1 DAY) as new_date FROM table; DATE_ADD ( ) funksiyası tarixə müəyyən olunmuş qiyməti əlavə edir.

- Cədvəldə əmək haqqı 900 olanları 1000 ilə, qalanlarını 1500 ilə əvəz edin.

Cavab: UPDATE table SET salary =
CASE
WHEN salary = 900 THEN 1000
ELSE 1500
END;

**Məqalənin aktuallığı.** Hazırda cəmiyyətin demək olar ki bütün sahələrində VB-dan istifadə olunur və VB-nın idarə edilməsi üçün SQL sorğu dilinin öyrədilməsi vacibdir.

**Məqalənin elmi yeniliyi.** SQL sorğu dili ilə bağlı məsələlərin həllində çətinlik törədən nüanslara yeni yanaşmadadır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məsələlərin həlli yolları göstərilmiş və SQL sorğu dili tədris olunan ixtisaslarda müəllim və tələbələr tərəfindən istifadə oluna bilər.

## Ədəbiyyat

1. Z.T.Məhərrəmov. Verilənlər bazası, Bakı: Kitab Yurdu İnformasiya Texnologiyaları, 2015.
2. Tim Buchalaka. Learn SQL using MySQL and Database Design.
3. Markus Winand – "SQL Performance Explained Everything Developers Need to Know about SQL Performance Paperback".

**С.Е. Шабанова**

## Особенности использования языка СГЛ в базе данных

### Резюме

Информационная перегрузка усложняет ее обработку, хранение и доставку. В это время на помощь приходят различные программы, особенно СУБД. Основой управления этими программами является язык SQL, в статье показаны особенности использования языка запросов SQL в управлении базами данных, а также разъяснены наиболее часто возникающие вопросы и проблемы.

**S.Ə. Şabanova**

**Features of the use of the SQL language in the database**

**Summary**

Information overload complicates its processing, storage and delivery. At this time, various programs, especially VBIS, come to help. The basis of the management of these programs is the SQL language, the article shows the features of using the SQL query language in database management, and explains the most frequently encountered questions and issues.

**Redaksiyaya daxil olub:** 07.03.2023

# Layihələr metodunun mahiyyəti

**Ləman Xaliq qızı Əsgərzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**E-mail:** Esgerzade05@gmail.com

**Rəyçilər:** ped.e.d., prof. M.M. Əmirov,
tarix ü.f.d., dos. Q.İ. Bəşirov

**Açar sözlər:** layihə metodu, təhsil, şagird, tələbə, müəllim
**Key words:** project method, education, pupil, student, teacher
**Ключевые слова:** метод проектов, обучение, ученик, ученик, учитель

Müasir təhsil sistemində təhsilalanların təlim-tərbiyəsi üçün yeni imkanlar açan, onların təşəbbüskarlığının, yaradıcılığının və müstəqilliyinin inkişafına töhfə verən innovativ pedaqoji texnologiyalardan istifadəyə böyük diqqət yetirilir. Ən effektiv metodlardan biri layihə üsuludur. Layihə metodunda problemin təfərrüatlı işlənməsi yolu ilə didaktik məqsədlərin həllinə nail olunur. Bu nəticəyə nail olmaq üçün tələbələrə müstəqil düşünməyi, problemləri müstəqil aşkarlayıb, həll etməyi, müxtəlif elm sahələrindən olan biliklərdən istifadə etməyi, müxtəlif problemin nəticələrini proqnozlaşdırmağı, səbəb-nəticə əlaqələri qurmaq bacarığını öyrətmək lazımdır.

Bu metodun unikallığı ondan ibarətdir ki, o, tələbələrin təkcə kommunikativ və informasiya səriştəsini deyil, həm də problemləri həll etmək bacarığını formalaşdırmaq üzərində işləməyə imkan verir.

Layihə tədrisi metodunun fəlsəfi-psixoloji xüsusiyyətləri həqiqətən də şagird şəxsiyyətinin inkişafına yönəlmişdir. Layihə üzərində çalışan tələbə fərdi olaraq "öz bilik axtarışı yolunu" yaradır və bu yolla tələbənin uzun ömürlü öyrənməsinə start verilir. Həmçinin tələbələr yaradıcı, maarifləndirici və məlumatlandırıcı fəaliyyətlərin subyektinə çevrilirlər.

Təhsil müəssisələrində layihə əsaslı öyrənmənin əsas məqsədləri:

— lazım olan məlumatı müxtəlif bilik mənbələrindən müstəqil əldə etmək bacarığı formalaşdırmaq;

— müxtəlif qruplarda işləyərək ünsiyyət bacarıqları əldə etmək;

— tədqiqat bacarıqlarını inkişaf etdirmək (problemləri müəyyən etmək, məlumat toplamaq, müşahidə etmək, eksperiment aparmaq, təhlil etmək, fərziyyələr qurmaq, ümumiləşdirmək bacarığı);

— sistemli düşüncəni inkişaf etdirmək.

Layihə metodunun pedaqoji nəticəsi, ilk növbədə, təhsilalanların fəaliyyətidir: iş zamanı planlar hazırlayırlar, müxtəlif problemlərlə üzləşirlər, onların öhdəsindən gəlirlər, yeni məlumatlar əldə edir, qazanılan biliklərdən istifadə edirlər. Prosesin uğurlu alınması üçün şagirdin şəxsi marağı, layihə probleminin həlli üçün müsbət motivasiya xüsusi əhəmiyyət kəsb edir, bu onların müstəqilliyini, məqsədyönlülüyünü, əzmkarlığını artırır. Şəxsi maraq və motivasiyanın təmin olunması üçün fərdi yanaşma təmin edilməlidir.

Layihə tədrisi metodu tələbələrin maraqları, məsuliyyətləri, fəaliyyətləri, məqsəd və vəzifələrinə çatmaq, problem həll etmə bacarıqlarını və düşünmə yaradıcılığını artırır.

Layihə tədris texnologiyası qavramanın, mənimsəmənin səviyyəsini artırır, tələbələrin informativ, problem həll etmə, kommunikativ, mədəni, habelə sosial-mədəni kompentensiyalarını formalaşdırmaq imkanı verir.

Layihə metodu, təhsilalanlara əməkdaşlıq hissi aşılayır və onların sosial bacarıqlarını inkişaf etdirir. Layihə metodu ilə iş zamanı qruplarla iş, şagirdlərin həm peşəkar, həm də şəxsi səviyyədə bir-biri ilə əlaqə saxlanılmasına kömək edir. Həmçinin şagirdlərə ünsiyyət bacarıqlarını təkmilləşdirməyə yardımçı olur, çünki, tələbələrə öz həmyaşıdları, eləcə də müəllimləri arasında fikirlərini sərbəst ifadə etmək imkanı verilir və beləliklə, onlara daha effektiv ünsiyyət qurmağa kömək edir (1, s. 107-108).

Layihə metodunun praktikada tətbiqi müəllimin mövqeyinin dəyişməsinə səbəb olur. O, hazır biliyin daşıyıcısından tələbələrin idrak, tədqiqat fəaliyyətinin təşkilatçısına çevrilir. Müəllim öz tədris və tərbiyə işini tələbələrin müstəqil fəaliyyət növlərinə, tədqiqat, axtarış, yaradıcılıq xarakterli fəaliyyətlərin prioritetinə yönəltməli olduğu üçün sinifdə psixoloji iqlim də dəyişir. Bu, tələbələrin özünəinamını və özünə məsuliyyətini artırmağa, öz öyrənmə tərzini inkişaf etdirməyə kömək edir. A.Cəlilov "Azərbaycan tarixinin interaktiv təlim metodları ilə tədrisində şagirdlərdə tarixi anlayışların formalaşdırılması" kitabında layihələr ilə iş zamanı müəllimin rolu barəsində qeyd edir: "Layihə üzərində iş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər, lakin öz işlərinin icrasına görə şagirdlərin özləri məsuliyyət daşıyırlar".

"...Müəllim şagirdlərə layihə üzərində işə nə vaxt başlamalı olduqları, hansı əyani vəsaitlərdən istifadə edəcəyi, onları haradan almaq mümkündür, təqdimatın növü, onun keçirmə şəraiti və şərtləri haqqında köməkçi olur" (2, s. 18).

Müasir müəllim başa düşməlidir ki, təlim prosesi təhsilalanlar üçün cəlbedici olmalıdır, müəllimin bütün peşə bilik, bacarıqları təlimdə belə şəraitin yaradılmasına yönəldilməli, onun peşəkar səriştəsinin göstəricisinə çevrilməlidir (3, s. 14).

Tələbə nəinki lazımi məlumatı toplamalı və təhlil etməli, məhsul hazırlamalı, həm də öz layihəsini dəyərləndirməli və ictimaiyyət qarşısında müdafiə etməlidir. Beləliklə, tələbələrdə öz qərarlarına görə məsuliyyət hissi formalaşır.

Təlim prosesində layihələr metodunu tətbiq edən zaman aşağıdakı didaktik prinsiplərin gözlənilməsi məqsədəuyğundur:

— layihə məqsədyönlü, faydalı, aydın olmalı;
— dəqiq müəyyən edilmiş məqsədləri olmalıdır;
— layihə işi üçün problem seçərkən təkrarçılığa yol verməmək;
— problemin aktuallığı;
— təhsilalanların yaş və anlaq səviyyələri, maraqları və fərdi xüsusiyyətləri nəzərə alınmalı;
— İKT-dan, müxtəlif bilik mənbələrdən maksimum istifadəni təmin etməli;
— şagirdlərin müstəqillik və inkişafetdiricliyinin təmin edilməsi;
— fənndaxili və fənlərarası, fənnüstü inteqrasiyadan istifadə;
— layihə işi zamanı müəllim fasilitator rolunu oynamalı, şagirdlərə suallar verməklə problemin həllinə istiqamətləndirməli;

Təlim prosesində layihə ilə iş zamanı qrupların işini düzgün təşkil etmək üçün təlimin aşağıdakı prinsiplərinə riayət etmək lazımdır:

— müsbət qarşılıqlı asılılıq;
— hər bir tələbənin uğuruna görə fərdi məsuliyyət;
— hər bir tələbənin uğur qazanması üçün bərabər imkanlar təmin etmək;

Müsbət qarşılıqlı asılılıq elə qarşılıqlı asılılıqdır ki, burada qrup üzvlərindən hər biri başa düşür ki, bütün qrupun uğuru onun üzvlərinin fərdi uğurundan asılıdır, hər bir qrup üzvünün qrup işinə verdiyi töhfə çox vacibdir.

Hər bir tələbənin fərdi məsuliyyəti qrupun bütün üzvlərini bir-birinin fəaliyyətini izləməyə və bütün komandanı materialın mənimsənilməsinə və başa düşülməsinə kömək etməyə həvəsləndirir ki, hər kəs hər bir tələbəyə ayrıca təklif oluna bilən hər cür nəzarət yoxlamasına özünü hazır hiss etsin.

Üçüncü prinsipə əsasən, hər bir tələbə öz əvvəlki nəticələrini, göstəricilərini təkmilləşdirməklə təlimdə uğur qazana bilər. Müqayisə bu və ya digər qrupun, tələbələrin nəticələri ilə deyil, özlərinin əvvəllər əldə etdikləri nəticələrlə aparılır (4).

Professor Mübariz Əmirov "Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası" dərsliyində layihə metodunun əhəmiyyəti barədə belə bir qənaətə gəlir: "Layihə fəaliyyəti nəticəsində fəaliyyətin motivlərini müəyyən etmək üçün praktiki təlim bacarıqlarının formalaşdırılması yeni biliklərin əldə edilməsi və sistemləşdirilməsi, qrupla səmərəli işlənməsi, digərlərinin fikirlərinin nəzərə alınması, realistcəsinə nailiyyətlərin qiymətləndirilməsi baş verir. Bu halda şagirdlərin bilikləri evristik xarakter daşıyır, daima yadda saxlanılır və praktikada tətbiq oluna bilər (5. s.526).

Ümumiyyətlə, layihələr metodu problemli öyrənmə prinsipi əsasında qurulur. Beləliklə, təlim prosesində istifadə edilən layihələr aşağıdakı kimi xarakterizə edilir:

— şəxsiyyətyönümlü;
— fəaliyyətyönümlü;
— qrup fəaliyyətlərində qarşılıqlı əlaqənin öyrədilməsi;
— problem əsaslı öyrənmə prinsipləri üzərində qurulur;
— özünüifadə etmə, özünügöstərmə, özünütəqdimetmə vərdişlərinin inkişaf etdirilməsi;
— zehni, praktiki və iradi sahələrdə müstəqillik bacarıqlarının formalaşdırılması;

məqsədyönlülük, fərdilik, kollektivçilik, məsuliyyət, təşəbbüskarlıq, yaradıcı münasibət.

Layihə metodundan istifadə etmək müəllimə şagirdlərin yaradıcı potensialını üzə çıxarmağa kömək edir. Beləliklə, tədrisdə layihə metodundan istifadə getdikcə aktuallaşır. Bu da təsadüfi deyil, çünki layihənin köməyi ilə təlimin qarşısında duran bütün tərbiyəvi, təhsil və inkişafetdirici vəzifələri həyata keçirmək mümkündür. Layihə metodu həm təcrübəyönümlü, həm də tələbəyönlü olduğundan müasir təhsilin tələblərinə cavab verir. Bu, öyrənmə prosesini fərdiləşdirməyə imkan yaradır. Ümumilikdə, yeni təhsil sisteminin əsasını tələbələrin özünütəhsil fəaliyyətinin təşkili, onların axtarış qabiliyyəti və bacarıqlarının inkişaf etdirilməsi və formalaşması təşkil edir və aydındır ki, layihə tədris metodu da öz-özünə öyrənməyə əsaslanır, buna görə bir-birini tamamlayır. Tədqiqatlarda sübut olunmuşdur ki, layihə tədris metodundan istifadə şagirdlərin məntiqi təfəkkürə yiyələnməsinə kömək edir.

**Məqalənin aktuallığı.** Layihələr metodunun tətbiqi müasir təhsil sisteminin inkisaf etdirilməsində aparıcı amillərdən biridir, bu mövzu kifayət qədər araşdırılmadığı üçün tədqiqat obyekti kimi bir çox tədqiqatçıların diqqət mərkəzindədir.

**Məqalənin elmi yeniliyi.** Layihələrlə işin təhlilindən aydın olur ki, bu mövzu tədris prosesini təkmilləşdirməyə motiv yaradır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları, Bakı, ADPU-nun nəşriyyatı, 2015, 190 s.
2. Cəlilov A. Azərbaycan tarixinin interaktiv təlim metodları ilə tədrisində şagirdlərdə tarixi anlayışların formalaşdırılması, Bakı, 2006, 63 s.
3. Nəzərov A.M. Müasir təlim texnologiyaları, Bakı, 2012, 103.
4. Метод проектов как прогрессивная педагогическая технология.https://study-english.info/ict-projects.php
5. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası, Bakı, 2014, 707 s.

**Л.Х. Аскарзаде**

**Суть метода проектов**

**Резюме**

В современной системе образования большое внимание уделяется использованию инновационных педагогических технологий, которые открывают новые возможности в воспитании учащихся и способствуют развитию их инициативы, творчества и самостоятельности. Одним из наиболее эффективных методов является метод проектов, для достижения результата необходимо научить студентов самостоятельно мыслить, самостоятельно выявлять и решать проблемы, использовать знания из различных областей науки, умение прогнозировать результаты различных проблем, умение устанавливать причинно-следственные связи-эффектные отношения.

Уникальность данного метода в том, что он позволяет работать над формированием у учащихся не только коммуникативно-информационной компетенции, но и умения решать задачи.

**L.X. Askarzade**

**The essence of the projects method**

**Summary**

In the modern education system, great attention is paid to the use of innovative pedagogical technologies that open up new opportunities for the education of students and contribute to the development of their initiative, creativity and independence. One of the most effective methods is the project method.  in order to achieve the result, it is necessary to teach students to think independently, identify and solve problems independently, use knowledge from various fields of science, the ability to predict the results of various problems, and the ability to establish cause-and-effect relationships.

The uniqueness of this method is that it allows students to work on forming not only communicative and informational competence, but also the ability to solve problems.

**Redaksiyaya daxil olub:** 03.03.2023

# I-IV siniflərin musiqi dərslərində əxlaqi-mənəvi yönlü təhsil və tərbiyənin təşkili imkanları

**Rəqsanə İsmayıl qızı Məmmədova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**E-mail:** raqsanamva@gmail.com

**Rəyçilər:** ped.e.d., prof. A.N. Abbasov,
ped.ü.f.d., L.A. Məmmədli

**Açar sözlər:** musiqi, musiqi dərsləri, I-IV siniflər, əxlaqi-mənəvi tərbiyə, təhsil və tərbiyənin təşkili
**Ключевые слова:** музыка, уроки музыки, I-IV классы, нравственно-духовное воспитание, организация обучения и воспитания
**Key words:** music, music lessons, grades I-IV, moral and spiritual education, organization of education and upbringing

Tərbiyə ümumiləşmiş anlayışdır. Onun digər sahələri də var: yenidən tərbiyə və özünü tərbiyə. İslamda uşağın tərbiyəsi baxımından onun inkişafı iki dövrə bölünür: tədbiri və tətbiqi dövr.

Tədbiri dövrdə tərbiyə – uşağın ana bətnindən başlayıb həyatı boyunca davam edən uzunmüddətli bir prosesidir. Tətbiqi dövr - uşaqların doğumdan ölənə qədər olan dövrünü əhatə edir. Bu dövrdə şəxsin yaşına, gücünə, fərdi, psixoloji xüsusiyyətlərinə, fiziki sağlamlığına, qabiliyyətinə uyğun olaraq onun şüuruna, hisslərinə və davranışına təsir göstərilir. Bu tərbiyəvi təsirlər onu dəyişdirir, formalaşdırır, kamilləşdirir. Hava və qidadan sonra vücudunuzun ən çox ehtiyac duyduğu üçüncü amil təlim-tərbiyədir. Tərbiyə əqlimizin ilkin özəyidir.

Tərbiyənin bir çox növləri var: əmək tərbiyəsi, musiqi tərbiyəsi, əxlaq tərbiyəsi, fiziki tərbiyə, iqtisadi tərbiyə, ekoloji tərbiyə, əqli tərbiyə, hüquqi tərbiyə. Tərbiyə anlayışının davranışın bütün sahələri ilə sıx bağlı olduğu görünür. Lakin musiqi tərbiyəsi daha böyük imkanlar yaratmaq qüdrətinə malikdir. Belə ki, o, ətraf aləm, insanlar, həyat haqda məhz musiqi dili ilə söhbət açır. Xalqımızın milli-mənəvi dəyərləri Azərbaycanda musiqi zövqünün tərbiyə olunmasında əsas amil kimi dəyərləndirilir. Milli musiqi nümunələrimizdə - xalq mahnılarında, rəqslərdə, aşıq musiqisində xalqın yüksək mənəviyyatı, onun arzu və istəkləri əks olunur.

Qeyd etdik ki, musiqi çox gözəl və güclü tərbiyə vasitəsidir. Ona görə də bütün təhsil pillələrində - istər məktəbəqədər müəssisələrdə, istər musiqi məktəblərində, istərsə də orta və ali məktəblərdə musiqi düzgün tədris olunmalıdır. Bunun üçün isə tərbiyə, təlim və təhsil prosesi zamanı musiqi nümunələrinin düzgün seçilməsi əsasdır. Musiqi fəaliyyətinin bütün növləri – istər musiqi dinləmək, istər mahnı oxumaq, musiqili-ritmik hərəkətlər və s. xüsusi şəkildə şagirdin şüuruna, onun əxlaqına təsir göstərir. Çünki qüdrətli estetik və bədii tərbiyə vasitəsi olan musiqi uşaqların hisslərinə birbaşa təmas edir və onlara musiqi zövqü aşılayır.

Musiqi təhsili estetik tərbiyənin vacib hissəsidir. Respublikamızda gündüz və axşam musiqi məktəbləri şəbəkəsi yaradılmış, məktəblərdə, peşə təhsili ocaqlarında, uşaq və gənclər saraylarında, mədəniyyət evlərində musiqi dərnəkləri fəaliyyət göstərir. Ancaq bütün bunlar sistemli musiqi tərbiyəsini əvəz etmək iqtidarında deyil. Ona görə də musiqi tərbiyəsi daha çox ümumtəhsil məktəblərində və uşaq musiqi məktəblərindəki musiqi dərslərində həyata keçirilə bilər.

Uşaq mahnıları bu işdə daha çox səmərə verir. Uşaq mahnıları vasitəsilə bədii tərbiyənin yolları geniş inkişaf etdirilmişdir. Kiçikyaşlı uşaqların bədii zövqünün formalaşması musiqi tərbiyəsinin ən mühüm, eyni zamanda ən çətin məsələlərindən biridir. Onun həlli şəxsiyyətin

inkişafının bütün mərhələlərində həyata keçirilməlidir. Bədii zövqün yuxarı sinifdə formalaşmasına baxmayaraq, onun əsası ibtidai siniflərdən başlanır. Gənc nəslin musiqi tərbiyəsində musiqi məktəblərinin rolu çox böyükdür. Çünki musiqi məktəblərində minlərlə şagird təhsil alırsa, ümumtəhsil məktəblərimizdə yüz minlərlə şagirdin musiqi tərbiyəsi ilə məşğul olunur.

Ümumtəhsil məktəblərində musiqi tərbiyəsi iki yolla həyata keçirilir: sinifdə tədris edilən musiqi dərsləri və məktəbdəki özfəaliyyət musiqi kollektivləri ilə. Burada sinifdə tədris edilən musiqi fənninin əhəmiyyətini xüsusi vurğulamaq istərdik. Məhz bu fənn vasitəsilə onlar Azərbaycan peşəkar musiqi sənətinin yaradıcısı dahi Üzeyir Hacıbəylinin timsalında Azərbaycan musiqisilə (buraya həm ənənəvi musiqi, həm klassik musiqi və bəstəkar əsərləri aiddir), eləcə də Qlinka, Çaykovski, Motsart, Bethoven kimi rus və Qərbi Avropa klassik bəstəkarlarının əsərləri ilə tanış olurlar.

Buradan bir daha aydın olur ki, ümumtəhsil məktəblərimizdə şagirdlərin musiqi tərbiyəsi ilə məşğul olan əsas fənn musiqidir. Görkəmli pedaqoqlar şagirdlərin bədii zövqlərinin düzgün tərbiyələndirilməsi işində musiqini qüvvətli təsir gücünə malik vasitələrdən biri kimi həmişə yüksək qiymətləndirmişlər. Çünki musiqi təkcə şagirdlərin estetik tərbiyəsində deyil, həmçinin əqli, əxlaqi və fiziki tərbiyəsində də mühüm rol oynayır.

Görkəmli psixoloq B.M. Teplov musiqinin estetik qavranılmasını aktiv fəaliyyət kimi qiymətləndirmişdir. Estetik tərbiyə məsələləri ilə məşğul olmuş B.V. Asafyev isə musiqini təbiətdə və insan qəlbində səslənən gözəl nə varsa, hamısının "daim canlı təcəssümü" adlandırmış və musiqi ilə yalnız əyləndirməyə, onu dinləyicilərə zorla qəbul etdirməyə deyil, musiqi vasitəsilə inandırmağa və sevindirməyə çağırmışdır.

Uşaq və gənclərə ümumi musiqi tərbiyəsi vermək, onları yüksək musiqi sənətinə cəlb etmək ən yaxşı xalq, klassik, xarici, Azərbaycan musiqisi, habelə müasir bəstəkarların əsərləri nümunəsində estetik zövq formalaşdırmaq, fəal bədii özfəaliyyət iştirakçılarını, musiqi-estetik biliklərin təbliğatçılarını tərbiyə etmək, böyüməkdə olan nəslin mənəviyyatın dövrümüzün tələbləri ruhunda təkmilləşdirilməsinə kömək göstərmək – musiqi-estetik tərbiyə işinin istiqamətləri bunlardır. Eyni zamanda, musiqi tədrisində əsas məqsəd şagirdlərdə yaradıcılıq qabiliyyətini üzə çıxartmaq, musiqi bacarıqlarını inkişaf etdirmək və formalaşdırmaq, keyfiyyətli musiqiyə qarşı maraq oyatmaqdər. Tədris olunan dərs vəsaitləri də məhz buna xidmət edir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olur ki, I-IV siniflərdə musiqi dərslərinin tərbiyəvi imkanlarından faydalanmaqla kiçikyaşlı məktəblilərdə əxlaqi-mənəvi keyfiyyətləri səmərəli şəkildə formalaşdıra bilərik.

**Məqalənin aktuallığı.** Təlim-tərbiyə prosesində musiqini öyrənənlərin hisslərinə birbaşa təmas etməsi və onlara musiqi zövqü aşılaması.

**Məqalənin elmi yeniliyi.** Estetik və bədii vasitə olan musiqinin təlim-tərbiyə müstəvisində həmahəng olması.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Musiqinin praktik müstəvidə əhəmiyyəti odur ki, musiqi təhsilalanların aktiv fəaliyyətini inkişaf etdirir və koqnitiv bacarıqlarının inkişafına təkan verir.

**Ədəbiyyat**

1. Abbasov A.N., Məmmədzadə R.R., Məmmədli L.A., Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti, Bakı, Mütərcim, 2021.
2. Abbasov A.N., Məmmədli L.A., Əmirəliyeva İ.B. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik, Bakı, Mütərcim, 2022.
3. Məmmədli L.A. Pedaqogika nəzəriyyəsi: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti, Bakı, Mütərcim, 2022.

**Р.И. Мамедова**

**Возможности организации нравственно-духовного воспитания и обучения в музыкальных классах I-IV классов**

**Резюме**

Основной целью музыкального образования является раскрытие творческих способностей учащихся, развитие и формирование музыкальных способностей, формирование интереса к качественной музыке.

**R.İ. Mammadova**

**Possibilities of organization of moral-spiritual oriented education and training in music classes of I-IV grades**

**Summary**

The main goal of music education is to reveal creativity in students, develop and shape musical skills, and arouse interest in quality music.

**Redaksiyaya daxil olub:** 23.05.2023

# İbtidai siniflərdə nəzəri bilikləri və bacarıqları formalaşdıran təlim üsulları

**Aygün Akif qızı Nəzərli**
*Bakı Qızlar Universitetinin magistrantı*
**E-mail:** nezerliaygun930@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. Q.G. Qəmbərova,
filol.ü.f.d., dos. K.F. Quliyeva

**Açar sözlər:** induktiv, qavrama, şərh, izah, təhlil, özünənəzarət
**Ключевые слова:** индуктивный, восприятие, комментарии, объяснение, анализ, самоконтроль
**Key words:** inductive, perception, comment, explanation, analysis, self-control

Azərbaycanın təhsil sistemində zəruri islahatların aparıldığı bir şəraitdə tədris proqramlarının təkmilləşdirilməsinə, yeni dərsliklərin yazılmasına böyük ehtiyac duyulur. Dünyada gedən qloballaşma və Azərbaycan təhsilinin Avropa təhsilnin inteqrasiyası təhsildə yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından, yeni texnologiyalardan istifadə edilməsini tələb edir. Məktəb gənc nəslin təlim-tərbiyəsi işinin təşkilində, həyata keçirilməsində mühüm rol oynayır. Hazırkı dövrdə təhsil sistemi qarşısında duran başlıca vəzifə – dərin bilikli, fiziki və zehni cəhətdən inkişaf etmiş, dünyagörüşə, yüksək mədəniyyətə, zəngin əxlaqa malik olan ahəngdar şəxsiyyət tərbiyəsidir. Məktəbdə təlim-tərbiyə işi məqsədyönlü, planlı və mütəşəkkil şəkildə, xüsusi hazırlıqlı pedaqoji kadrların rəhbərliyi ilə həyata keçirilir.

Burada pedaqoji texnologiyalara tarixi-nəzəri baxış, təlim texnologiyaları haqqında anlayış, təlim texnologiyalarının struktur və funksional komponentləri, təlim texnologiyalarının yaradılması və tətbiqi prinsipləri, fəal və interaktiv təlim metodları, habelə tərbiyə texnologiyaları kimi aktual problemlərin təhlilinə xüsusi diqqət yetirilməlidir.

**İbtidai siniflərdə nəzəri bilikləri və bacarıqları formalaşdıran təlim üsulları**

Son illərdə təhsil sistemində aparılan və uğurla həyata keçirilən məqsədəyönlü islahatların nəticəsi olaraq təhsilimizdə sürətli irəliləyişlər və uğurlu dəyişikliklərə nail olunmuşdur. Araşdırma predmeti seçilən, təlim prosesində önəmli yeri olan üsul və üsullar toplusunu təşkil edən qruplar dərsdə nəzərdə tutulan əsas pedaqoji vəzifənin yerinə yetirilməsinə şərait yaradır. Hər bir müəllimin fəaliyyətində xüsusi yeri olan, təlim prosesinin ayrılmaz hissəsi hesab edilən, şagirdlərin mənimsəmə və təsəvvürlərini inkişaf etdirən üsulları nəzərdən keçirməyə çalışaq: **Mənimsəmə (qavrama) və təsəvvürlərin formalaşdırılması.** Müəllim tərəfindən təlim prosesində həyata keçirilən, şagirdlərin intellektual səviyyəsi nəzərə alınmaqla mənimsəməyə şərait yaradan, maddi aləm haqqında bilgilərin formalaşmasına imkan verən belə üsullar qrupuna mənimsəməni formalaşdıran, inkişaf etdirən üsullar deyilir və hissi qavramanı təmin etmək, ətraf aləm haqqında dolğun təsəvvürlər yaratmaq məqsədi güdür.

Təsəvvürlərin formalaşması şagirdlərin təxəyyülünün birbaşa inkişafına şərait yaradır. Müəllimlər həmin paketlər və layihələrlə işləyən zaman məsləhətçi – təşkilatçı funksiyasını yerinə yetirirlər. Çoxlarına elə gəlir ki, bu hamının müqəddəs saydığı müəllimlik peşəsinə hörmətsizlikdir. Amma yadda saxlamaq lazımdır ki, bir çox müəllimlər metodistlərin onlar üçün hazırladığı metodiki işləmələrdə, dərs planlarından məmnuniyyətlə istifadə edirlər. Köhnə təhsil üsullarından azad olan müəllim sözün həqiqi mənasında pedaqoji işlə, şagirdlərin inkişafı ilə məşğul olur. Təlimdə şəxsiyyətin, yaradıcılığın və mexanikləşdirmənin nisbəti məsələsi, həqiqətən, adi məsələ deyil.

Beləliklə, pedaqoji texnologiya dedikdə, qabaqcadan verilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış, optimal, didaktik proseslər başa düşülür. Bundan başqa, praktik planda pedaqoji texnologiya müəllimin hər hansı bir texnoloji cəhətdən işlənib hazırlanmış metodlar və priyomlar sistemini, nəhayət, tərbiyə işinin metodikasını və metodlarını da ifadə edə bilər. Dərs zamanı müəllim proqram materialına uyğun sistemli, məqsədyönlü və planlı qavramanın təşkili məqsədilə *müşahidə üsulundan* istifadəyə üstünlük verməlidir. Texnologiyaya görə, təlimin məqsədi şagirdin psixoloji vəziyyətini, onun biliklərini, fikirlərini, hisslərini, davranışını dəyişməkdir. Texnologiyanın vəzifəsi təlimedici sistemin bütün elementlərini öyrənmək və təlim prosesini layihələndirməkdir.

Məlumdur ki, digər metod və üsullarda olduğu kimi, müşahidə üsulunun da təşkili onun düzgün qurulmasından asılıdır. Təlim zamanı müşahidənin təşkili mərhələli alqoritmlə qurulur, yəni öyrədici məqsədin müəyyənləşdirilməsi, icra zamanı planlı müşahidənin və istifadə olunacaq vasitələrin dəqiqləşdirilməsi, müşahidə zamanı görünənlərin qeydə alınması və uyğun nəticələrin təhlil olunması diqqət mərkəzində saxlanılmalıdır. Təhlil prosesi şagirdlərin qavrama səviyyəsini müəyyən etməyə imkan verir və qiymətləndirməyə yardım edir.

Müəllim tərəfindən təlim materialının demonstrasiya etdirməklə əyani vəsaitlərdən istifadə yolu ilə qavranılması *illüstrasiya üsulu* ilə həyata keçirilir. Bu üsul zamanı istifadə olunan əyani vəsaitlər sisteminə aşağıdakıları şamil etmək olar: plakat və düşündürücü şəkillər, həyatda rast gəlinən təbii əşyalar, materialların sxematik təsviri vasitələri, rəmzi əyani material və vasitələr. Təlim prosesində müəllim tədris etdiyi mövzunun tələbinə, onun məzmun və məqsədini izah etmək üçün uyğun vasitələrdən istifadə edir. Bu üsulun tətbiqində əsas məqsəd şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirməkdir.

Müəllim şagirdlərə öz köməkliyini xeyirxahlıqla, sakit tərzdə etməli və bunu qrupda müzakirə aparan uşaqlara təlqin etməlidir. Əgər qrup verilən tapşırığın öhdəsindən gələ bilmirsə, bunun 2 səbəbi var: 1) tapşırıq həddən artıq çətin və mürəkkəbdir; 2) tapşırığı icra etmək üçün uşaqlarda möhkəm praktik vərdişlər yaranmayıb.

Bütün bu hallarda müəllimin pedaqoji ustalığının artırılması istiqamətində iş aparılmalıdır.

**Şifahi şərh (doqmatik) üsulu.** Müəllimin tədris etdiyi mövzunu şifahi formada yerinə yetirməsi şərh üsulu adlanır. Üsulun əsas üstünlüyü müəllimin qısa zaman müddətində şagirdlərə daha çox məlumatın verilməsidir. Metodik ədəbiyyatlardan məlumdur ki, şifahi şərh üsulları üç formada həyata keçirilir: təsvir, izah və mühazirə formalarında. **Təsvir** – müəyyən hadisəni (mövzunu) obrazlı formada canlandırmaqdan ibarətdir. **İzah** – məqsədə aid qaydanı, qanunu, anlayışı, fakt və sübutlarla izah etməkdən ibarətdir. Adətən, tədris materialının izah edilməsi təlimin xarakterinə görə informasiya verən və problemli təlim formasında olur. Təlim prosesində müəllimin şifahi şərhi zamanı mütləq mənada bir sıra mühüm amillər diqqət mərkəzində saxlanmalıdır: şifahi şərh zamanı müəllim ümumi didaktik prinsiplər: əyanilik, müvafiqlik, nəzəri biliklərin praktika ilə əlaqələndirilməsi prinsiplərindən istifadə etməli və onları həyat həqiqətləri ilə əlaqələndirməlidir; dərs zamanı müəllim müsbət emosiya yaratmalı, məzmunlu, əhatəli, rəvan, başa düşülən, orta sürətli və yorucu olmayan səs tembirindən istifadə etməlidir; təlim zamanı müəllimin bəzi jestlərdən istifadəsi qəbul ediləndir, lakin müəllim sinifdə yersiz fiziki hərəkətlər etməməli və sinifdə yersiz ora-bura getməməlidir; dərsdə müəllim tərəfindən şagirdlərin idrakı fəallığının yüksəldilməsinə şərait yaradılmalıdır.

**Müsahibə üsulu** – qarşılıqlı dialoqa əsaslanan problemli sual–cavab anlamında başa düşülür. Bu üsul əsas təlim forması kimi onun bütün mərhələlərində daha çox istifadə olunur. Metodik ədəbiyyatlarda müsahibənin evristik və biliyin möhkəmləndirilməsi kimi iki forması məlumdur. Təlim prosesində problemli sualların qoyuluşu ilə mövzuya uyğun məqsədlər müəyyən olunaraq, nəticələrin çıxarılması evristik üsulla həyata keçirilir. Məsələn: 1. Şagird-

lərin yaradıcı fikirlərini ümumiləşdirməklə konkret mövzu və ya problemini təlim texnologiyalarından istifadə yolu ilə həll etmək, "kollektiv beyin" yaratmaq; 2. Əməkdaşlıq etmək bacarıqlarını, qanuna tabelik vərdişlərini tərbiyə etmək; 3. Şagirdlərin yaradıcılığını inkişaf etdirmək.

Bu texnologiya məktəbdə sorğu zamanı yeni materialı öyrənəndə, keçilmiş materialı təkrar edəndə və ümumiləşdirəndə, problemləri həll edəndə, sinfin planlarını tərtib edəndə tətbiq edilir. Sualların təşkilində konkret tələblər gözlənilməlidir: — suallar məna çalarına görə başa düşülən və konkret hədəfə istiqamətlənməlidir; suallar problemli-düşündürücü və həcmcə qısa olmalıdır; ziddiyyətli cavablara malik olan, lakin çaşdırıcı olmayan suallardan istifadə olunmalıdır; müsahibə üsulunun təşkilində qruplarla iş üsulundan yararlanmaq lazımdır. Belə iş formasında ümumi müzakirənin aparılması ilə şagirdlər bir-birlərinin səhvlərini düzəldərək məntiqi təfəkkürlərinin inkişafına özləri nail olurlar.

Təlim prosesində müsahibənin ən çox istifadə olunan forması diskussiya üsuludur. Bu üsulda təklif olunan problem üzərində şagirdlərin müxtəlif yanaşmaları meydana gəlir, belə müxtəlif baxışlara, yanaşmalara hər bir şagird öz şəxsi mövqeyini bildirir və bu fikirlərə haqq qazandırmağa çalışırlar. Nəticədə, onların məntiqi, yaradıcı və tənqidi təfəkkürləri inkişaf edərək formalaşacaqdır.

**Təfəkkürü inkişaf etdirən didaktik oyun üsulları.** Bu üsullardan istifadə şagirdlərin idraki bacarıqlarını formalaşdırmağa imkan yaradır, dərsə marağı və müsbət emosional təsiri yüksəldir. Didaktik oyunlar sırasına: idrakı yüksəldən xüsusi hazırlanmış oyunlar, səhnələşdirmə, rollu oyunlar daxildir. Bu oyunların təlim prosesində xüsusi maraq doğurması səbəbindən müəllimlər bu təfəkkürü inkişaf etdirən təlimi oyunlardan daha çox istifadə edirlər.

**Yaradıcılıq və tədqiqatçılıq üsulları.** Bu üsullar təlim prosesində şagirdlərdə təlimi axtarışları istiqamətləndirərək problem-sualları müstəqil həll etmələrinə imkan yaradan üsullardır. Bu üsulun üç növü xüsusi diqqətdə saxlanılıb geniş tətbiq olunur: fərdi, frontal və intensiv sorğu. Müasir təlim üsulları ilə təşkil olunub keçilən dərslərdə isə kollektiv, fərdi, cütlərlə və qruplarla iş üsullarından istifadə olunur.

Qeyd olunan üsullar eyni funksiyanı, amma müxtəlif yanaşmalarla həyata keçirilir. Yazılı nəzarət üsuluna yoxlama yazı işləri, test tapşırıqları, qrafik təsvirlərin yazılması, yazılı sorğular, tədris planına uyğun planlaşdırılmış yoxlama üsulları daxildir. Son illər təlim zamanı şagirdlərin müstəqilliyinə, sərbəst fikir söyləmələrinə, fikirlərini arqument və faktlara əsaslanaraq deməlırinə xüsusi imkan və şərait yaradılır. Məhz belə yanaşma şagirdlərin özünənəzarət və özünüqiymətləndirmə işlərində fəal olması üçün zəmin yaradır. Özünənəzarət üsulları şagirdlərin öz təlim fəaliyyətlərinə, müstəqil işinə nəzarət etməsində özünü büruzə verir. Bu zaman şagird öz fəaliyyətinə nəzarət edir, çətinliklərini təyin edir, səhvlərini özü tapıb düzəldir və ümumiləşdirmə apararaq fəaliyyətinə qiymət verir.

Mütləq mənada heç bir üsulu, xüsusilə, klassik təlim üsullarını köhnəlmiş və yararsız hesab etmək, tam mənası ilə ondan imtina etmək doğru deyildir.

**Məqalənin aktuallığı.** İbtidai təhsilin müasir tələblər səviyyəsində qurulmasını təmin edən üsul və vasitələrin düzgün seçilməsi prioritet istiqamətlərdən biridir. Məqalədə problemin bu cəhəti diqqət mərkəzində çəkilir, yanaşma və təhlillər belə bir aktual baxış bucağından dəyərləndirilir.

**Məqalənin elmi yeniliyi.** Klassik və müasir təlim üsullarının təlim prosesinə əlaqəli tətbiqi araşdırılmış, bu təlim üsullarının səciyyəvi cəhətləri izah və şərh edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Qeyd olunan təlim üsullarından istifadə olunması şagirdlərin idrak fəaliyyətini inkişaf etdirərək onlarda məntiqi və yaradıcı təfəkkürün formalaşmasına imkan verəcəkdir. Bunun məktəb praktikasına tətbiq edilməsi müsbət nəticələr verə bilər.

**Ədəbiyyat**

1. Abbasov A., Əlizadə H., Pedaqogika: Dərs vəsaiti. Bakı, Renesans, 2000.
2. Ağayev Ə., İbrahimov F., Hüseynzadə R. Bakı, Adiloğlu, 2006.
3. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, Mürtəcim, 2006.
4. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, Mütərcim, 2007.
5. Əsgərov Ş., Təhsilimiz dünən, bu gün, sabah. Bakı, BDU-nun nəşriyyatı, 2003.

**А.А. Назарли**

**Методы обучения, формирующие теоретические знания и умения в начальных классах**

**Резюме**

В статье рассматриваются некоторые методы, используемые в учебном процессе, изучается их влияние на процесс восприятия знаний, формирование познавательной деятельности и развитие мышления школьников. Выявлено, что использование современных методов обучения и методов рабочих форм в начальных классах помогает школьникам приобретать самостоятельные знания. Отмечены некоторые факторы, влияющие на формирование логического, критического и творческого мышления у школьников.

**A. A. Nazarly**

**Teaching methods that form theoretical knowledge and skills in primary grades**

**Summary**

The article examines some of the methods used in the learning process, their influence in the process of students' perception of knowledge, the formation of cognitive activity and the development of thinking. It has been found that modern teaching methods in primary schools, the use of working form methods contribute to the independent acquisition of knowledge by schoolchildren. Some factors contributing to the formation of logical, critical and creative thinking among schoolchildren were outlined.

**Redaksiyaya daxil olub:** 03.03.2023

# Əxlaqi-mənəviyönlü təhsil və tərbiyə sisteminin pedaqoji əsasları

**Səbinə Fizuli qızı Rzayeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**E-mail:** sabina20rzayeva@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. H.B. Bayramov,
psix.ü.f.d., dos.U.M. Qəzvini

**Açar sözlər:** əxlaq tərbiyəsi, mənəvi dəyərlər, təhsil, əxlaqi keyfiyyətlər
**Ключевые слова:** нравственное воспитание, нравственные ценности, образование енравственные качества
**Key words:** moral education, moral values, education, moral qualities

Pedaqogikada ilk dəfə olaraq Yan Amos Komenski əxlaq tərbiyəsi ifadəsini işlətmişdir. Komenski bir çox əsərlərində əxlaq tərbiyəsi və əxlaq qaydalarına da toxunmuşdur.

Təxminən 400 il bundan əvvəl Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində əxlaq qaydalarının böyük bir sistemini tərtib etmişdir. Keçmişin təcrübəsini, təlim-tərbiyə məsələlərini dərindən dərk etdiyindən Nəsrəddin Tusi gələcək nəslin tərbiyəsi üçün ağıllı istiqamətlər vermişdir. Hər şeydən əvvəl, əxlaq normalarının tənzimlənməsinə geniş yer ayıran Tusi bu məqamda uşaqların davranışında, cəmiyyətə, insana, təbiətə münasibətində əxlaqın nə dərəcədən mühüm olduğunu sübut etmişdir. Onun mülahizələrində əxlaqi keyfiyyətlər təhlil edilərkən "əxlaqlı", "əxlaqsız", "etikalı", "mədəni-əxlaqi" kimi anlayışlardan istifadə olunurdu. Məlum həqiqətdir ki, baza olaraq isə əxlaq tərbiyəsi etikaya istinad edir. Təlim və tərbiyə şəxsiyyətin ahəngdar inkişafına, onun bütövləşməsinə ən güclü təsir edən əsas amildir: "Əgər insan 3 cəhətdən tərbiyə edilərsə, həmin şəxs şəxsiyyətin bütövlüyünə nail ola bilər.

1. Mənəvi-ruhi tərbiyə
2. Əxlaqi və etik tərbiyə
3. Ağılın, iradə və xarakterin tərbiyəsi" (1, s. 52).

Azərbaycan pedaqoji fikir tarixində şəxsiyyətin mənəviyyatı dedikdə, insanlığın faydası üçün görülən işlər, ümumbəşəri mənəviyyat başa düşülür. Ulu öndərimiz Heydər Əliyev gənclərin mənəvi tərbiyəsi haqqında Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində belə demişdir: "Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir..., mənəvi tərbiyəni daima artırmaq lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir sey ola bilməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdırlar, bizim milli mənəvi dəyərlərimizi, keçmişimizi, dilimizi, dinimizi yaxşı bilməlidirlər. Bunları bilməyən gənc vətənpərvər ola bilməz" (2, s. 284).

Müasir təhsil sistemində insanın unikal dəyərlərə mənsubluğu, mənəviyyatlı bir şəxsiyyətə çevrilməsi önəmli faktor kimi nəzərə alınır. İndiki dövrdə digər ölkələrdə olduğu kimi, Azərbaycanda da təhsil sistemində islahatlar, yeniləşmələr aparılmış, gənc nəslin mənəvi-əxlaqiyönlü inkişafı üçün obyektiv, əlverişli şərait yaradılmışdır. Belə ki, xalqımızın sosial-iqtisadi səviyyəsi yüksəlmiş, təhsil sistemində milliləşmə prosesi getmişdir. Təhsildəki yüksəlişlərlə yanaşı, cəmiyyətdə şəxsiyyətə çevrilmək, təhsilin mənəvi keyfiyyətlərini dərk etmək, əxlaq və mənəviyyatımızın qarşısında duran tələbləri müntəzəm olaraq müəyyənləşdirmək gənc nəslin formalaşdırılması üçün əsas tələblərdən biridir. Bu prorses zamanı nəinki gənc nəslin əxlaqi-mənəvi təhsili və tərbiyəsi üçün şərait yaranır, həmçinin də xeyli mürəkkəb xarakter alır. Bununla yanaşı, hazırki dövr üçün mövcud olan təhsil sistemi praktik olaraq mənə-

viyyatdan, əxlaqi dəyərlərdən keçir. Əxlaqi-mənəvi böhran təkcə təhsil və tərbiyəni deyil, eyni zamanda siyasətdə, iqtisadiyyatda, sosial həyatda da mənfiliklərin yaranmasına səbəb olur. Buna görə də gənc nəslin əxlaqi-mənəvi tərbiyəsi müasir təhsil sisteminin əsas məqsədinə çevrilməkdədir. Mübağiləsiz demək olar ki, gənc nəslin əxlaqi-mənəvi təkamülündə və tərbiyəsində məktəbin üzərinə mühüm vəzifələr düşür. Deyilənlərdən də aydın olur ki, şagirdlərdə müasir dövrün tələblərinə uyğun olaraq əxlaqi-mənəvi keyfiyyətlərin inkişafı üçün cəmiyyətin məqsədyönlü və şüurlu fəallığı getdikcə gücləndirilməlidir.

İnsan ictimai varlıqdır, onun inkişafı da ictimai qaydalara əsasən müəyyən edilir. Təhsil prosesində əxlaqi-mənəvi keyfiyyətlərin aşılanması şagirdlərdə bir-birini anlama, davranış nəzakəti, yoldaşlarına hörmət, ləyaqətli olmaq kimi bir çox insani münasibətləri tərbiyə edir. Deməli, təhsil tərbiyəedici funksiya daşıyır. Uşaqların əxlaqi tərbiyəsinin təməli ailədən başlansa da, bu proses təhsil ocaqlarında — yəni məktəblərdə sistemli bir şəkil alır. İlkin mənəvi təsəvvür və anlayışlar, əxlaqi-etik kateqoriyalar – milli şüur, milli ləyaqət, milli psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailədə qayğı, məhəbbət, şərəf, qeyrət, namus kimi kateqoriyalar məhz kiçik məktəb dövründən formalaşmağa başlayır.

A.S.Makarenko valideynlərə müraciətlə yazırdı ki: "Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz, üçün tərbiyə etmirsiniz, sizin ailənizdə rəhbərliyiniz altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir" (3, s. 35).

Təhsil üçün əxlaqi-mənəvi baxımdan inkişaf etmiş şəxsiyyət yetişdirmək ali məqsəddir. Aparılan araşdırmalardan məlum olmuşdur ki, əxlaqi nöqsana səbəb onun mahiyyətinin düzgün anlaşılmamasından irəli gəlir. Şüurlu şəkildə dərk edilmiş mənəviyyat və əxlaqın normaları şagirdləri şüurlu sürətdə hərəkət etməyə sövq edir. Bu, bir daha onu təsdiqləyir ki, təhsil yalnız mahiyyət etibarilə elm, biliklərin mənimsədilməsi ilə bağlı funksiyanı öz üzərinə götürmür, o eyni zamanda əxlaq və mənəviyyata, geniş dünyagörüşə sahiblənmək üçün münbit zəmin yaradır.

**Məqalənin aktuallığı.** Müasir təhsilin əxlaqi-mənəvi istiqamətdə inkişaf etdirilməsi məsələlərinə aktual baxış bucağından yanaşılması hədəf seçilən əsas elmi məqsəd və niyyət kimi məqalədə əsas prioritet kimi müəyyənləşdirilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə şagirdlərin əxlaqi-mənəviyönlü təhsil və tərbiyə sisteminin formalaşdırılmasının pedaqoji-psixoloji əsasları yeni elmi münasibət müstəvisində təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Təhsilverənlər bu məqalə ilə təhsil prosesini əxlaqi-mənəvi cəhətdən zənginləşdirmək, tədris prosesinin keyfiyyətini yüksəltmək ilə bağlı əsas məlumatları və onun təcrübi-praktik tətbiqini həyata keçirə bilərlər.

**Ədəbiyyat**


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mürtəcim, 2010, 312 s.
2. Allahverdiyeva F.M., Tağıyeva S.S., Pedaqogika (dərs vəsaiti). Bakı: Elm və təhsil, 2018, 407 s.
3. Əkbərov N. Məktəbdə əxlaq və davranış qaydaları. Bakı, Bərəkət, 2009, 78 s.
4. N.Tusi. Əxlaqi-Nasiri. Bakı, Elm, 1989, 136 s.
5. Гуейнов А.А. Проблема происхождения нравственности. // Философские науки, Москва, 1964, № 3.

**С.Ф. Рзаева**

**Педагогические основы духовна-духовного воспитания и системы воспитания**

**Резюме**

В современное время большое значение имеет нравственно-духовное развитие подрастающего поколения, подрастающего в учебно-воспитательных центрах, и исследование путей решения проблем, которые могут возникнуть в ходе этого процесса. Сегодня самой большой и современной проблемой в системе образования и воспитания является воспитание людей, понимающих морально-духовные качества и нашу национальность. Для этого должно быть нравственное единство, нравственная культура и нравственное воспитание. Полезность нравственно-духовных ценностей в формировании у студентов поведенческих привычек, отвечающих современным требованиям, очень велика.

**S.F. Rzayeva**

**Pedagogical basis of educational system with moral and spiritual education**

**Summary**

In modern times, the moral-spiritual development of the young generation growing up in education and training centers and the investigation of ways to solve the problems that may arise during this process are of great importance. Today, the biggest and most modern problem in the education and training system is to educate people who can understand moral and spiritual qualities and our nationality. For this, there must be moral unity, moral culture and moral education. The usefulness of moral and spiritual values in the formation of behavioral habits that can meet modern requirements in students is very great.

**Redaksiyaya daxil olub:** 12.05.2023

## Şəxsiyyətin formalaşmasında ailə əsas təsiredici amil kimi

**Xanım Xaqani qızı Məmmədzadə**
*ADPU-nun magistrantı*
**E-mail:** *xanim_memmedzade@bk.ru*

**Rəyçilər:** psixol.ü.f.d., dos. L.M. Qurbanova,
psixol.ü.f.d., dos. M.S. Əliyev

**Açar sözlər:** ailə, şəxsiyyət, ətraf mühit, davranış
**Ключевые слова:** семья, личность, среда, поведение
**Key words:** family, personality, environment, behavior

Şəxsiyyət sözünün müxtəlif mənaları mövcuddur, lakin sözün tərifi din, iman və ümumiyyətlə, düşüncə baxımından insanın mənəvi və fiziki uyğunluğunu ifadə edir. Şəxsiyyət haqqında verilən bəzi təriflər aşağıdakılardır: şəxsiyyət anlayışı obyektiv və subyektiv cəhətləri ilə insanı digərlərindən fərqləndirən bütün hiss, düşüncə, münasibət və davranış xüsusiyyətlərini bildirir. Şəxsiyyət fərdin ətraf mühitlə daimi qarşılıqlı əlaqəsi və harmoniya səyi nəticəsində formalaşır. Uşaq çalışdığı və istifadə etdiyi davranışları təkrarlayaraq öz harmoniyasını qoruyur. Şəxsiyyət fərdin fiziki, əqli, emosional və sosial xüsusiyyətlərinin məcmusudur. Bu qədər tərifdən sonra şəxsiyyəti belə təsəvvür etmək olar: insanın özünü ruhi, fiziki, cismani cəhətdən tanıması və ona aid edilən münasibətləri və vəzifələrini bu anlayışlara uyğun şəkildə yerinə yetirməsi. Bir sözlə, mənlik və mühitlə uyğunluq, fikir və davranışlarda davamlılıqdır.

*Şəxsiyyətin formalaşmasına təsir edən amillər.*

Şəxsiyyətin inkişafına təsir edən amillərlə bağlı fikir ayrılıqları olsa da, nəzəriyyələrdə vurğulanan bu amilləri müəyyən başlıqlar altında qruplaşdırmaq olar. Şəxsiyyətə təsir edən amillər aşağıdakılardır.

- *Bioloji amillər*

1. *İrsi faktorlar - Şəxsiyyətin inkişafında irsi amil*

Şəxsiyyətin inkişafında irsi amillərin rolu kifayət qədər mürəkkəbdir. Bəzi irsi xüsusiyyətlər şəxsiyyətin formalaşmasında təsirli olur. Saç, göz və dəri rəngi kimi xüsusiyyətlər mirasla birbaşa əlaqəli ola bilər. Bundan başqa, irsi xəstəlik və ya əlillik həmin şəxsdə müəyyən şəxsiyyət quruluşuna səbəb ola bilər. Tədqiqatlar göstərdi ki, böyümə və fiziki inkişaf sürəti müəyyən inkişaf dövrlərində şəxsiyyətə təsir göstərir. Bu xüsusiyyətlər yeniyetməlik dövründə əhəmiyyət qazanır (3, səh.17). Fiziki görünüş, yaraşıqlılıq, gözəllik, eybəcərlik kimi narahatlıqlardan yaranan hallar, insan yetkinləşdikdə və ya şəxsiyyətin formalaşmasında uzunmüddətli rol oynadıqda silinə bilər.

Göründüyü kimi, irsi amillər şəxsiyyətin inkişafına çox mürəkkəb təsir göstərsə də, şəxsiyyət xüsusiyyətlərini təkcə irsi faktorlarla bağlı izah etmək olmaz. Əhəmiyyətli olan bioloji-irsi faktorlarla ətraf mühit faktorlarının qarşılıqlı təsiri nəticəsində şəxsiyyətin necə formalaşdığını araşdırmaqdır (2, səh.96).

- *Fiziki quruluş*

Bəzi şəxsiyyət nəzəriyyəçiləri, cinsiyyət, yaş, inkişaf sürəti, inkişaf dövrü və fiziki quruluşla şəxsiyyət arasında əlaqə olduğunu təyin etmişlər. Şəxsiyyətin strukturları və davranış cəhətləri (gözəl və ya çirkin, sağlam və ya şikəst olmaq) şəxsiyyət xüsusiyyətlərinə təsir etdiyini, gender rolunun da davranışlarına görə şəxsiyyətə təsir etdiyini vurğulayırlar.

Fiziki xüsusiyyətlərin bu və ya digər şəxsiyyət tipini inkişaf etdirdiyini iddia etmək yanlış olsa da, fiziki xüsusiyyətlərin hər birinin şəxsiyyətə təsir etdiyini inkar etmək mümkün deyil.

Əslində sağlam və güclü uşaqla letargik və ya xəstə uşaq bir-birindən fərqlidir. Eynilə, gözəl uşaqlar ətrafdakılar tərəfindən iltifat edilərək ərköyünləşdirilərkən, çirkin uşaqlar da diqqət-dən kənarda qala bilər. Bu, uşağın bəzi fiziki xüsusiyyətlərinin onun ətrafında gördüyü dav-ranışlara çox təsir etdiyini göstərir.

2. *Ətraf mühit faktorları*

Məlumdur ki, körpəlikdən başlayaraq şəxsiyyətin inkişafına ətraf mühitin təsiri körpənin doğulması ilə təsirini xeyli artırır. Bu mühiti ailə və mədəni mühit kimi təxminən iki başlıq altında qruplaşdırmaq olar: (4, s. 119).

*a. Ailə amili*

Yeni doğulan körpənin ilk mühitinin valideyn və qardaşların olduğu ailə mühiti olduğunu iddia edən tədqiqatçılarla yanaşı, ilk mühitin ana bətni olduğunu iddia edən tədqiqatçılar da var. Məlum olduğu kimi, şəxsiyyətin formalaşmasında və inkişafında ailə mühiti, onun ailə üzvləri ilə münasibətləri və ailə tərbiyəsi ən mühüm faktor kimi şəxsiyyətlə bağlı nəzəri tədqiqatlar aparan müəlliflər eyni fikirdədir. Fərqli rakurslardan eyni nəticəyə gələn bu nəzəriyyələr tədqiq edildikdə, onların bir-birindən əsas olaraq aşağıdakı məqamda fərqləndiyi görünür. Buna uyğun olaraq, bəzi nəzəriyyələr ailə mühiti kimi digər ətraf mühit faktorlarının irsi qayıdışları rədd etmədən şəxsiyyəti formalaşdırdığını iddia edərkən, digər nəzəriyyələr şəxsiyyətin inkişafında irsi xüsusiyyətlərə üstünlük verməklə ailə təsirlərini qəbul edir və ya şəxsiyyətin formalaş-masında irsiyyət faktorunu tamamilə rədd edir və eyni mühakimə ilə qarşılanır.

*b. Şəxsiyyətin formalaşmasında ailə mühiti.*

Şəxsiyyətin formalaşmasına insanın yetişdiyi ailə mühiti böyük təsir göstərir. Xüsusilə uşaqlıq dövründə şəxsiyyətin inkişafına əsas və ən mühüm təsir göstərən amil ailədir. Və son-ra bu vəzifəni ətraf mühit və sosiallaşma prosesi öz üzərinə götürür. Fərdlərin ilkin inkişaf dövründə şəxsiyyətin formalaşma mərhələsində ana və ata mühüm rol oynayır. Uşağın doğu-lub böyüdüyü ailə mühitinin, xüsusilə şəxsiyyətin formalaşmasının ilk mərhələsində bütün as-pektlərdən mühüm rol oynadığı və bu təsirin yetkinlik dövründə fərdin davranışlarını forma-laşdıran şəxsi xüsusiyyətlərində özünü büruzə verdiyi vurğulanır. Uşağın inkişafında ailənin ən təsirli dəstəkləri aşağıdakılardır:

- ✓ uşağın sosiallaşmasını öyrənməsi üçün qəbul edilmiş və uyğun davranış modellərini ehtiva edən model formalaşdırır,
- ✓ cəmiyyət tərəfindən qəbul edilmiş davranış nümunələrinin inkişafına yol göstərir,
- ✓ uşağın maraq və istedadlarına uyğun olan istəklərin inkişafına kömək edir.

Şəxsiyyətin formalaşmasında ailənin rolunu araşdıraraq, aşağıdakı nəticələrə gəlmək mümkündür:

- ✓ şəxsiyyətin anadangəlmə bioloji və fiziki xüsusiyyətləri şəxsiyyətin formalaşması za-manı nəzərə alınmalıdır;
- ✓ fərd ailə tərəfindən qiymətləndirilməli və şəxsiyyət xüsusiyyətlərini inkişaf etdirəcək tamamilə konstruktiv davranışlarla əhatə olunmalıdır. Ətrafdakı hər şeyi həqiqət kimi qəbul etdiyi dövrlərdə fərd ailənin mənfi davranışlarını müsbət kimi qəbul edəcək və bu onun şəx-siyyətində iz buraxacaq.

**Məqalənin aktuallığı.** Şəxsiyyətin formalaşmasına ilk növbədə genetik amillər, ailə, sonra isə müvafiq olaraq məktəb, ətraf mühit, təlim-tərbiyə və digər faktorlar təsir etdiyi ha- mımıza məlumdur. Məqalənin də aktuallığı onun məhz bu kimi vacib bir mövzuya həsr edil- məsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə şəxsiyyətin psixoloji mahiyyəti, şəxsiyyətin formalaşmasına təsir edən amillər, bu amillər içərisində ailənin əsas rola malik olması elmi əsaslarla təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəb-lərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Abbasov A.N. Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi: Ped.elm.dok. ..dis., Bakı, 1995.
2. Ailə tərbiyəsi: yaranması və inkişaf mərhələləri, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan, Qeyrət, 2016, № 6, s. 103-105.
3. Qaralov Z.İ. Tərbiyə: prinsiplər, məzmun, metodika. I cild. Bakı, Pedaqogika, 2003.
4. Выготский Л. С. Педагогическая психология. Москва, Педагогика, 1991.
5. Блонский П.П. Психология как наука о поведении. Москва, 1924.

**X.X. Мамедзаде**

**Семья как главный фактор формирования личности**

**Резюме**

Известно, что существуют некоторые факторы, влияющие на формирование личности. Человек несет некоторые генетические черты задолго до рождения. Эти характеристики включают в себя отношение родителей после рождения, воспитание (семейное окружение), школу и окружение. В результате формируются основы личности человека. Отмечено, что на формирование личности влияют сначала генетические факторы, семья, а затем, соответственно, школа, окружающая среда и другие факторы. В статье «Семья как основной фактор, влияющий на формирование личности» на научной основе анализируются психологическая природа личности, факторы, влияющие на формирование личности, и главная роль семьи среди этих факторов.

**X.X. Mammedzade**

**Family as the main influencing factor in personality formation**

**Summary**

It is known that there are some factors that influence the formation of personality. An individual carries some genetic traits long before birth. These characteristics include the attitude of the parents after birth, upbringing (family environment), school and environment. As a result, the foundations of an individual's personality are formed. It is noted that the formation of personality is influenced first by genetic factors, family, and then, respectively, school, environment and other factors. The article "Family as the main factor in the formation of personality" analyzes the psychological nature of the personality, the factors influencing the formation of personality and the role of the family in these factors on a scientific basis.

**Redaksiyaya daxil olub:** 22.05.2023

**Müasir müəllim və onun müasir təhsildə yeri**

**Lalə Asif qızı Nəcəfova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**E-mail:** necefovalale37@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. H.B. Bayramov,
psix.ü.f.d., dos.U.M. Qəzvini

**Açar sözlər:** təhsil, müəllim, şagird, öyrənmə, öyrətmə, interaktiv təlim, təlim üsulları, ənənəvi dərs, müasir dərs

**Ключевые слова:** образование, учитель, ученик, обучение, обучение, интерактивное обучение, методы обучения, традиционный урок, современный урок

**Key words:** education, teacher, student, learning, teaching, interactive learning, teaching methods, traditional lesson, modern lesson

İnsanın şəxsiyyət kimi formalaşmasında və inkişafında müəllimin rolu danılmazdır. Bütün dövrlərdə müəllim peşəsinin əhəmiyyəti böyükdür. Makedoniyalı İsgəndər müəllimi Aristotel haqqında demişdir: “Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı” (5, s. 4). Müqəddəs “Qurani-Kərim” biliyə yiyələnməyin ilk rolunu oxuyub yazmaqda, öyrənməkdə görürdü. Məhəmməd peyğəmbər (s.ə.s) buyururdu ki, elm çöldə dostumuz, tənhalıqda munisimiz, köməksizlikdə yoldaşımız, xoşbəxtlik yolunu göstərənimiz, düşmənlər arasında silahımızdır. “Hazırda təhsil sistemimizin bütün sahə və istiqamətlərində ardıcıl olaraq islahatyönümlü tədbirlər həyata keçirilir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” çərçivəsində zamanın tələbi olaraq aparılan bu işlərdə məqsəd təhsilin dayanıqlı inkişafını təmin etmək, keyfiyyətini daha da yüksəltməkdir. Təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edən ən mühüm amillərdən biri isə tədrisin səmərəli təşkilidir. Burada əsas məqamlardan biri də müəllimin tədris prosesinə yanaşmasıdır. Tədris prosesinə iki əsas istiqamətdə yanaşma vardır və bunlar aşağıdakılardır:

1. Müəllim mərkəzli (müəllimə yönəlmiş)
2. Şagird mərkəzli (şagirdə yönəlmiş)” (1, s. 85).

Qeyd etdiyimiz hər iki növün müsbət və mənfi tərəfləri vardır. Müəllimə yönəlmiş təlim prosesində şagird passivdir. Müəllim şagirdə informasiyanı passiv şəkildə ötürür, başqa sözlə desək, dərs daha çox məruzə şəklində keçir. Burda dahi rus yazıçısı Lev Tolstoyun bir fikrini xatırlatmaq istəyirəm. O yazırdı: “Əgər müəllim yalnız işi sevirsə, o, yaxşı müəllim olacaq. Əgər müəllim peşəsinə və şagirdə olan məhəbbətini özündə birləşdirirsə, o, kamil müəllimdir” (5, s. 1).

Şagirdə yönəlmiş təlim prosesində məktəbli artıq passiv dinləyici rolundan çıxıb, təlimin fəal iştirakçısına çevrilir. Burada əsas məqsəd şagirdə hazır materialı verməkdən yox, öyrənməyin yollarını öyrətməkdən ibarətdir. Təcrübəyə əsaslanaraq deyə bilərik ki, bu gün şagirdləri “nə” deyil, “necə” sualı daha çox maraqlandırır. Şagirdlər daha çox “necə” sualı ilə düşündükdə onların fikirləri qol-budaq açaraq və pərvazlanır.

Müasir təhsildə öyrətmə üsulları son illər əhəmiyyətli dərəcədə dəyişmişdir. Şagirdlərdən artıq parta arxasında səssiz qeydlər aparmaq deyil, dərsə aktiv şəkildə cəlb olunmaq, eyni zamanda fikir mübadiləsində fəal iştirak etmək gözlənilir. Ənənəvi sinifdə öyrənmə əzbərçilik və əzbərdən danışma ilə həyata keçirilirdisə, artıq müasir təlimdə öyrənmə interaktiv üsullarla həyata keçirilir. İnteraktiv təlim dedikdə nə nəzərdə tutulur? İnteraktiv sözünün mənası “qarşılıqlı əlaqə, fəaliyyət üzərində qurulan” deməkdir. Bu təlim zamanı şagirdlər informasiyanı passiv şəkildə qəbul etməkdən çıxır, ona verilən informasiyanı aktiv şəkildə analiz, tətbiq

edən, qiymətləndirən tərəfə çevrilirlər. Burada informasiya mənbəyi təkcə müəllim deyil, eyni zamanda şagirdlərin özləri də ola bilər. İnteraktiv təlim şagirdlərin həm problemi həlletmə, həm də tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Müasir müəllim şagirdləri hər zaman təlimə necə cəlb edəcəyini yaxşı bilir. Bunun üçün isə müxtəlif interaktiv üsullardan istifadə edir. Həmin üsullara aşağıdakıları aid edə bilərik. Beyin həmləsi, BİBÖ, Klaster, Frayer modeli, Qərarlar ağacı, Eyler-Venn diaqramı, Mozaika, Sinkveyn, 3-2-1 üsulu mütəxəssislərin qənaətinə görə, "Bu üsulun içərisindən birini nümunə göstrəmək istəyirəm. Sinkveyn "beşlik" deməkdir. Bu üsulun üstünlüyü ondan ibarətdir ki, az sözlə əsas fikri ifadə edə bilmək bacarığını formalaşdırmağa kömək edir. Bəs bu üsulu necə tətbiq etməliyik? Hər hansı bir mətnin sonunda mətinin ideyasını bir neçə sözlə qısa şəkildə ifadə etmək tapşırılır. Əvvəlcə mətnin məzmunu ilə bağlı isim, sonra həmin ismi təyin edən sifət, daha sonra isə ismə uyğun üç feil və mətnin ideyasını dörd sözdən ibarət birləşmə ilə ifadə etmək tapşırılır. Sonda isə mətnin əsas fikrini yenidən bir isimlə ifadə etmək tələb olunur. Bəs, bu şagirddə hansı bacarıqları formalaşdırır.

1) ümumiləşdirmə
2) fikrin dəqiq ifadəsi
3) nəticə çıxarma
4) oxuyub anlama" (1, s. 103).

Müasir müəllim yeni təlim texnologiyalarına dərindən bələd olmalıdır: ənənəvi dərsdə təlim müəllim-dərslik-şagird paradinamikası ilə qurulurdusa, müasir dərsdə şagird-dərslik-müəllim paradinamikası üstünlük təşkil edir və şagirdlərin hərtərəfli inkişafı təmin edilir; müasir dərsdə gözlənilən nəticə, əsasən alınır; müasir dərs şəxsiyyətyönlü olur; müasir dərsdə inkişafetdiricilik əsas meyar kimi nəzərdə tutulur.

Ulu öndərimizin belə bir sözü var "Bu dünyada müəllim adından yüksək, şərəfli bir ad tanımıram".

Müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, mənəviyyatca pak, ideyaca saf, müəllimlik adını müqəddəs tutan, sənətinə ürəkdən bağlı olmalıdır. Məhz bu keyfiyyətlərə malik müəllim cəmiyyətimizə, xalqımıza layiq vətəndaş yetişdirə bilər. Öz peşəkarlığı ilə seçilən müəllim dəyişən və inkişaf edən cəmiyyətin tələbləri ilə ayaqlaşmağı bacarmalıdır. Müasir müəllim bütün yeniliklərdən xəbərdar olmalıdır. Düşünürəm ki, bütün bu qeyd etdiyimiz keyfiyyətləri özündə birləşdirən müəllim zamanın tələblərinə cavab vermiş olur. İnsanların fikir və düşüncələrinin, həyata baxışlarının formalaşmasında, dəyişməsində müəllim müstəsna rol oynamaqla bütün cəmiyyətin şüurunda dəyişiklik yaratmaq gücünə malikdir. Dünyanı dəyişən, idarə edən, tarixi yaradan dahi şəxsiyyətləri də müəllim yetişdirib. Bu, doğrudur ki, "Müasir informasiya cəmiyyəti şəraitində müəllimi xarakterizə edən əsas keyfiyyətlərdən biri də, şübhəsiz ki, İKT-nin tətbiqi ilə bağlı bacarıqlardır. Bəs, bu sahədə vəziyyət necədir və necə olmalıdır? Hazırda ölkəmizdə təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli addımlar atılır. Elektron məktəblər yaranır, elektron tədris resursları hazırlanır və müəllimlərin istifadəsinə verilir, təhsil müəssisələri geniş zolaqlı sürətli internet şəbəkəsinə qoşulur, İKT tədris prosesinin ayrılmaz tərkib hissəsinə çevrilir və keyfiyyətli tədrisə zəmin yaradır" (3, s. 7).

"Qeyd edim ki, beynəlxalq təşkilatların da imkanlarından istifadə etməklə indiyədək 40 mindən çox müəllim İKT üzrə treninqlərə cəlb olunmuş və müəyyən bacarıqlar əldə etmişlər. Lakin ümumilikdə ölkənin ümumtəhsil məktəblərində çalışan bütün müəllim heyətinin İKT bacarıqlarına yiyələnməsi ciddi bir problem kimi qarşıda dayanmışdır. Bu gün müəllimlərin İKT-dən istifadə səviyyəsi, əlbəttə, bizi qane edə bilməz. Elə etməliyik ki, hər bir müəllim İKT-dən tədris prosesində səmərəli istifadə etsin, tədrisin keyfiyyətini yüksəltsin. Axı müasir dünyada "savadlılıq" anlayışı həm də İKT sahəsində bacarıqları özündə ehtiva edir" (3, s.7).

**Məqalənin aktuallığı.** Məqalə müasir müəllimin təhsildə istifadə etdiyi öyrətmə üsulları və İKT-nin tətbiqi ilə bağlı bacarıqların təhlili baxımından aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalə müasir müəllim və onun müasir təhsildə yeri məsələlərinə həsr olunub.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müəllimin tədris prosesində rolu, yeni təlim texnologiyalarının mənimsədilməsində aparıcı sima kimi iştirakı məsələlərinin pedaqoji aspektdən dəyərləndirilməsi baxımdan məqalə praktik əhəmiyyət daşıyır. Ondan gənc tədqiqatçılar, magistrlər yararlana bilərlər.

### Ədəbiyyat

1. Həsənov İ., Rüstəmova A., Babayeva N. Kurikulum. Bakı, Mücrü nəşriyyatı, 2022. 224 s.
2. “Azərbaycan müəllimi” qəzeti, 2009, 4 dekabr.
3. Qarayeva S. Cəmiyyətdə müəllimin rolu və mövqeyi. “525-ci qəzet”, 2012, 14 oktyabr.
4. Dəmirova Z.V., Dəmirov A.H., Tağıyeva S.Ş. Kurikulumun əsasları. Bakı: 2017, 199 s.
5. https://tehsil-press.az/index.php?newsid=9070

**Л.А. Наджафова**

### Современный учитель и его место в современном образовании

### Резюме

Chan, Chen və Lou Bədən-Zehin-Ruh Gücləndirmə nəzəriyyəsini təməl alaraq formalaşdırdıqları beş həftəlik qrup terapiyasından sonra çinli boşanmış qadınların müşahidə edilən stress səviyyələrinə olan təsirini araşdırmışlar. Bu nəzəriyyənin təməli, fərdlərin fiziki, emosional, sosial və ruhi rifahının bədən ilə ayrılmaz bir parça halında olmasıdır. Burada bədən zehnin aydınlanmasının kökü olaraq mühüm rol oynayır və zehin, düşüncə, emosiyalar, dəyərlər, davranış və "mən"liyin fərqli tərəflərini əks etdirir. Bu fərziyyəyə əsaslanaraq, boşanmış qadınların öz "balansını" tənzimləməyə, yenidən əvvəlki daxili sabitliyini qazanmağa, rahatlıq hissini formalaşdırmağa və onları özlərini sosial mühitdə daha yaxşı qorunmağı bacarmaq üçün fəallaşdırmağı qarşıya məqsəd qoyur. Boşanmış qadınlarda yaranan stressi idarə etmək müddətində bu müdaxilə proqramının əsas açar nöqtəsi isə yaşanan "mənəvi ağrı ilə böyümək"dir. Tədqiqatın nəticəsində boşanmış qadınlarda stress səviyyələri və emosiyalarında müsbət istiqamətə doğru əhəmiyyətli dəyişikliklər müşahidə olunduğu məlum olmuşdur. Və bununla da tədqiqatçılar tərəfindən bu üsulun boşanmış qadınlarda stress səviyyəsinin idarə edilməsində effektiv üsul olduğu fikri iddia edilmişdir (3, s. 558-569).

**Məqalənin aktuallığı.** Boşanma prosesinin qadınlarda müxtəlif çətinlik yaratdığını və onların psixoloji sağlamlığına təsir etdiyini nəzərə alaraq stressin idarə edilməsi məsələsinin vacibliyi həmişə aktual olaraq qalır.

**Məqalənin elmi yeniliyi.** Bu məqalədə boşanma prosesinin qadınlarda yaratdığı stress və bu stressin idarə edilməsinə istiqamətlənmiş müxtəlif psixoloji üsul və vasitələrin tətbiqi və effektivliyindən ətraflı şəkildə bəhs edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə olunan nəticələr boşanma müəssisələrində, cəmiyyətlə əlaqəli müxtəlif maarifləndirici təlim və seminarların təşkili zamanı istifadə edilə bilər. Ondan ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrlar üçün mənbə kimi istifadə olunması mümkündür.

## Ədəbiyyat


1. Assadi, S. M., Nakhaei, M. R., Najafi, F., & Fazel, S. (2007). Mental health in three generations of Iranian medical students and doctors: a cross-sectional study. *Social psychiatry and psychiatric epidemiology*, *42*, 57-60.
2. BALALI, T., ETEMADI, O., & FATEHIZADEH, M. (2011). The study of relationship between psychological factors and demographic characteristics predicting post divorce adjustment among divorced women in Isfahan.
3. Chan, C. L., Chan, Y., & Lou, V. W. (2002). Evaluating an empowerment group for divorced Chinese women in Hong Kong. *Research on Social Work Practice*, *12*(4), 558-569.
4. Garnefski, N., Kraaij, V., & Spinhoven, P. (2001). Negative life events, cognitive emotion regulation and emotional problems. *Personality and Individual differences*, *30*(8), 1311-1327.
5. Garrido-Rojas L, Guzman-Gonzalez M, Mendoza-Llanos R, Rvera-Ottenberger D, Contreras-Garay P. Ayrılmış və boşanmış Çilili yetkinlərin nümunəsində emosional tənzimləmə və depressiya .*Mövcud Psixologiya jurnalı*, 2019.
6. Glaser, R. D., & Borduin, C. M. (1986). Models of divorce therapy: An overview. *American journal of psychotherapy*, *40*(2), 233-242.
7. Graff, R. W., Whitehead, G. I., & LeCompte, M. (1986). Group treatment with divorced women using cognitive-behavioral and supportive-insight methods. *Journal of Counseling Psychology*, *33*(3), 276.
8. Granvold, D. K., & Welch, G. J. (1979). Structured, short-term group treatment of postdivorce adjustment. *International Journal of Group Psychotherapy*, *29*(3), 347-358.
9. Kang, Y. S., Choi, S. Y., & Ryu, E. (2009). The effectiveness of a stress coping program based on mindfulness meditation on the stress, anxiety, and depression experienced by nursing students in Korea. *Nurse education today*, *29*(5), 538-543.
10. Kaviani, H., Pournaseh, M., Sayadlou, S., & Mohammadi, M. R. (2007). Effectiveness of stress management training in reducing anxiety and depression, participants in class exam. *New Journal of Cognitive Sciences*, *8*(2), 61-8.
11. Oğurtan, S. G. (2011). *Boşandım diyemedim: Boşanmanın aile ve toplum üzerine etkileri*. Çizgi Kitabevi.
12. Shimkowski JR, Ledbetter AM. Parents (2018) disclosures of divorce. *Family Communication Journal*, (3), 185.
13. Thiessen, J. D., Avery, A. W., & Joanning, H. H. (1981). Facilitating postdivorce adjustment among women: A communication skills training approach. *Journal of Divorce*, *4*(2), 35-44.
14. UYAR, N. (2022). Kadınların Boşanma Sonrası Yaşama Uyumu: Bilişsel Davranışçı Kurama Dayalı Psiko-eğitim Programının Etkililiği.

**К.Г.Казымова, Дж.Р.Калантарли**

**Эффективные способы и средства управления стрессом у разведенных женщин**

**Резюме**

В этой статье упоминается психологический стресс, вызванный бракоразводным процессом у женщин, и важность психологических вмешательств для управления этим стрессом. Статистические исследования показывают, что развод сегодня является одной из важнейших социальных проблем. В наше время увеличивается количество разводов, и параллельно с увеличением числа разводов возрастает и потребность женщин в создании порядка в своей жизни после развода. Таким образом, бракоразводный процесс воздействует на женщину в различных социальных, психологических и др. создает проблемы. После развода женщины испытывают больше стресса, который сильно влияет на их образ жизни и средства к существованию. Принимая во внимание все эти причины, основная цель способов и средств управления стрессом у разведенных женщин состоит в том, чтобы уменьшить негативное влияние, которое развод может оказать на женщину после развода. Для этой цели также можно использовать когнитивно-поведенческую терапию, терапию тяжелой утраты и терапию принятия и разрешения (АСТ).

**K.Q.Kazimova, J.R.Kalantarli**

**Effective ways and means of managing stress in divorced women**

**Summary**

In this article, the psychological stress caused by the divorce process in women and the importance of psychological interventions to manage this stress have been mentioned. Statistical studies show that divorce is one of the most important social problems today. Nowadays, the number of divorces is increasing, and in parallel with the increasing number of divorces, the need of women to create an order in their lives after divorce is also increasing. Thus, the divorce process affects women in various social, psychological, etc. creates problems. After divorce, women experience more stress, which has a profound effect on their lifestyle and livelihood. Keeping all these reasons in mind, the main goal of the ways and means to manage stress in divorced women is to reduce the negative impact that divorce can have on women after divorce. Cognitive-behavioral therapy, bereavement therapy, and acceptance and resolution (ACT) therapies can also be used for this purpose.

**Redaksiyaya daxil olub:** 08.05.2023

## Особенности психологического развития детей разного возраста и пола

**Гюльнара Садыг кызы Ризаева**
*старший преподаватель Азербайджанского Университета Языков,*
**E-mail:** grizaeva01@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. Ş.R. Babayeva

**Açar sözlər:** cinsi fərqlilik, erkən inkişaf, psixoloji inkişaf, tərbiyə, mənfi emosiyalar, komfortlu şərait, stress

**Ключевые слова:** половые различия, раннее созревание, психологическое развитие, воспитание, отрицательные эмоции, комфортные условия,стресс

**Key words:** Sex differences, early maturation, psychological development, upbringing, negative emotions, comfortable conditions, stress

Отличаются ли мальчики и девочки по психическому развитию друг от друга? Безусловно, да. Мальчики и девочки отличаются друг от друга на социологическом, психологическом и генетическом уровнях. Социально окружение и воспитание с каждым годом играет важную роль в жизни мальчика и девочки. Ребенок является неповторимой индивидуальностью. Все дети требуют к себе индивидуального подхода. Исходя из представлений пола и возраста, воспитание и обучение должно выстраиваться по-разному.

Взрослый, который помогает в воспитании и обучении ребенка, играет с этим ребенком, общается, даже не представляет, как служит одновременно развитию мозга ребенка. Не имея участия старших все, что заложено в ребенке до рождения могут и не раскрыться.

Существует различия в формировании мозга между мальчиками и девочками. Нужно отметить, что это в первую очередь половые различия. С самого рождения мозг у мальчиков и девочек работает неодинаково. Родители интуитивно чувствуют различия в психике малыша, еще с первых дней общаются по-разному с мальчиками и с девочками. Известно, что родители больше ругают и требуют мальчиков, нежели девочек. Здесь имеет место быть и тот факт, что мальчики более подвижны, чем девочки. У мальчиков более выражена активность (везде лезут, все ломают, портят). Психическая функция очередности и скорости созревания у мальчиков и девочек также различна. Давно известно, что у мальчиков медленно созревает левое полушарие, а у девочек правое. У девочек раньше происходит развитие речи. То есть они начинают говорить рано, нежели мальчики. Это показывает себя в дальнейшем на развитии наглядно образного мышления. Далее развитие у мальчиков и девочек также отличается. У девочек происходит опережение мышления: речевого, образного, пространственного, логического и интуитивного. Следовательно, нельзя одинаково относиться к развитию мальчиков и девочек. Левшей-мужчин больше, чем женщин.

Нужно отметить, что в ходе игры мальчики-дошкольники больше общаются со своими сверстниками, чем девочки. Девочки в этом возрасте предпочитают общаться и советоваться с мамой. Также известно, что девочки в этом возрасте вполне активно общаются как с мальчиками, так и с девочками. В этом возрасте для мальчиков имеет значение игры, в которых задействованы мальчики, нежели девочки. Но для девочек это не имеет значение. Они могут свободно играть как в девчачьи игры, так и в игры маль-

чиков. Для мальчиков, видимо, имеет значение маскулинная культура. Уже к 3 годам мы можем говорить о превосходстве особенностей психической деятельности мужского пола. Свое превосходство оно показывает к 5-11 годам. Ну а особенные всплески мы видим в 14, 17, 29, 41 год. По развитию речи мы можем отметить разницу между мальчиками и девочками. Это в основном артикуляция речи, декодирование речи, словарный запас, скорость чтения, понимание того, что было прочитано.

Опережение девочек и женщин видно и по возрастному диапазону. Опережение по развитию у девочек имеет начало с 6 месяцев и имеет продолжение в разные периоды (с 3 лет до 21 года) и завершается к 84 годам. Здесь происходит превосходство девочек во всех народах и культурах, среди обычных, ничем не одаренных людей. В чем причина речевых способностей девочек над мальчиками до сих пор неясна. Существует ряд гипотез. Одним из них является тот факт, что девочки раньше созревают. Но в этом случае, встает вопрос о том, что почему у женщин даже в 84 года речь не подвергается старческим изменениям? Здесь ответ может быть только один. У обоих полов функциональная асимметрия мозга различна. Также играет роль фактор гендерной социализации.

Что касается превосходства девочек над мальчиками сугубо в математическом аспекте, то здесь также есть различия. Девочки не уступают, а то и опережают мальчиков до определенного возраста в вопросах, связанных с нумерацией, элементарными математическими способностями. Но это продолжается недолго. Начиная с подросткового возраста, а именно с 12 лет до 21 года (более поздних исследований нет), происходит превосходство в математических науках мальчиков над девочками. Здесь мальчики показывают свои способности в рассуждениях, в вычислительных способностях, математических достижениях. Нужно отметить, что, понимая это, у девочек развивается боязнь математики. То есть у девочек появляется тревога перед математическими дисциплинами. У мальчиков все происходит наоборот. В 8-11 лет у них наблюдается превосходство в решении математических задач, развиваются зрительно-пространственные способности. Если говорить о превосходстве интеллекта мужчины над интеллектом женщины, то в возрасте 39-44 лет это наблюдается четко. Чаще интеллектуальное превосходство девушки над парнем, можем наблюдать начиная с 3 мес. до 20 лет. Это можно связать с опережающим развитием девочек, над мальчиками. Известно, что девочки до десяти лет успешно запоминают цифры и опережают мальчиков по речевым способностям. Но нужно отметить, что у них быстрее завершается развитие памяти. Также это связано с тем, что у мальчиков специализация полушарий мозга на пространственные временные ориентации имеются уже в шесть лет, а у девочек ее нет и в тринадцать. То есть тут можно сделать вывод о том, что в детстве мальчики более правополушарные, чем девочки, но с возрастом и развитием левого полушария, мальчики начинают лидировать в профессиях, где в основном требуется применение логики и они становятся более левополушарными, чем женщины.

Также влияние на психологическое развитие детей разного пола, оказывают культурные традиции общества. Если в обществе происходит социальная нестабильность, то от этого больше страдают мальчики. Так как они больше реагируют на отрицательные эмоции дома или в детском саду.

Дети, которые занимаются искусством, также отличаются друг от друга. У таких детей разные ассоциации. Особенно различия видны у мальчиков. То есть те мальчики, которые приобщены к искусству, у них отличается виденье мира, ассоциации, и это отражается в их речи. То есть у них преобладают в речи прилагательные в превосходной степени. Они учатся говорить и выражать свои мысли более культурно и украшают

свою речь, обогащают ее новыми словами, чем девочки.

С ранних лет мальчики и девочки по-разному реагируют на эмоции. Мальчики еще в новорожденном возрасте меньше спят, больше проявляют беспокойство, чем девочки. Когда возникает новая ситуация, они чаще, чем девочки пугаются и плачут. Следовательно, еще с ранних лет чувствуется разница между ними.

Мальчики больше исследователи, а девочки более коммуникабельны. И это проявляется в достаточно раннем возрасте. Чувство страха в раннем возрасте свойственно и мальчикам и девочкам. Это может быть встреча с незнакомыми людьми и ситуациями. Какие-то яркие игрушки, громкий звук, шум, голос – все это может напугать и мальчиков, и девочек.

В формировании психики важную роль играют эмоции. Но нужно отметить, что эмоции бывают положительные и отрицательные. Отрицательные эмоции играют отрицательную роль в развитии психики ребенка. Положительные эмоции являются стимулом развития мозга, служат для познания мира. Ребенок, подобно старшим, предпочитает избегать отрицательных эмоций, увеличивая положительные.

Особенность функционирования мозга обоих полов также отличаются. На это можно смотреть и как на мужское, и женское начало в мальчиках и девочках. Инновационными проектами являются мужчины, а за сохранность, стабильность в микро и макро - социуме отвечают женщины.

Нужно отметить, что агрессия и агрессивное настроение также отличается у мальчиков и у девочек. В подростковом возрасте мальчики становятся более грубыми и агрессивными, чем девочки. Девочки в этом возрасте более скрытны. Все это связано с тем, что психологическое и сексуальное развитие девочек опережает их на 2 года и продолжается дольше на два года ( у девочек 14 -18 лет ). Мальчики в этом возрасте более подвержены психическим нарушениям, чем девочки. Даже с учетом того, что они физически более сильные. У девочек в этом возрасте меньше встречается агрессивное поведение, чем у мальчиков. Проявление агрессии у обоих полов происходит по –разному. Подростки-мальчики, которым по 12-15 лет обладают большей агрессивностью. В этом возрасте у мальчиков преобладает физическая агрессия. У девочек этот тип агрессии преобладает с возрастом. Всплеск вербальной агрессии у мальчиков наблюдается к 15-18 годам. Негативизму больше склонны мальчики во всех возрастах. Здесь немалую роль также играет девиантное поведение, которое присуще подростковому возрасту. Здесь можно привести такие примеры как распитие алкогольных напитков, наркотики, курение, хулиганские поступки и т. д. Здесь также преобладание на стороне мальчиков. Самой типичной болезнью юношеского возраста является застенчивость. Застенчивость является неотъемлемой частью характера в 17-20 лет более 40%, а в 15-16 более 70% молодежи. Остро переносят это мальчики, так как они считают, что это не должно быть присуще мужчинам. Несмотря на внешнюю агрессию, среди своих одноклассников и сверстников, мальчики и девочки страдают пониженной самооценкой и самоуважением. Это чувство приводит к тому, что они в основном закрываются и замыкаются в себе. Предпочитают одиночество и не общаются с окружающими. Это приводит к усиленному внутреннему напряжению. Все это приводит к психической изоляции. Это является большой проблемой для родителей и воспитателей. Пониженное самоуважение не всегда является свидетельством неудовлетворенности собой и высокой самокритичностью. Необходимой предпосылкой целенаправленного самовоспитания в этом возрасте, является расхождение реального и идеального «я».

Таким образом, если даже рассмотреть развитие психики ребенка под одним углом зрения, можно прийти к такому выводу, что при воспитании и обучении нужно учитывать индивидуальные психологические особенности каждого ребенка.

Нужно учитывать то, что нормально психическое развитие детей обоих полов невозможно без участия взрослых. Соответственно для развития ребенка нужны и комфортные условия, и стресс. В зависимости от того, насколько длится этот стресс в жизни ребенка. Так как полностью избавить ребенка от стресса не получится. Мы знаем, что в жизни взрослого человека присутствуют и ровные, гармоничные дни, а также дни, когда человек вынужден перебороть различные психологические проблемы. Роль родителей заключается в том, чтобы подготовить и мальчиков, и девочек, к различным жизненным обстоятельствам. Так как, жизнь не может быть прожита без проблем и каких-либо потрясений. Сегодняшние проблемы, связанные с различными суицидами, наркоманией, алкоголизмом говорят о том, что люди не были психологически подготовлены к различным жизненным обстоятельствам. Все это начинается с семьи. В основном, различным стрессам подвержены мальчики. Они, больше девочек, страдают в этом плане. Они менее устойчивы к стрессу. На это особенно должны обращать внимание родители. Еще в раннем детстве, если родители не реагируют на плач ребенка, то это может привести к опыту беспомощности. Будучи уже школьниками,дети, если получают задания, с которыми они не справляются, то это может опять развивать в них чувство беспомощности.

В этом вопросе, а именно в познавательной сфере также между мальчиками и девочками существуют различия.

Таким образом, мальчики психологически и эмоционально отличаются от девочек. Все эти вопросы взрослые должны учитывать при воспитании детей. Получается, что, если мама ругает мальчика за какую-то оплошность, сама не понимает, что мальчик немного по-другому эмоционально реагирует на это. Ей кажется, что он остается безучастным. Мальчики и девочки являются представителями двух разных миров. Их воспитание и обучение также отличаются. Они психологически и эмоционально разные. Роль педагогов и воспитателей заключается в том, чтобы понять это и с пониманием относиться к каждому.

**Актуальность статьи** данной статьи заключается в донесении особенностей психологического развития детей разного возраста и пола. Данная проблема является актуальной в современном обществе. В статье дается изложение таких понятий как, формирование мозга мальчика и девочки, развитие речи, мышления.

**Научная новизна статьи.** Исследование включает в себя раскрытие ответов на поставленные вопросы. Рассматривается вопрос об особенностях проблемы детей разного возраста и пола, с точки зрения психолога.

**Практическое значение и применение статьи.** Заключается в создании единой модели воспитания отношения к девочкам и мальчикам. Данная статья может помочь всем государственным органам власти, образования, в работе с детьми. Общество должно быть готово помочь семьям в воспитании детей. Так как, дети, есть залог здоровья будущего поколения.

**Литература**

1. Адлер А. Воспитание детей. Взаимодействие полов, Ростов на Дону, Феникс, 1998. с. 448.
2. Амоношвили Ш. Искусство семейного воспитания, Издательство Амрита, 214 с. 336.
3. Антонов А. И. Социология семьи: Учебник. М., 2007. 640 с.
4. Бендас Г. В. Гендерная психология, СПб Питер, 2006, 431 с.

5. Болдырев Н. И. Нравственное воспитание школьников. М., 1979, 289 с.
6. Васильева Е. С. Принципы и методы семейного воспитания, Москва: 2007.
7. Ильин Е. П. Пол и гендер, СПб Питер, 2010, 688 с.
8. Санин М.Р., Брыксина З.Г. Анатомия и физиология детей и подростков. М., 2002, 456 с.

**G.S. Rizayeva**

**Uşaqların yaş və cinsi fərqliliyindən asılı olaraq psixoloji inkişafı**

**Xülasə**

Məqalədə oğlan və qızların psixoloji və fiziki inkişafindan bəhs edilir. Müəyyən yaş dövründə qızların həm emosional, həm də fiziki inkişafda oğlanlardan irəlidə olmaqları diqqət mərkəzində saxlanılır. Burda ailənin rolu xüsusilə vurğulanır. Uşaqları gələcək həyatlarında problemlərdən, stressdən sığortalamaq üçün valideynlərin qızların və oğlanların tərbiyəsində diqqət yetiriləcək əsas məqamlara fikir verməlöri tövsiyə edilir. Oğlan və qızlar yalnız psixoloji ve emosional deyil, həmçinin düşüncə baxımından da bir-birlərindən fərqlənirlər. Bu fərqlilik ona gətirib çıxarır ki, uşaqlar öz aralarında çox vaxt bir-birlərini başa düşmürlər. Ailə üzvləri, müəllimlər öz gündəlik həyatlarında, işlərində bu məqamlara fikir verməlidirlər.

**G.S. Rizayeva**

**Features of psychological development of children of different ages and sexes**

**Summary**

The article mainly talks about the psychological and physical development of boys and girls. The article discusses the fact that girls are both emotionally and physically ahead of boys at a certain age, and the role of the family is emphasized here, and the need for their vigilance is emphasized. In order to protect children from problems and stress in their future lives, parents are encouraged to give their opinion on the main issues to be considered in the upbringing of girls and boys. Boys and girls differ from each other not only psychologically and emotionally, but also mentally.This difference leads to the fact that children do not understand each other for a long time. Family members and professionals should reflect on these concepts in their daily life and work.

**Redaksiyaya daxil olub:** 31.05.2023

# NLP ilə tərbiyə prinsiplərinin əlaqəsinin psixoloji əsasları

**Elmir Arif oğlu İsgəndərov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*psixologiya üzrə fəlsəfə doktoru proqramı üzrə* doktorant
**E-mail:** isgenderlielmir@gmail.com

**Rəyçilər:** psixol.e.d., E.B. Bəylərov,
psixol.ü.f. dok. A.A. Hümbətova

**Açar sözlər:** NLP, tərbiyə, prinsiplər, davranışlar, ünsiyyət
**Ключевые слова:** НЛП, воспитание, принципы, поведение, общение
**Key words:** NLP, parenting, principles, behaviors, communication

*Tərbiyənin məzmunu, məqsədi, vəzifələri, prinsipləri, qanunauyğunluqları bəzi nüanslarına görə dəyişsə də, əsas etibarilə bütün dövrlər üçün oxşar əlamətləri daşımışdır. Ancaq eyni sözləri tərbiyənin üsul, forma və metodları ilə bağlı demək olmaz. Dövr dəyişdikcə, cəmiyyətdə müəyyən islahatlar getdikcə, xüsusilə informasiya texnologiyaları sürətlə inkişaf etdikcə tərbiyədə də metodları dəyişdirmək, yeni üsul və vasitələri tətbiq etmək zərurəti yaranır.*

*Müasir dövrdə öyrənmə əsaslı bu metodologiyalardan biri Neyro Linqvistik Proqramlaşdırmadır (qısa şəkildə NLP). NLP-nin bir neçə əsas prinsipi mövcuddur. Bu məqalədə NLP-nin bəzi prinsipləri ilə tərbiyə prinsipləri qarşılıqlı əlaqə zəminində araşdırılmışdır. Bu əlaqələr tərbiyəçi mövqeyində olan hər bir kəsə elmi, pedaqoji, psixoloji və metodik cəhətdən istiqamət verməkdə mühüm əhəmiyyətə malikdir.*

Tərbiyə psixologiyası müxtəlif yaş dövrlərində şəxsiyyətin formalaşmasının məqsədyönlüyünü və şəxsiyyətin inkişafına sosial amillərin təsir dərəcəsini öyrənir (1, s. 9). Neyro Linqvistik Proqramlaşdırma prinsiplərinin müvafiq üsul və vasitələrlə tərbiyə işinə tətbiqi uğurlu nəticələr verə bilər. Bu məqsədə xidmət edən əsas NLP prinsiplərindən bəzilərini nəzərdən keçirək:

**"Xəritə" "ərazi" deyil.** Hər insan dünyanı bilavasitə yox, öz baxış bucağı, başqa sözlə, öz "xəritəsi" ilə qavrayır. Hər bir kəsin bütün hadisələrə öz baxış bucağından yanaşdığını ifadə etmək məqsədilə ümumi semantikanın qurucularından biri A.Korzibski bu müfəssəl tərifi vermişdir: "Xəritə ərazi deyil".

Hər insanın dünya modeli ("xəritəsi") onun subyektiv gerçəkliyidir. Bu gerçəklik tam obyektiv olmayıb, hər bir insanın subyektiv imkanlarından asılı olaraq formalaşır. "Xəritə" – uşaqlıqdan etibarən inanc sistemi və dəyərlər, təhsil, şəxsi təcrübələr, çevrənin təsirləri, fərdi psixoloji xüsusiyyətlər, dünyagörüşü, vərdişlər və s. nəticəsində formalaşan modeldir. Bu da öz növbəsində insanın həyata, hadisələrə baxış bucağını, münasibətini və nəhayət, reaksiyasını formalaşdırır. Beləliklə, "xəritə" subyektiv təcrübə, yəni hadisəyə verilən məna, ərazi isə gerçəkliyin özüdür.

Tərbiyəçilər müxtəlif fərdi xüsusiyyətlərə, inkişaf səviyyəsinə malik olan insanlara məqsədyönlü tərbiyəvi təsir göstərirlər. Bu tərbiyəvi təsirlər, hər kəsə onun fərdi-psixoloji xüsusiyyətləri və inkişaf səviyyələri zəminində baş verir. Ona görə də eyni tərbiyəvi təsir eyni yaşlı uşaqlarda belə müxtəlif şəkildə təzahür edir (2, s. 51).

Tərbiyəçinin tərbiyə olunanların fərdi "xəritələrinə" bələd olması, ən azı bu xəritələrin müxtəlif olduğunu nəzərə alması tərbiyə prosesini daha səmərəli edir. Başqalarının "xəritələrinə" hörmətlə yanaşmaq, bu xəritələrin müxtəlif keyfiyyət xüsusiyyətlərini nəzərə almaq uğurlu ünsiyyət və səmərəli tərbiyə mühitini şərtləndirən əsas amillərdəndir. İnsanların əraziyə

(hadisənin özü) deyil, "xəritəyə" (subyektiv təcrübə) reaksiya verdiyini bilmək tərbiyə işində mühüm məsələlərdən biridir. Bir çox hallarda obyektiv gerçəkliyi dəyişməkdənsə, gerçəkliyə münasibəti dəyişmək daha səmərəli yoldur (3, s. 4).

NLP-nin bu prinsipinə görə öz xəritəsini genişləndirib zənginləşdirə bilənlər eyni gerçəklik çərçivəsində mövcud seçimlərdən daha çox faydalana və nəticə olaraq davranışlarında daha səmərəli və uğurlu ola bilərlər (4, s. 27).

Müxtəlif "xəritələr" arasında uğurla körpü qura bilmək sağlam ünsiyyəti şərtləndirər ki, bu da tərbiyə işini daha səmərəli edər.

**Hər təcrübənin bir strukturu vardır.** İnsanlar verdikləri qərarlarda, atdıqları addımlarda, düşüncələrində, davranışlarında, reaksiyalarında bilərək və ya bilməyərək keçmiş təcrübələrinə əsaslanırlar. Bir çox hallarda göstərilən tərbiyəvi təsir müvafiq yaş dövrü ilə uyğunluq təşkil etmir. Eyni zamanda bir çox hallarda insan davranışları avtomatik təzahür səciyyəsi daşıyır və şüuraltı hafizənin təsiri nəticəsində ortaya çıxır. Bununla belə, tərbiyə kortəbii bir proses deyildir. Bu prosesdə davranışların pərdə arxası strukturunu bilmək (NLP-də bu, dərin struktur adlanır) tərbiyə işinin düzgün təşkilinə zəmin yaradır (5). Hər kəsin həyat təcrübəsi eyni şəkildə formalaşmır. Şəxsiyyətin formalaşmasının inkişafına tərbiyəvi təsir etmək üçün bu formalaşmanın təbiətini bilmək vacibdir (6, s. 277).

Təəssüf ki, tərbiyə ilə bağlı mənbələrə nəzər saldıqda davranış amilinin əsas götürüldüyü, bir növ davranış tərbiyəsi yanaşmasının ön plana çıxdığı müşahidə olunur. Davranışa səbəb olan amillərə isə diqqət yetirilmir. Eyni zamanda davranışları müşayiət edən emosional faktorlar da diqqətdən kənarda qalır. Halbuki, məsələn, tərbiyənin özəyini təşkil edən çağalıq dövründə (0-1 yaş) əsas aparıcı fəaliyyət hissi-emosional ünsiyyətdir (7, s. 105).

Davranışı şərtləndirən amillərdən birinin duyğu olduğu, onun da öz növbəsində düşüncə vasitəsilə əmələ gəldiyi məlumdur (8, s. 26). Elə isə düşüncə prosesini, duyğuların təsirini nəzərə almadan davranışları korreksiya etməyə çalışmaq düzgün deyil. Davranışlar strukturun dayaz hissəsidir. Ancaq onu formalaşdıran strukturun dərin hissəsi vardır.

Proseslərin dərin strukturu təcrübələrlə formalaşır, möhkəmlənir, bu isə insanın daha sonrakı davranış və reaksiyalarını şərtləndirir. Bu strukturun fərqinə vararaq onda müəyyən dəyişikliklər aparmaq mümkündür. Bu da öz növbəsində düşüncələrin mənasını, buna bağlı olaraq duyğuları və nəticə etibarilə, davranışları da dəyişdirməyə imkan verir. Düşüncə stereotipindən azad olmaq, yenilikləri qəbul etmək, hadisəyə fərqli mövqedən yanaşmaq düşüncə strukturunu dəyişməyə zəmin yaradır. Tərbiyə olunanlarda bu xüsusiyyətləri formalaşdırmaq üçün tərbiyəçilər özlərində bu keyfiyyətləri inkişaf etdirməlidirlər.

**Bir insan bir qabiliyyətə yiyələnə bilirsə, prinsipcə, başqa insanlar da bu qabiliyyətə yiyələnə (öyrənə) bilər.**

Bu prinsipin əsasını o ideya təşkil edir ki, hər hansı bir sahədə uğurlu olan insanların inanc, düşüncə, duyğu sistemləri və bu sistemlərə bağlı olan davranışları modellənərsə, digər insanlar da eyni nəticəyə nail ola bilərlər.

Bu prinsip tərbiyə prosesində tərbiyə edilənlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq arzu olunan nəticənin hər kəs üçün əlçatan olduğunu deməyə əsas verir. Mənfi düşüncə stereotiplərindən, məhdudlaşdıran inanc sxemlərindən, avtomatik düşüncələrdən, qəlibləşmiş strukturlardan azad olan hər kəs həyatda istədiyi hər şeyə nail ola bilər. Burada zəruri olan, insanın öz potensial imkanlarının fərqində olması və məsuliyyəti öz üzərinə götürərək fəaliyyətə keçməsidir (9, s. 27).

**İnsan, əslində, ehtiyacı olan hər bir şeyi əldə etmək üçün potensial imkanlara malikdir.**

İnsanın bütün davranışları, bu davranışlara səbəb olan duyğu və düşüncələri əvvəlcə xəyal aləmində yaşanır. Başqa sözlə, insan xəyalının məzmununu, "gücünü" dəyişdirə bildiyi qədər

fərqli nəticələrə nail ola bilər. Bunu belə də ifadə edə bilərik. İnsan istədiklərinə nail olmaq üçün daxili imkanlarından səmərəli şəkildə istifadə etməyi bacarmalıdır. Yəni insan, əslində, haqqında inanıb xəyal qurduğu hər bir şeyi əldə etmək imkanına malikdir.

Şərq fəlsəfi fikrinin əsas mənbələrindən hesab edilən "Kəlilə və Dimnə" əsərində bu, aşağıdakı kimi ifadə olunmuşdur:

"Ali dərəcəyə çatmaq üçün mərd və iradəli adamların köməyə ehtiyacı yoxdur...

Hünər sahibi bilsə öz qüdrətin,
Göyə qaldırar hər işin hörmətin" (10, s. 81).

NLP-də insanın uğur qazanmaq üçün bu uğuru əvvəlcə xəyalında canlandırması, daha sonra bunu gerçəkləşdirmək üçün fəaliyyətə keçməsi tövsiyə olunur. Neyro-elm tədqiqatlarına əsaslanaraq qeyd edə bilərik ki, insan beyni gerçəklikdə və xəyalda yaşananları fərqləndirmir (11, s. 66). Bu amil canlı və davamlı xəyalı qurulan hər bir şeyin həyatda gerçəkləşməsinə əhəmiyyətli dərəcədə töhfə vermiş olur. Buna ən bariz misallardan biri kimi oyun fəaliyyətini göstərmək olar. "Uşaq oyunda böyüklərin əməyini yaradır, beləliklə də sanki onun iştirakçısı olur. Uşaq sevimli qəhrəmanını təsvir edərkən əvvəlcə onun xarici cəhətlərini, sonra isə əxlaqi keyfiyyətlərini təqlid edir. O, özünü sevimli obrazla birləşdirir, onun hissləri ilə yaşayır, xeyirxah hisslərin, səylərin onun şüurunda tez-tez təkrar edilməsi isə ona gətirib çıxarır ki, bu hisslər uşağın özündə inkişaf edir. Ona görə də oyunun məzmunu, ifa edilən rol şəxsiyyətin formalaşmasına böyük təsir göstərir" (12, s. 173-174).

Tərbiyə prosesinin səciyyəvi xüsusiyyətlərindən biri onun dəyişkən, qeyri-müəyyən, subyektiv amillərin təsirindən, tərbiyə olunanların fərdi fərqlərindən, onların sosial təcrübəsindən, tərbiyəyə münasibətindən asılı bir proses olmasıdır (13, s. 265). Bu baxımdan milli və ümumbəşəri dəyərlər istisna olmaqla, tərbiyə prosesində hər bir fərdin imkan və resurslarına uyğun spesifik məqsədlər müəyyənləşdirilə bilər. Tərbiyəçilər tərbiyə olunanların uğurlu bir şəxsiyyət kimi formalaşmaq üçün zəruri olan potensial imkanlara malik olduqlarına inanmalı və bu inamı onlara da mütəmadi olaraq təlqin etməlidirlər.

**Ünsiyyətin səmərəsi fikrin qarşı tərəfə doğru çatdırıldığı qədərdir. Ünsiyyətin keyfiyyəti isə qarşı tərəfin reaksiyası ilə şərtlənir.**

Məlumdur ki, şəxsiyyətlərarası münasibətlər ünsiyyət prosesində təzahür edir. Şübhəsiz ki, tərbiyə prosesinin də əsas təsir vasitəsi ünsiyyətdir. "Ünsiyyət, insanların öz münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsiri kimi başa düşülür" (14, s. 116).

NLP ünsiyyətin uğurunu başlanğıc hissəsində yox, nəticədə axtarır (15, s. 31). NLP-yə görə, hər hansı bir ünsiyyətin uğurlu olub-olmadığını onun nəticəsi müəyyənləşdirir.

Ünsiyyətdə məqsəd qədər üslub keyfiyyətləri də ciddi əhəmiyyət daşıyır. Belə ki, uşağı azarlayan, təhqir edən, qorxudan bir tərbiyəçinin məqsədi öyrətmək olsa da, bu ünsiyyət formasını düzgün hesab etmək olmaz. Çünki bu zaman nəticəyə qismən nail olunmuş olur. Ancaq bu təsir müvəqqəti xarakter daşıyır. Belə hallarda tərbiyə olunan nəyi etməməli olduğunu bilsə də, bunu niyə etməməli olduğunu bilmir. Bununla da, uşaq hərəkətin nəticəsini qavramır və bunu bir daha təkrar etməmə şüuruna yiyələnməmiş olur. Tərbiyə prosesi hədə-qorxuya yox, hörmət və nüfuza əsaslanmalıdır.

Pedaqoqlar tərbiyədə sözlə əməli işin vəhdətini onun əsas prinsiplərindən biri kimi müəyyənləşdirmişlər. Tərbiyə edən tərəflər arasında sözlə işin, əməlin vəhdət tapması, vahid məxrəcdə birləşməsi olduqca mühüm amildir (16, s. 174). Tərbiyəçi, yəni tərbiyə olunana bilavasitə təsir göstərən şəxs əvvəla özü təlqin etdiyi dəyərlərin daşıyıcısı olmalıdır. Sözlərlə dav-

ranışların ahəngdar olmadığı, başqa sözlə, tərbiyəçinin etibarlılıq dərəcəsinin aşağı səviyyədə olduğu hallarda tərbiyə olunanlar onlara aşılanmaq istənən dəyərləri mənimsəməkdə həm çətinlik çəkir, həm də buna müqavimət göstərirlər.

Nəticə olaraq qeyd etmək olar ki, NLP-nin əsas prinsipləri ilə tərbiyənin ənənəvi prinsiplərinin əlaqəsi fonunda tərbiyə işini daha səmərəli təşkil etmək mümkündür. Valideynlər, müəllimlər, pedaqoqlar, tərbiyə işi ilə məşğul olan bütün şəxslərlə bu sahədə maarifləndirmə işi aparılarsa, onlar bu prinsipləri birlikdə və düzgün şəkildə tətbiq etdikləri zaman tərbiyə prosesinin daha uğurlu bir şəkildə həyata keçirilməsinə nail olacaqlar.

**Mövzunun aktuallığı.** Tərbiyə prosesində ənənəvi yanaşmalar getdikcə öz təsirini itirir. Artıq yeni metodikaları sınaqdan keçirmək xərurəti danılmaz fakt kimi qiymətləndirilir. Bu baxımdan NLP metodikası səmərəli və təsirli üsullardan biri kimi qarşımıza çıxır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə NLP prinsiplərinin tərbiyə prosesinə tətbiq olunmasının səmərəliliyi artıra biləcəyi elmi yenilik kimi əsaslandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan əldə olunmuş nəticələrdən təlim-tərbiyə ilə bağlı işlərin həyata keçirilməsində, cəmiyyət, sosial mühit, ailədə qarşılıqlı münasibətlərin düzgün istiqamətlənməsində valideynlər, müəllimlər, məktəb psixoloqları və tərbiyə işi ilə məşğul olan digər şəxslər tərəfindən geniş istifadə edilə bilər.

## Ədəbiyyat

1. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya. Bakı, 2011, 256 s.
2. Əliyeva Z. Pedaqogika. Bakı: 2004. 92 s.
3. E.Yılmaz, Öğrenciler ve öğretmenler için NLP. İstanbul, 2004, 122 s.
4. R. Dilts: "Dil illüzyonları" ("Sleight of Mouth". 1999). İstanbul, 2019, 312 s.
5. https://instituteofclinicalhypnosis.com/nlp/difference-between-deep-and-surface-structure-nlp/
6. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007, 496 s.
7. Qədirov Ə. Yaş psixologiyası. Bakı, 2008, 386 s.
8. Prof. M.H.Türkçapar, "Fark et, düşün, hisset, yaşa — Kendi-kendine psikoterapi rehberi". İstanbul, 2019, 296 s.
9. Acar E. "İnsan kaynakları yönetiminde NLP", İstanbul: 2006, 272 s.
10. "Kəlilə və Dimnə". Bakı, Öndər nəşriyyat, 2004, 304 s.
11. M.Tat. Zihin Dili Programlamasının (NLP) kişisel gelişim ve kişilerarası iletişim üzerindeki etkileri. Doktora tezi, İzmir, 2007, 362 s.
12. Məktəbəqədər pedaqogika. Bakı: Azərtədrisnəşr, 1964, 248 s.
13. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. İkinci cild. Bakı, 2012, 548 s.
14. "Psixologiya". Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, 2007. 704 səh.
15. K.Yurdakul, "NLP eğitiminin kendini gerçekleştirmek üzerindeki etkisi", Yüksek lisans tezi, İstanbul, 2003, 116 s.
16. Bədəlova Ə. Təlim-tərbiyə, Bakı: ADPU-nun nəşri, 2015, 296 s.

**E.A. İsgəndərov**

## Principles of education with NLP psychological basis of relationship

### Summary

Although the content, purpose, tasks, principles, laws of education have changed due to some nuances, they have basically had similar characteristics for all periods. However, the same cannot be said about the methods, forms and methods of education. As times change, certain reforms in society

take place, especially as information technologies develop rapidly, there is a need to change methods and apply new methods and tools in education.

One of these learning-based methodologies in modern times is Neuro Linguistic Programming (NLP for short). There are several basic principles of NLP. In this article, some principles of NLP and the principles of education are examined on the basis of interaction. These relationships are of great importance in providing scientific, pedagogical, psychological and methodological guidance to everyone in the position of an educator.

**Е.А. Искендеров**

**Принципы обучения НЛП психологическая основа отношений**

**Резюме**

Хотя содержание, цель, задачи, принципы, законы образования менялись в силу некоторых нюансов, в основном они имели сходные характеристики для всех периодов. Однако этого нельзя сказать о методах, формах и методах воспитания. Поскольку времена меняются, происходят определенные реформы в обществе, тем более, что информационные технологии стремительно развиваются, возникает необходимость изменения методов и применения новых методов и инструментов в образовании.

Одной из таких методологий, основанных на обучении, в наше время является нейролингвистическое программирование (сокращенно НЛП). Существует несколько основных принципов НЛП. В этой статье рассматриваются некоторые принципы НЛП и принципы обучения на основе взаимодействия. Эти отношения имеют большое значение в обеспечении научной, педагогической, психолого-методической ориентации каждого в должности воспитателя.

**Redaksiyaya daxil olub:** 31.05.2023

**Kədərdən doğan sevinc ...**

**Aytaç Zeynalova**
*Bakı Qızlar Universitetinin*
*filologiya-tarix fakültəsinin II kurs tələbəsi*
**E-mail:** aytaczeynalva@gmail.com

2016-cı ildə tarixin faciəli günlərindən biri idi. Hamının təşviş və həyəcanla açdığı səhərlərin birində televizoru açdım. (Bilirsiz, biz insanlar cismən nə qədər böyüsək də, çoxumuz ruhən həmişə uşaq qalırıq.) Adətim üzrə yenə cizgi filmi axtarırdım, amma hər dəfə unudurdum ki, faciəvi günlərdə Azərbaycan telekanalları, yalnız azğınların bizə yaşatdığı ağrı-acı, əzab və iztirabları xatırladan filmlər və videoçarxlarla dolu olurdu. Hansı kanalda yayımlandığını tam olaraq xatırlamıram. Xatırladığım yalnız bir şey — Sədaqətin adının boş yerə Sədaqət olmamağı, Növrəstənin tuş gəldiyi bəlalardan necə üzüağ çıxmağı və xalqın ar-namusunun azğınlara yem edilməməyi idi.

Bəli, mən o gün "Qırmızı qar" filmini izləmişdim. Filmin ssenari müəllifinə qiyabi də olsa, ilk gizli rəğbətim hələ o vaxtdan oyanmışdı.

Ləyaqətli qadından və xalq namusundan söhbət gedəndə filmin hər səhnəsi gözlərimin önünə gəlirdi. İstər-istəməz, Növrəstə nəzərimdə "Əsl Azərbaycan qadını bax, belə olar" məntiqinə məni inandırırdı.

Onu da deyim ki, filmin ssenaristi ilə yollarımın bu cür kəsişəcəyini, ümumiyyətlə, kəsişəcəyini xəyal belə edə bilməzdim. Düzdür, onda uşaq idim, araşdırıb-axtarmaq hələ mənə tamam yad anlayışlar idi. Ancaq tale elə gətirdi ki, bir gün mən həmin ssenaristin özü ilə üzüzə dayandım və bu xatirələrimi onun özü də canlı olaraq mənim dilimdən eşitdi.

Ağarəhim müəllimlə bağlı ikinci təəssüratım onun təsis etdiyi və əsl Azərbaycan xanımlarının yetişdiyi Bakı Qızlar Universitetində oldu. Yeni tədris ilinin ilk günləri idi. O, auditoriyaya daxil olaraq öz zəngin qəlbinin ən incə duyğularını bizlərlə bölüşməyə, universitetin amalını, əqidəsini bizlərə – birinci kurs tələbələrinə izah etməyə başladı.

Sanki o insan danışdıqca günlərlə çörəyə və suya ehtiyacı olan, ancaq ümidi üzülməyənlər tək hiss və duyğular burulğanına düşdüm.

Ağarəhim müəllimin sözləri belə bir duyğusal anlarımda mənim üçün bir ümid işığı idi. Bəlkə də, o gündən beynimin durğun sularında azadlıq dənizinin ilk fikir gəmiləri üzməyə başlamışdı. Bu hisslərimdə və düşüncələrimdə tam əminliklə deyə bilərəm ki, mən əsla yanılmamışdım.

Xatirələri böyük hörmət və qayğı ilə yaşamımın incə bir küncünə alaraq görkəmli yazıçımızın yaradıcılıq fəaliyyətindən bəhs etmək istəyirəm .

İti qələminin sehrini nəsr əsərləri ilə sınayan və həmin yolda şərəf və ləyaqətlə addımlayan Ağarəhim Nüsrət oğlu öz qələm təcrübəsi ilə çağdaş həmfikirləri arasında dərin düşüncəsinin, bənzərsiz xarakterinin, iti yaddaşının və dərin məntiqinin gücü ilə silinməz cığırlar açmışdır. Elmi yaradıcılıqla kifayətlənməyən professor Ağarəhim Rəhimov sanballı bədii əsərlərin altına da öz imzasını atmışdır. Professorun elmi fəaliyyətinin bir ədib kimi bədii yaradıcılığına əsaslı şəkildə təkan verməsi təbii ki, təsadüfi hal deyil. Dilin qanun və qaydalarına bələd olmaq, sözlərin istifadə olunacağı məqamları ustalıqla bilmək yazıçının dilçilik elminə olan marağını aydınca ortaya qoyur.

Yazıçının həyat yolu o qədər parlaq və işıqlıdır ki, onun illərlə sinə gərdiyi əzab-əziyyətləri görməzdən gəlmək və bir pedaqoji elmlər doktoru, təhsil qurucusu olan pedaqoq-alim kimi cəmiyyətin inkişafına, elmin tərəqqisinə verdiyi töhfələrin üzərindən sükutla keçilməsi əs-

la mümkün deyil.

Ağarəhim müəllim həyatı boyunca hər zaman xalqımızın maddi-mənəvi rifahını, tarixi soy-kökümüzün özlüyünü, gələcək nəsillərin inkişafını, cəmiyyətdə yol verilmiş səhvlərin aradan qaldırılması ideyasını məqsədləri sırasında ən önə çəkərək həmin məqsədlərə sahib çıxılması üçün düz əqidə, pak niyyətlə daim mübarizə aparmışdır. Onun yaradıcılığı o qədər rəngarəngdir ki, yazıçının hər bir əsəri oxucu mənəviyyatının dərinliyinə sirayət edir, istər mənəvi-əxlaqi, istər əqli-psixoloji keyfiyyətlərlə onu ovsunlayır. Bu yerdə yazarın: "Əxlaq düşüncədən asılıdır, mənəviyyat isə gendən gəlir" fikrini deyilişi, səslənməsi gözəl sözlər kimi qəbul etmək olmaz.

Mənəvi-əxlaqi keyfiyyətlərin aşılanması halları, insanın ailədə, cəmiyyətdə və həyatda rolu, daxili aləmin paklığa ucaldılması Rəhimov yaradıcılığında mövzu və ideya rəngarəngliyinə gətirib çıxarır. Müəllif "Əsgər anası" əsərində Mələk ana obrazı ilə cəmiyyətə çox mühüm bir mesaj ötürür. O, doğruluğun, haqq-ədalətin, mərhəmət və insaniyyətin qan bağının üstündə dayandığını vurğulayır, ananın əzəməti, vüqarı, cəsarəti, iradəsi, qeyrəti və dürüstlüyü barədə gəlinən nəticə tamamilə təqdirəlayiqdir.

Yazıçının "Əsgər anası"ndakı Mələk ana obrazı, Hüseyn Cavidin "Ana" dramındakı Səlma ana obrazı ilə yaxından səsləşir. Mələk gəlininin namusuna göz tikən öz oğlu Şəkəri qətlə yetirir, Səlma ana isə oğlunun qatili Muradı bağışlayır.

Hər iki ana övlad itkisinə can yandırsa da, mənəvi cəhətdən kamillik zirvəsinə ucalırlar. Biri binamus oğlunun alçaqlığı qarşısında gəlini Nərgizin qeyrətini çəkir, digəri isə ona pənah gətirmiş, Allahın qonağı olaraq qəbul etdiyi, əslində isə oğlu Qanpoladın qatili olan Muradı bağışlayır, yaxalanmasın deyə, evdən çıxarır.

Bundan əlavə qeyd etməliyəm ki, Ağarəhim Rəhimovun bədii yaradıcılığında qadın obrazı ən yüksək mərtəbədə yer alır. Tərəddüd etmədən demək olar ki, ədəbiyyatda qadın obrazını bu qədər ülviləşdirən, aliləşdirən, humanist yanaşan, onları əlçatmaz bir inci tək təsvir edən çox az qələm sahibi olar ki, belə bir zirvədə qərar tutmuş olsun.

XXI əsrdə yaşamağımıza baxmayaraq, qadının həyatımızdakı rolu kifayət qədər dəyərləndirilməyən bir cəmiyyətdə yazıçı qadının ailədəki fədakarlığını ustalıqla ön mövqeyə çıxarır. O, bir yazıçı kimi qadının qurucu, idarə edən, haqq-ədalətin, mərhəmət və sədaqətin, sülhün, sevgi və dürüstlüyün hamisi olacağına qəti inanır.

Həyata olduqca fərqli və daha geniş bir pəncərədən baxmağı bacaran müəllif sağlamlığın vacib şərtlərdən biri olduğunu vurğulayır, lakin fiziki sağlamlığa nisbətən əqli və mənəvi sağlamlığı daha üstün tutur. Düşünür ki, heç bir həyati problemi olmayan, lakin qəlbiqaralıq, paxıllıq, nadanlıq, namərdlik, alçaqlıq kimi mənfi xüsusiyyətlərin yükü altında inləmək və buna qatlaşmaq daha böyük həyati problemdir.

Görkəmli mütəfəkkirin fəlsəfi yanaşmaları, əsərlərində yeni rəng və çalarlara istiqamət vermişdir. Onun roman və hekayələrinin məzmununu, mövzu və ideyasını uzaqlarda axtarmağa ehtiyac yoxdur, müəllif mövzuları real həyatdan götürür və həlli vacib olan problemləri qələminin qüdrəti ilə cəmiyyətə ötürməyə çalışır. Bu problemlər demək olar ki, çox zaman insanın daxili aləmindən doğur. Buna görə də, Ağarəhim Rəhimovun əsərləri gendən gələn mənəviyyatın doğru istiqamətdə tərbiyələndirilməsinə xidmət edir. Onun əsərlərin dili olduqca aydın və axıcı olasa da, hadisələrin gedişatı oxucunu düşüncə yolçuluğuna çıxarır. Yazıçının bir-iki hekayəsi ilə tanış olduqda, oxucu artıq onun dünyagörüşünə, öngörülüyünə bələd olur. Bitkin kompozisiyası ilə orjinal keyfiyyətlər qazanan bədii nümunələr oxucunu öz cazibəsində saxlamağı bacarır.

Ağarəhim Rəhimov günümüzdə əsərləri ilə vətənpərvərlik hissini aşılayan, gənc nəslə dü-

şüncə azadlığı verən azsaylı yazıçılar sırasındadır. "Qırmızı qar", "Əsgər anası", "Qasırğa" kimi əsərlər buna bir nümunə kimi göstərilə bilər.

1930-cu illərin Avstriya və Amerika məntiqi pozitivizmində müxtəlif (və ideal olaraq bütün) elmləri sözdə “vahid dil” əsasında birləşdirmək istəyi var idi. Hesab olunurdu ki, bu dil fizikanın dəqiq elmi dilinə (bütün cərəyanın adı – “fizikaçılıq”) yaxın olsa, öz rolunu ən yaxşı şəkildə yerinə yetirəcək. R. Karnap tərəfindən təqdim edilmiş dil semiotikanın sintaktika sahəsində yaranmış maraqlı işlərdən biri hesab olunur. O, öz vəzifəsini belə tərtib etmişdir: “Müşahidə olunan hadisələri izah etmək və proqnozlaşdırmaq üçün müsbət funksiyaları nəzəri dilin termin və cümlələrindən dəqiq şərtlər altında istifadə etməklə funksiyasını müəyyənləşdirir”.

Ümumiyyətlə, bu konsepsiyanı bütün məntiqi pozitivistlər qəbul edirdi. Onun izlərinə C.Pirs və C.Morrisin əsərlərində də rast gəlmək olar (3, s. 45).

C.Morris semiotikada dil işarələrinin funksionallığını müəyyənləşdirmək məqsədilə onu üç böyük sahəyə ayırmışdır: sintaktika, semantika və pragmatika. Bu 3 sahə daxilində bizi maraqlandıran sahə praqmatika ilə bağlıdır.

Qeyd edək ki, praqmatika az öyrənilən sahələrdəndir. Praqmatika linqvistik formalarla onlardan istifadə edənlər arasındakı münasibətləri araşdırır və danışanların ifadə etdiyi mənaları tədqiq edir. Burada kontekstual mənanın öyrənilməsi xüsusilə böyük önəm daşıyır. Praqmatikada deyilən ifadədən daha çox deyilməmiş amma düşünülmüş ifadələr ön plana çıxarılır (1, s. 322).

Qarşıya qoyduğu məqsədlərə çatmaq üçün praqmatika konteksti dil istifadəsinin daxilində araşdırır. O, situasiyanın kontekstini, natiqin niyyətlərini və dinləyicinin gözləntilərini nəzərə alaraq, danışanların kommunikativ məqsədlərinə çatmaq üçün dildən necə istifadə etmələrinə diqqət yetirir. Bunların sayəsində dolayı və ya gizli informasiyaların ötürülməsi prosesində dilin qayda-qanunlarını müəyyənləşdirir. Burada kommunikativ mətn və ifadələrin təsir gücü əsas amillərdən hesab olunur.

Praqmatik nöqteyi-nəzərdən dil istifadəsində kodlaşma, dekodlaşma, nəzakət qaydaları, onların istifadə məqamları prosesində vacib rol icra edir. Belə hallarda danışanlar dildən özlərini və ya sosial kimliklərini qorumaq və dinləyicilərini təhqir etməmək üçün istifadə edirlər. Bu, dolayı istəklər və təriflər kimi dolayı və nəzakətli dildən istifadə etməklə əldə edilir.

Praqmatik və semiotik təhlil birlikdə mənanın dil vasitəsilə necə çatdırıldığını və dinləyicilər tərəfindən necə şərh edildiyini hərtərəfli başa düşməyə imkan verir. Bu, yazılı mətnlər, şifahi söhbətlər, reklamlar və digər media formaları da daxil olmaqla, müxtəlif ünsiyyət vasitələrinə tətbiq edilə bilər.

**Məqalənin aktuallığı.** Semiotikanın işarə və simvolların vasitəsilə məna və mahiyyəti çatdırmaq imkanları məqalənin prioritet elmi müddəalarından biri kimi müəyyənləşdirilmişdir.

**Məqalənin elmi yeniliyi.** İşarələr və simvollar silsiləsinin praqmatik qiymətləndirilməsi, məzmun müstəvisində təhlilə yönəldilməsi yeni bir elmi yanaşmaya cəhd kimi dəyərləndirilə bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Araşdırma zamanı əldə olunan elmi nəticələr dilçilik (linqvistika) riyaziyyat, kompüter texnologiyaları və proqramları üçün praktik əhəmiyyət daşıya bilər. Bu sahələrin mütəxəssisləri üçün bu müddəalar təcrübi və tətbiqi əhəmiyyət daşıyacağını zənn edirik.

**Ədəbiyyat**

1. Veysəlli F.Y. Semiotika. Bakı, 2010.
2. Семиотика: Антология / Сост. Ю.С. Степанова. М., 2001.
3. Carnap R. The old and the new logic // Logical Positivism, Glencoe (Illin.), 1959.
4. https://brianrabern.net/Plato-Cratylus.pdf

**А.А. Дадашзаде**

**Прагматическая эволюция языковых знаков**

**Резюме**

Данная статья посвящена анализу прагматической эволюции языковых знаков. Основной темой статьи являются языковые знаки. Основная цель статьи-изучение семиотических знаков, а также исследование отношений между знаками и их референтамию.

**A.A. Dadashzadeh**

**Pragmatic evoluation of language signs**

**Summary**

This article  is devoted to the analysis of the pragmatic evoluation of language signs. The main topic of the article is the language signs. The main aim of the article is studying  semiotic signs and also deals with exploring the relationship between signs and their referents.

**Redaksiyaya daxil olub:** 04.05.2023

# Türk dillərində xüsusiləşmə problemi

**Aytən Elxan qızı Müseyibli**
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** aytensinay@gmail.com

**Rəyçilər:** filol. elm.d., prof. İ.B. Kazımov,
filol. ü.f.d., dos. T.R. İsmayılova

**Açar sözlər:** sintaktik kateqoriya, xüsusiləşmə, cümlə üzvləri, qoşmalı xüsusiləşmələr, subyektiv modallıq

**Ключевые слова:** синтаксическая категория, специализация, члены предложения, специализации с предлогом, субъективная модальность

**Key words:** syntactic category, specialization, part of the sentence, conjunctive specializations, subjective modality

Cümlənin ikinci dərəcəli üzvlərin xüsusiləşməsi türk dilləri sintaksisinin mürəkkəb məsələlərindəndir. Ümumən xüsusiləşmə də türk dillərində informasiyanın mühüm bazasını təşkil edir. Türkoloji ədəbiyyatda ikinci dərəcəli üzvlərin xüsusiləşməsi budaq cümlənin zərflikdən ibarət feili sifət tərkibləri ilə qarışıq salınmışdır. Azərbaycan dilçiliyində, nümunə olaraq, budaq cümlələrlə xüsusiləşmiş ikinci dərəcəli üzvlər arasında sərhəd gözlənilmişdir. Ayrıca Azərbaycan dilçisi, akademik M.Ş. Şirəliyev və başqaları feili sifətlərlə ifadə olunan sintaktuk konstruksiyaları budaq cümlə hesab edir, müxtəlif görünüşlü xüsusiləşmələrin isə predikativliklə ifadə olunmamasını bildirirlər. (1, s. 81)

Vaxtı ilə rus dilçiliyində cümlə üzvlərinin xüsusiləşməsinin məntiqi-psixoloji dərki A.A. Potebniya, A.A. Şaxmatov və başqaları tərəfindən müəyyənləşdirilmişdir. Həmin müəlliflər bu məsələni məhz “tabeli mürəkkəb cümlənin ixtisar nəzəriyyəsi”nə əsasən öyrənmişlər.

Cümlənin xüsusiləşmiş üzvlərini A. Potebniya əlavə *(appo-sixio.- cümlə üzvlərinin oppozisiyası)* adlandırmışdır. Xüsusi funksiya daşıyan xüsusiləşmənin yaranmasında isim, sifət və feili sifət bir-birilə oppozisiya təşkil edir.

Bir sıra başqırd və tatar dilçiləri, məsələn, K.Z. Axmerov və M.Z. Zəkiyev xüsusiləşmiş ikinci dərəcəli üzvlərin tərkibini, həmcinin feili sifət tərkibi əhatə etdiyini və öz xəbəri olduğunu göstərirlər (2, s. 169; 3, s. 156-158)

Xüsusiləşmə, demək olar ki, türk dillərində məzmun etibarı ilə mürəkkəbdir. Əslində türk dillərində xüsusiləşmələr müəyyən cümlə üzvləri əsasında əmələ gələn sintaktik-üslubi kateqoriyadır. İkinci dərəcəli üzvlərin xüsusiləşməsinin tipləri arasında özünəməxsus xüsusiyyətləri vardır: belə ki, onlar minimum bir bütöv mənalı sözdən təşkil olunur; sonuncu, əsas, təşkiledici komponent genişlənir, inkişaf edir, heç vaxt genişlənən xüsusiləşmələr feili sifət və sifətlə ifadə olunmur. İkinci dərəcəli üzvlərin xüsusiləşməsi öz strukturuna görə müxtəsər və geniş olur.

Öncə, xüsusiləşmə hadisəsinin tarixi sintaksisdə yeri haqqında. “Azərbaycan dilinin tarixi sintaksisi” monoqrafiyasının müəllifi, prof. Q.Kazımov yazır: *“Cümlə üzvlərinin xüsusiləşməsi insan təfəkkürünün çox qədim mərhələləri ilə bağlıdır. İnsanlar nitq prosesində qurduğu cümlənin bu və ya digər üzvünün ifadə etdiyi ideyanı fərqləndirmək, ayırmaq, xüsusi nəzərə çarpdırmaq üsulu ilə fikir ifadəsinə çox qədim dövrlərdən nail olmuşlar. Bu sahədə qoşmaların, bir sıra səciyyəvi ara sözlərin rolu xüsusilə diqqəti cəlb etmiş, danışan şəxs onların vasitəsilə istisnaetmə, ayırma, fərqləndirmə, daha aydın nəzərə çarpdırma üsulunu yaratmışlar”*

(4, s. 315).

Xüsusiləşmə sintaktik kateqoriya kimi türk dilləri mətnlərində çox işlənir. Türk dillərində xüsusiləşmə az öyrənilmiş sahələrdəndir. Mövcud əsərlərdə bu məsələyə genişlənmiş cümlə üzvləri qismində baxılmışdır.

Cümlə üzvlərinin xüsusiləşməsi struktur-semantik və kommunikativ – üslubi fenomendir: Buraya: 1) Xüsusiləşmənin əsas şərtləri, bu hadisəni əmələ gətirən şərait; 2) xüsusiləşmənin tipləri və s. daxildir.

Azərbaycan dilçiliyində 1953-cü ildə Ə.Z.Ablullayev bu məsələni monoqrafik şəkildə tədqiq etmişdir (5, s. 26 c.).

Tatar dilində xüsusiləşmənin sintaktik xüsusiyyətləri (6, s. 291) öyrənilmişdir.

Həmin əsərlərdə cümlə üzvlərinin xüsusiləşməsinin struktur-semantik tipləri, xüsusiləşmənin cümlədə sintaktik rolu, xüsusiləşmiş üzvlərin təsnifində müxtəlif prinsiplərdən istifadə məsələsi qoyulmuşdur.

Xüsusiləşmə cümlənin ikinci dərəcəli üzvlərinə aid olduğundan bir sıra türk dillərində, o cümlədən Başqırd dilində yalnız təyinin xüsusiləşməsinin funksionallıq baxımından 3 qrupundan danışılır (7).

Qazax dili üzrə S.K.Kenesbaev xüsusiləşmənin sintaktik imkanlarından bəhs etmişdir (8, s. 34-41)

Q.A. Abduraxmanov xüsusiləşmənin qazax dilində 4 növündən danışmışdır: 1) xüsusiləşmiş feili ifadələr; feili sifət və feili bağlama tərkibləri, 2) xüsusiləşmiş qoşmalı birləşmələr: taşkarı, karaeanda, kura, kabi (kimi), karşı və s); 3) təyinin xüsusiləşməsi; 4) aydınlaşdırıcı üzvlər (9, s.45)

Cuvaş dilində bu mövzuda namizədlik dissertasiyası (monoqrafiya) yazılmışdır (10, s. 201).

Prof. Q.Kazımov xüsusiləşməni də həmcins üzvlər, xitablar, ara sözlər, ara və əlavə konstruksiyalar kimi, "Sadə cümləni genişləndirən vasitələr" adı altında ümumiləşdirmişdir Müəllif yazır ki, dilçilikdə sadə cümləni genişləndirən vasitələrlə bağlı mübahisəli məsələlərin bir çoxu hələ də öz həllini tapmamışdır (11, s. 316).

Türkiyə türkcəsində xüsusiləşmədən "Edat Grupları" adı altında danışılır. *Gibi, için, kadar, üzere, dolayı, göre, diye, rağmen, karşı, ike, dogru* isim ünsürləri zaman, yön, durum, bənzətmə, qarçılaşdırma, səbəb, nətic bölgülərinə ayrılır. Birinci ünsür (isim unsuru), ikinci unsur (çekim edatı). Məs.: senin kadar, bizim için. Bunlar əslində Azərbaycan dilində səsləndiyi kimi, "qoşmalı xüsusləşmələr"dir. "Yeni Türk dili" kitabında bunlara aid aşagıdakı örnəklər verilmişdir:

Nihat Beyin seni *bir pul gibi* gözden şıkarmasında şaşılacak yan göremiyorum. (Sen de Gitme Triyandafilis, Ayla Kutlu);

Fakat insan görmek istediğini *bulmak için* baktığında, onu görmüş gibidir. (Ayın en Şılpak Günü, Buket Uzunır);

Öğretmen, *elinden geldiği kadar* hayret ve hayranlıkla, "Ah, ne güzel," dedi. (Çiçeklerin Düğünü, Halikarnas Balıkçısı) (12, s. 523-524).

Digər dillərdə, məsələn, müasir fransız dilində cümlə üzvlərinin xüsusiləşməsinə aktual üzvlənmə baxımından, yəni mövzunun yuxarı səviyyəsi hadisəsi kimi baxılmışdır.

Xüsusiləşmə modal mənalarla yaxşıdır. Modallıq da — struktur-semantik vahiddir. Deyilənin məzmunu, mühit və obyekt, danışan şəxs və subyekt modallıq və xüsusiləşmə anlayışlarının hər ikisini aydınlaşdırır.

Türk dillərində modallıq kateqoriyasının məzmunu ilə əlaqədar bəzi məsələlər hələ də qaranlıq qalır. Onlardan biri də xüsusiləşmə ilə bağlı modal münasibətin ifadə vasitələrinin hələ

də tam və sistemli biçimdə təsvir edilməməsi, onlar arasında iyerarxik əlaqələrin dəqiqləşdirilməməsi, modal mənaların növlərinin (məs.: "qiymətləndirmə" mənası və s.) təyin olunmaması və modallıq sərhədlərinin müəyyənləşdirilməməsidir.

Xüsusilə də, subyektiv modallıq bu baxımdan səciyyəvi sayılır. Bu bir kateqoriyadır. Bir kateqoriya kimi nitqin hər bir söyləmi subyektiv modallığı əhatə edir. Subyektiv modallıq, hər şeydən öncə, "qiymətləndirmə" anlayışı ilə münasibətdədir. Subyektiv modallıq kateqoriyası polipredikativliklə sıx şəkildə bağlıdır. Xüsusiləşmiş modallıq və cümlənin xüsusiləşmiş üzvlərinin vəhdətinə yazılı nitqdə rast gəlinir.

Qeyd edək ki, xüsusiləşmə sintaktik təlimdə cümlə üzvləri səviyyəsində olan bir hadisədir. O, mürəkkəb cümlə tərkibinin predikativ hissəsi səviyyəsində müşahidə olunur, müxtəlif sintaktik təbiətə malikdir.

Xüsusiləşmə və subyektiv modallıq bu məzmunda əsas mövzulardandır. Belə ki, xüsusiləşmiş ifadə (oborota)=modal ədat qrupuna aiddir. Bir tərəfdə xüsusiləşmiş konstruksiyalar, o biri tərəfdə isə molal-ara sözlər dayanır. "*Ara sözlər sintaktik quruluşda, sintaktik məkanda modal sözlərlə ifadə olunur. Və ya xüsusiləşmiş ifadənin tərkibində iştirak edir. Xüsusiləşmiş ifadələrin subyektiv-modal mənaları ortaya çıxır və bu mənaların ifadə vasitələri formalaşır*" (13, s. 162).

Modal ədatlar türk dillərində xüsusiləşmiş leksik münasibətləri əhatə edir. Məs.: türk və qaqauz dillərində *TA* ədatı modal mənada hadisənin baş verdiyini dəqiqləşdirmək üçün işlədilir: ...ta sabaha kadar bekledim (türk); Taa ötee dooru gruppa annaştı hepsini iyneden, ipleeden, nasıl yapmaa da... (N.Baboqlu).

Müqayisə etdiyimiz türk dillərində xüsusiləşmənin iki tərəfi mövcuddur: 1) xüsusiləşmənin formal tərəfi; 2) xüsusiləşmənin məzmun tərəfi (14). Bu təriflərə əsasən nitqdə xüsusiləşmiş ifadələri sintaktik vahid kimi təhlil etmək lazım gəlir.

Beləliklə, tədqiqatdan belə qənaətə gəlmək olar ki, cümlənin ikinci dərəcəli üzvlərin xüsusiləşməsi, əsasən semantik birliyə, intonasiyaya və fasilə əlamətlərinə görə gercəkləşir. Cümlənin xüsusiləşmiş üzvlərinin əksəriyyətində mühüm bir xüsusiyyət onların mahiyyətcə budaq cümləyə yaxınlaşması, yaxud bütövlükdə müvafiqlikdən ibarətdir. Bu uyğunluq xüsusiləşməni yaradan qrammatik şəraitin müqayisə olunan türk dillərində ümumi cəhətlərini əsaslandırır. Hər hansı bir cümlə üzvünün xüsusiləşməsinin səbəbi isə əksər durumda izahedici vahidlər hesabına genişlənmə, bir məna tamlığı yaratma, xüsusi intonasiya və fasilə ilə aydınlaşır. Türk dillərində xüsusiləşmiş üzvlər üçün xarakterik xüsusiyyət, şübhəsiz, ümumi qaydalara əsaslanır. Tədqiqat göstərir ki, xüsusiləşmədən ibarət qohum dillərin sintaktik quruluş ümumi cəhətlər üzrə formalaşmışdır.

**Məqalənin aktuallığı.** İnsan düşüncəsinin tarixən yaratdığı cümlələrin bu və ya digər üzvünün bildirdiyi əsas fikri ayırmaq, fərqləndirmək və xüsusi olaraq nəzərə çarpdırmaq vacib məsələlərdəndir. Xüsusiləşmədə bu əlamətlər genişliyi ilə seçilir. Həmin hadisə ilə yanaşı, qoşmaların, xarakterik ara sözlərin, söz sırasının əlaqəsinin öyrənilməsi mövzunun aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi xüsusiləşmə ilə bağlı mübahisəli məsələlərin həllinə yönəlir. Və iki qohum dilin materialları bu mövzunu tədqiq etməyə kifayət qədər əsas verir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Doktorantura, magistratura pillələrində təhsil alan tələbələr, müəllimlər, araşdırıcılar bu məqalədən həm nəzəri, həm də praktik baxımından istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Ширалиев М.Ш. Проблема сложноподчиненного предложения. Вопросы грамматики тюркских языков. Алма-Ата, 1958.
2. Əxmər K. Başkort telendə yabay höyləm sintaksise. Öfö, 1958.
3. Закиев М.З. Синтаксический строй татарского языка. Казань, 1963.
4. Kazımov Qəzənfər. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı, Elm, 2019, 608 s.
5. Абдуллаев А.З. Обособление в азербайджанком языке. Автореф. дис. … канд. филол. наук, Баку, 1953.
6. Голлямов Ф.Г. Синтаксис простого осложенного предложения в татарском языке. Казанский гос. унииерситет, 2006.
7. Амиров Г.З.Приложение в современном русском языке сравнительно с башкирским. К.д.Куйбышев, 1954.
8. Кенесбаев С.К. Обособление казакском языке. «Филологический сборник. Казакской ССР, Казакский гос.университет, 1973, с. 34-43.
9. Абдурахманов Г.А. Изучение синтаксиса тюркских языков. «СТ», 1970, № 1.
10. Мефодий Ф.Ч. Обособление члены предложения в современном чувашском языке. Чувашское книжное изд-во, 1963.
11. Kazımov Q. Seçilmiş əsərləri. 10 cilddə, 5-ci cild, Bakı, Nurlan, 2008, 500 s.
12. Yeni Türk Dili. Prof. Dr.Mehmet Dursun Erdem. Yrd. Doç.Dr.Mustafa Karataş Yurd.Doş.Dr.Erkan Hirik. Maarif Mektepleri. Ankara, 2015.
13. Иванова М.А. Субъективная модальность и обособление: Дис. канд. филол. наук. М., 2015.
14. Kazımov İ. Sadə cümlə sintaksisi. Bakı, Avropa nəşriyyatı, 2021.

**А.Е. Мусейибли**

**Проблемы обособление тюркских языков**

**Резюме**

В статье затрагиваются некоторые моменты проблемы специализации в тюркских языках. Исследуется сущность этой синтаксической категории в исторических и современных тюркских языках, ее изучение, отличия от членов предложения и т.д. Становиться известно, что в предложении тот или иной член произносится определенным голосовым тоном. Эта единица отделена от других членов предложения и смыслом, и паузой, и логико-динамическим акцентом. Выделяется такая дефиниция: *«Второстепенные члены, которые выделяются особой интонацией и паузой, чтобы подчеркнуть роль смысла, называются специализированными».*

До сих пор в синтаксисе тюркских языков эта тема рассматривалась поверхностно, необходимо, по крайней мере, изучить эту важную, актуальную тему по огузским языкам. Изучить ее структурно-смысловое, коммуникативно-функциональное, а также прагматическое направления.

**A.E. Müseyibly**

**The problem of specialization in Turkish languages**

**Summary**

The article deals with some aspects of the problem of features in the Turkic languages. The essence of this syntactic category in the historical and modern Turkic languages, its study, differences from sentence members, and etc. are investigated. It turns out that one or another member in a

sentence is pronounced in a certain tone of voice. Such a unit is separated from the other members of the sentence by meaning, by a pause, and by a logical-dynamic accent. The following definition is emphasized: *"A feature is secondary members, which are distinguished by a special intonation and pause in order to emphasize the role of meaning"*.

Until now, this topic has been considered in the syntax of the Turkic languages, it is necessary, at least, to study this important, actual topic in the Oghuz languages. Its structural-semantic, communicative-functional, as well as pragmatic directions are to be studied.

**Redaksiyaya daxil olub:** 11.04.2023

**Müasir alman dilində feilin şəkilləri**

**Günay Təvəkgül qızı Əfəndiyeva**
*Azərbaycan Dillər Universitetinin*
*Alman dilinin fonetikası və qrammatikası kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** gceferzade@internet.ru

**Rəyçilər:** ped. ü.f. d., dos., Q.V. Axundova,
filol. ü.f. dok., dos.X.S. Əsgərova

**Açar sözlər:** alman dili, müasir, forma, konyuktiv, xəbər, feil
**Key words:** the German language, modern, form, conjunctive, predicate, verb
**Ключевые слова:** немецкий язык, современный, форма, конъюнктив, сказуемое, глагол

Alman dilində feil ən mürəkkəb nitq hissəsidir. Feil cümlənin enerji mənbəyidir və adlıq cümlələri çıxmaq şərtilə, feilsiz cümlə yoxdur. Başqa nitq hissələrində olduğu kimi, feil əsasən morfologiyada öyrənilir ki, bunu alman dilində Formenlehre (forma nəzəriyyəsi) adlandırırlar. Bütün feillərin bu dildə bir məsdər forması var, bu da /-ən (en) / şəkilçisilə bitir. Təsrif olunan feilin bu dildə formaları bunlardır [1, s. 12]:

3 şəxs forması (I şəxs təkdə /-ə/, cəmdə /-ən/, II şəxs təkdə /-st/, cəmdə /- (ə)t/, III şəxsdə /-t/ və cəmdə /-ən/;

2 kəmiyyət forması (təkdə /-ə, (ə)st, -t/ və cəmdə /-ən, (ə)t, -ən/;

5 zaman forması (Präsens, Präteritum, Perfekt, Plusquamperfekt, Futurum);

3 şəkli (İndikativ, Konyunktiv və İmperativ)

2 növü var: məchul/məlum növ

Feillər qüvvətli və zəif olmaqla iki böyük qrupa bölünür. Alman dilində qüvvətli feillərdə kök saitini dəyişməklə (məsələn, 'ne:mən-'na:m- gə'n) mən, 'zit- sən-'za:s-gə'zEsən və s./, 7 ablaut qrupuna bölünür:

I. ablaut sırası:

/ae/ /i:/ /i:/

/'Jtaegən/ (steigen-qalxmaq) /'Jti:k/ (stieg) /gə'fti:gən/ (gestiegen)

Bu sıraya /*bleiben, greifen, reiten, schreiben, schreiten, schweigen, treiben, îweiden (flechten), leiden, meiden, neiden, reiden, leihen, gedeihen, reihen, pehen, schreien, speien/* feillər aiddir.

II. ablaut sırası:

/i:/ /o:/ /o:/

*/biegen, kriechen, schmiegen, triefen, triegen, fliegen, siegen, bieten, sieden, kiesen, niesen, Verliesen (verlieren), frieren/* və s.

III. ablaut sırası:

/ı,E/ /a/ /v,)/

Bu sıraya aşağıdakı feillər aiddir:

*/binden, brimmen, brummen, entrinnen, glimmen, gewinnen, hinken, kleingen, rinnen, singen, sinken, sinnen, spinnen, schwimmen, helfen, melken, feilen, gellen, schelten, sterben, schwellen, verderben, werden, schmelzen/* [2, s. 19].

IV. ablaut sırası. Bu siranın əlamətləri bunlardır:

/e:/ /a:/ /1)/

*/nehmen, beren (tragen), brechen, dreschen, leschen (erlöschen), rächen, quälen, schrecken, stehlen, treffen/*

V. ablaut sırası.

/e:/ /a:/ /e:/

*/geben, essen, fressen, geschehen, messen, sehen, treten, weben, genesen,? lesen/.*

VI. ablaut sırası:

/a:/ /u:/ /a:/

*/graben, ladenmahlen, nagen, schaffen, tragen, wachsen, waschen/*

VII. ablaut sırası.

/e:, a :/ /i:/ /a:/

*/raten, braten, schlafenheizen, scheiden, schweifen, laufen, hauen/*

Qüvvətli feillər partisip II-də /-ən (en)/ şəkilçisinə malikdirlər. Ondan başqa, bəzi feillərin kök saiti preteritlə, bəzilərində kök saiti infinitivlə üst-üstə düşür [3, s. 11]. Məsələn, /k) mən, blaebən, bındən-gəbvndən/ və s. Qüvvətli feillər təxminən 150 olmaqla əsasən köhnə formaları əhatə edir. Bir də yeni yaranan mürəkkəb feillərdir. Məsələn, */'na:xt,si:ən-,tso:k 'na:x-'na:xgə,tso:gən/*

Zəif feillər. Bunlar imperfektdə /-tə (te)/ və ya /-ətə/(ete), partisip II-də isə /ge-t/ formasını qəbul edirlər. Bu sinfə feillərin çoxu, habelə yeni yaranan feillər daxildir. Məsələn, /sagen, fragen, neigen, zahlen, zählen, trösten və s. /.

Alman dilində qarışıq feillər var ki, bunlara /bringen/, /beginnen/ feilləri daxildir.

Bundan başqa, bir qrup feil var ki, onlara preterito-prezentia feillər deyilir. Buraya /wissen, können, müssen, dürfen, mögen, sollen, dürfen/ feilləri daxildir. Bunlar indiki zamanda birinci və üçüncü şəxs təkdə özlərini qüvvətli feillər kimi aparır.

Alman dilində konyunktiv çox geniş mənaya və işlənmə diapazonuna malikdir. O, təkcə arzu və istək mənalarında işlənmir. İlk növbədə, o, başqasının ifadəsinin modallığını bildirir. Rus dilində bu cür modallıq mənaları xüsusi hissəciklərlə (да, мол) və ya /как-будто, якобы/ kimi modal sözlər vasitəsilə ifadə olunur. Azərbaycan dilində isə modallıq /sanki, elə bil, hətta / və s. sözlərlə ifadə olunur. Məsələn, rus dilində: /Он мол сам знает/ (O özü də bilir), Azərbaycan dilində: /Guya o dedi ki/.

Alman dilində başqasının fikirlərini bildirmək üçün feilin xüsusi şəkillərindən istifadə olunur. Məsələn, /man za:kt zi. vüRd ə zingən//- (Man sagt, sie würde singen) Deyirlər ki, o oxuyacaq. Bu cümləni deyən adam dəqiq bilmir ki, o oxuyacaq ya yox. Sadəcə olaraq o, başqasının fikrini bildirir, ona görə də, onda əminlik yoxdur. Bəzən bu fikir ironik şəkildə təsdiqlənir [4, s. 6]. Məsələn, ?hast du. hvngəR? - (de.n hEtə ıc ˛3o:n)- /Acmısan? Əlbəttə//

Adətən alman dilində 3 cür modallıq fərqləndirilir: 1) optativ modallıq (arzu edilən hərəkətin ifadəsi); 2) potensial modallıq (mümkün hərəkətin ifadəsi); 3) başqasının ifadəsinin modallığı.

| Optativ funksiya | Potensial funksiya | Başqasının fikrinin ifadəsi |
|---|---|---|
| Prezens | preterit | prezens |
| Preterit | pluskvamp. | perfekt |
| Pluskvamp. | kondit. I | futurum |
| | kondit. II | preterit |
| | | pluskvamp. |
| | | kondit. I |
| | | kondit. II |

Optativ funksiya sadə cümlədə bir neçə məna ifadə edə bilər. Arzu həm indiki, həm də preterit və pluskvamperfektdə ifadə oluna bilər. Birinci – yerinə yetirilən arzunu, ikinci isə yerinə yetirilməyən arzunu bildirir. Bu zaman preterit indiki və gələcək zamanı, pluskvamperfekt isə keçmiş zamanı bildirir. İndiki zaman /Es le:bə/ və patetik danışıqda işlənir. !Es

le:bə di.'"fkae..haet! [5]

Bu, yazılı dildə konyunktiv məcburiyyət ifadə edir, daha tez-tez reseptlərdə və ya elmi məsləhətlərdə işlənir.

*Potensial modallıq.* Bu funksiyada konyunktiv mürəkkəb cümlələrdə işlənir. Onun ifadəsinə preterit və pluskvamperfekt, həmçinin kondisionalis I və II xidmət edir. Birincilər indiki və gələcək zamanı, ikincilər isə keçmiş zaman bildirir [6].

Başqasının fikirlərinin ifadəsi üçün konyunktiv vasitəsiz nitqdə işlənir. Bu daha çox özünü tabeli cümlələrdə göstərir. Bu funksiyada konyunktiv az işlənir və əsasən indikativlə əvəz olunur.

Zəif, qüvvətli və qarışıq feillərin konyunktivdə təsrifı aşağıdakı kimi olur:

| | | | | | |
|---|---|---|---|---|---|
| Finde | kenne | sage | Fahre | gebe | rede |
| Fahre-st | kenne-st | sage-st | fahre-st | gebe-st | rede-st |
| Finde | kenne | sage | Fahre | gebe | rede |
| Finde-n | kenne-n | sage-n | fahre-n | gebe-n | rede-n |
| Finde-t | kenne-t | sage-t | fahre-t | gebe-t | rede-t |
| Finde-n | kenne-n | sage-n | fahre-n | gebe-n | rede-n |

Misallardan göründüyü kimi, yalnız III şəxs təkdə konyunktivın indikativdən fərqi nəzərə çarpandır: redet- rede, findet-finde.

Preterito- prezentia, yəni modal feillər aşağıdakı qayda üzrə təsrif olunurlar:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Wolle | könne | müsse | solle | dürfe | möge | wisse |
| Wolle-st | könne-st | müsse-st | solle-st | dürfe-st | möge-st | wisse-st |
| Wolle- | könne- | mtisse- | solle- | dürfe- | möge- | wisse- |
| Wolle-n | könne-n | müsse-n | solle-n | dürfe-n | möge-n | wisse-n |
| Wolle-t | könne-t | müsse-t | solle-t | dürfte-t | möge-t | wisse-t |
| Wolle-n | könne-n | müsse-n | solle-n | dürfe-n | möge-n | wisse-n |

Göründüyü kimi, bu feillərdə I və III şəxs cəmi indikativlə üst-tistə düşür. Aşağıda /ve.Rdən, ha.bən, tu:n və zaen/ feillərinin təsrivi verilir:

| | | | |
|---|---|---|---|
| /Ve.Rdə | ha.bə | tuə | zae/ |
| /Ve.Rdə-st | ha.bə-st | tu.ə-st | zae(ə)-st/ |
| /Ve.Rdə | ha.bə | tuə | zae/ |
| /Ve.Rdən | ha.bə-n | tu.ə-n | zaeə-n/ |
| /Ve.Rdə-t | ha.bə-t | tu.ə-t | zaeə-t/ |
| /Ve.Rdən | ha.bə-n | tu.ə-n | zaeə-n/ |

Qüvvətli feillərin preterit konyunktivi preterit indikative /-e/ artırmaqla düzəlir. Bundan başqa, feillərin kökündə olan /a, a:,), o:, v, u:/ saitləri umlaut qəbul edirlər [7]. Məsələn, /zang-zEngə, ka:m- кe:mə, tso:k- tsü:gə, fu:R -fü:Rə/, ancaq /3nıt-3nıtə/ və s. Qeyd edək ki, müasir alman dilində umlaut ablautdan daha çox işlənir. Müqayisə et: /half- hülfə-hElfə/ (hälfe). Zəif feillərdə /-tə/ şəkilçisi əlavə olunur.

Zəif feillərin preterit konyunktivi tamamilə preterit indikativlə üst-üstə düşür. Aşağıda kondisionalis I və II-nin düzəlməsi qaydası təqdim olunur:

| *Konditionalis* I | *Konditionalis* II |
|---|---|
| vYRdə za:gən | vYRdə gəza:gt ha.bən |
| vYRdə k)mən | vYRdə gək)mən zaen |
| vYRdə zaen | vYRdə gəve.zən zaen |
| vYRdə turn | vYRdə gəta: n ha.bən |

Məchul növdə konyunktiv ayrı-ayrı zamanlar üzrə belə düzəlir:

| | |
|---|---|
| *İndiki zaman* | *Preterit* |
| Ve.Rdə gəfRa:kt | vYRdə gəfka:kt |
| Ve.Rdəst gəfka:kt | vYRdəst gəfRa:kt |
| | |
| *Perfekt* | *Pluskvamperfekt* |
| Zae gəfka:kt v)Rdən | ve.Rə gəfka:kt v)Rdən |
| | |
| *Futurum* I | *Futurum* II |
| Ve.Rdə gəfRa:kt ve.Rdən | ve.Rdə gəfRa:kt v)Rdən zaen |
| vvRdəst gəfka:kt ve.Rdən | ve.Rdəst gəfka.kt v)Rdən zaen |

Deməli, alman dilində feilin şəxs, kəmiyyət, zaman, şəkil və növ paradiqmləri vardır. Onların əsas funksiyası cümlənin xəbəri yerində çıxış etməsidir.

Əmr forması yalnız ikinci şəxsin təki və cəmində işlənir. Zəif və qarışıq feillərdə bu feillərin kökünə /-e/ şəkilçisi artırmaqla düzəlir.

Modal feillərdə /vısə/ və /v)lə/, digər tərəfdən /zae, ha.bə, ve.Rdə və tu.ə/ formaları bu feillərin II şəxs təkdə əmr formalarıdır. Feillərin cəm forması indikativlə üst-üstə düşür.

**Məqalənin aktuallığı.** Müasir alman dilində feilin şəkil formalının xüsusilə konyuktiv şəklinin yeni mərhələsinin araşdırılması.

**Məqalənin elmi yeniliyi.** Müasir alman dilində konyuktivin müəyyənləşməsi, araşdırılması.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə fərqləndirilən vasitələrin tələbələr, müəllimlər, tədqiqatçılar və digərləri tərəfindən düzgün istifadəsinə təcrübi baxımdan yardımçı olmaq qarşıya bir məqsəd kimi qoyulur.

**Ədəbiyyat**

1. Geschichte der deutschen Sprache. Unter der Leitung von W. SchmL. Volk und Wissen Volkseigener Verlag, 1970, s. 321.
2. Зиндер J. P., Строева Т. В. Современный немецкий язык. М., 1957, с. 140.
3. Der phänomenale Sprachfragenbeantworter. Duden-Sprachberatung. Duden, 2014, s. 30.
4. Schott B. Schottenfreude: German Words for the Human Condition. Blue Rider Press; Bilingual edition, 2013, 96 p.
5. https://www.thoughtco.com/the-conditional-in-german-1444479
6. https://yourdailygerman.com/konjunktiv-2-explanation-subjunctive-wuerde/
7. https://www.mezzoguild.com/learn/german/grammar/conditional/

**Г.Т. Эфендиева**

**Условная форма глагола в современном немецком языке**

**Резюме**

В статье говорится о формах глаголов в немецком языке. В ней указывается, что глагол является одной из сложных частей речи. В статье подчеркивается, что глагол является ведущим элементом предложения. В статье говорится, что в немецком языке все предложения, кроме именных словосочетаний, должны содержать глаголы или глагольные словосочетания. Как и другие части речи, глагол изучается преимущественно с морфологической точки зрения. Кроме того, в статье также представлена информация о наклонении глагола в немецком языке. В современном немецком языке это условие имеет очень широкий диапазон значений и употребления. Условная форма глагола употребляется не только в смысле желания и чувства. Данная форма также указывает на модальность, выраженную другими формами.

**G.T. Afandiyeva**

**The mood of the verb in modern german**

**Summary**

The article deals with the forms of the verb in German. It states that the verb is one of the complex part of speech. The article mentions that the verb is the energy source of the sentence, and there is no sentence without a verb, except for noun clauses. As with other parts of speech, the verb is mainly studied in morphology.

Besides, the article gives some information about the Conditional mood in German. In German, the subjunctive has a very wide range of meaning and usage. It  is used not only in the sense of desire and feeling. First of all, it indicates the modality of the expression of others.

**Redaksiyaya daxil olub:** 03.05.2023

## Təqdim olunan məqalələrə tələblər

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Məqaləyə azərbaycan, rus və ingilis dillərində açar sözlər yazılır.
4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman — 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə təqdim olunmalıdır.
5. Məqalələr üç dildən — Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, atasının adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.
7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı, ata adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).
8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.
10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
16. Məqalə müəlliflərinin hüquqları qorunur.
17. Jurnalda "ardı növbəti nömrədə" adı altında seriya məqalələr dərc olunmur.
18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.

# M Ü N D Ə R İ C A T


***BAŞ REDAKTORDAN***

İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri
Библиографическое описание использованной литературы
Bibliographic description of used literature ........................................................................3

***PEDAQOGİKA***

**Həsən Bayram oğlu Bayramov.** Heydər Əliyev və milli təhsil siyasətinin kreativləri
Гейдар Алиев и креативы национальной образовательной политики
Heydar Aliyev and creativity of national education policy ……………………………..6

**Sevda Sultan qızı Tağıyeva.** Milli-mənəvi dəyərlərimizə Heydər Əliyev qayğısı
Забота Гейдара Алиева в наших национальных и нравственных ценностях
Heydar Aliyev care in our national and moral values ..................................................................13

**Ayşən Təvəkkül qızı Salahova.** Heydər Əliyev və ümumtəhsil sahəsində həyata keçirilən islahatlar
Гейдар Алиев и реформы в сфере общего образования
Heydar Aliyev and reforms implemented in the field of general education ……………..17

**Şölə Firdovsi qızı Mustafayeva.** Heydər Əliyev irsində təhsildə milliliyin nəzərə alınması
Учет национальности в образовании в наследии Гейдара Алиева
Account of nationality in education in Heydar Aliev's heritage ......................................21

***Ümumi pedaqogika. Fənlərin tədrisi metodikası***

**Gülarə Hüseynağa qızı Kərimova.** Milli-mənəvi dəyərlərimizdən
От наших национальных и моральных ценностей
From our national and moral values ......................................................................................24

**İradə Əhməd qızı Əhmədova.** Fortepiano alətinin yaranma tarixindən və təhsil prosesində ondan istifadə yolları
История и образование инструмента фортепиано важность способов его использования в процессе
History and education of the Forteriano instrument the importance of ways (methods) of using it in the process ……………………………………………………………….29

**Земфира Салим кызы Султанова.** Развитие музыкального мышления учащихся
Tələbələrin musiqi təfəkkürünün inkişaf edilməsi
Development of students' musical thinking ...............................................33

**Sevinc Sərdar qızı Əliyeva.** Ali təhsilin dəyişən paradiqmaları
Меняющиеся парадигмы высшего образования
Changing paradigms of higher education ......................................................................38

**Sevinc Ələkbər qızı Şabanova.** Verilənlər bazasında SQL dilindən istifadənin xüsusiyyətləri
Особенности использования языка СГЛ в базе данных
Features of the use of the SQL language in the database ......................................42

**Ləman Xaliq qızı Əsgərzadə.** Layihələr metodunun mahiyyəti
Суть метода проектов
The essence of the projects method ..........................................................47

**Rəqsanə İsmayıl qızı Məmmədova.** I-IV siniflərin musiqi dərslərində əxlaqi-mənəvi yönlü təhsil və tərbiyənin təşkili imkanları
Возможности организации нравственно-духовного воспитания и обучения в музыкальных классах I-IV классов
Possibilities of organization of moral-spiritual oriented education and training in music classes of I-IV grades ...............................................................................................51

**Aygün Akif qızı Nəzərli.** İbtidai siniflərdə nəzəri bilikləri və bacarıqları formalaşdıran təlim üsulları
Методы обучения, формирующие теоретические знания и умения в начальных классах
Teaching methods that form theoretical knowledge and skills in primary grades .........54

**Səbinə Fizuli qızı Rzayeva.** Əxlaqi-mənəviyönlü təhsil və tərbiyə sisteminin pedaqoji əsasları
Педагогические основы духовна-духовного воспитания и системы воспитания
Pedagogical basis of educational system with moral and spiritual education ..............58

**Xanım Xaqani qızı Məmmədzadə.** Şəxsiyyətin formalaşmasında ailə əsas təsiredici amil kimi
Семья как главный фактор формирования  личности
Family as the main influencing factor in personality formation ..............................61

**Lalə Asif qızı Nəcəfova.** Müasir müəllim və onun müasir təhsildə yeri
Современный учитель и его место в современном образовании
Modern teacher and their place in modern education ....................................................64

**Aytən Gülağa qızı Məmmədova.** İnklüziv təhsil və onun əsasları
Инклюзивное образование и его основы
Inclusive education and its principles ....................................................................67

**Zəminə Kazım qızı Hüseynova.** Azərbaycan tarixinin tədrisində fəal təlim texnologiyalarından istifadənin əsas mahiyyəti və metodları
Суть использования активных образовательных технологий в преподавании истории Азербайджана
The essence of using active educational technologies in teaching the history of Azerbaijan ..........................................................................................................70

***Müəllimin özünütəhsili***

**Nərgiz Zaur qızı Axundzadə.** Azərbaycanın GUAM ölkələri ilə xarici iqtisadi əlaqələrinin inkişafı və təkmilləşdirilməsi istiqamətləri
Направления развития и совершенствования внешнеэкономических связей Азербайджана со странами ГУАМ
Directions of development and improvement of foreign economic relations of Azerbaijan with GUAM countries ...........................................................................................74

**Elnara Tarkhan Jalilly.** A detailed analysis of the health system, opportunities and challenges related to IoB
IoB ilə bağlı səhiyyə sisteminin ətraflı təhlili, imkanları və problemləri
Подробный анализ системы здравоохранения, возможностей и проблемы, связанные с IoB ..........................................................................................................80

**Günel Şahin qızı Həsənli.** Nəqliyyat axınlarının riyazi modelləşdirilməsi
Математическое моделирование транспортных потоков
Mathematical modeling of transport flows .......................................................................89

***PSİXOLOGİYA***

**Kamilə Qinyaz qızı Kazımova, Ceyla Rüstəm qızı Kələntərli.** Boşanmış qadınlarda stressin idarə edilməsinin effektiv yol və vasitələri
Эффективные способы и средства управления стрессом у разводенных женщин
Effective ways and means of managing stress in divorced women ……………………......120

**Гюльнара Садыг кызы Ризаева.** Особенности психологического развития детей разного возраста и пола
Uşaqların yaş və cinsi fərqliliyindən asılı olaraq psixoloji inkişafı
Features of psychological development of children of different ages and sexes .............124

**Elmir Arif oğlu İsgəndərov.** NLP ilə tərbiyə prinsiplərinin əlaqəsinin psixoloji əsasları
Principles of education with NLP psychological basis of relationship
Принципы обучения НЛП психологическая основа отношений ...............................129

**Aytaç Zeynalova.** Kədərdən doğan sevinc ...................................................................139

**Firəngiz Şirin qızı Mahmudova.** Prezidentlərin çıxışlarında frazaların rolu
Роль фраз в дискурсе спикеров
The role of phrases in presidents' discourses ……………………………………………94

**Гюнай Гумбат кызы Бабаева.** Гендерная ассимметрия в языке
Dildə gender asimmetriyası
Gender asymmetry in language .........................................................................................99

**Arzu Azər qızı Dadaşzadə.** Dil işarələrinin praqmatik qiymətləndirilməsi
Прагматическая эволюция языковых знаков
Pragmatic evoluation of language signs ………………………………………………...107

**Aytən Elxan qızı Müseyibli.** Türk dillərində xüsusiləşmə problemi
Проблемы обособление тюркских языков
The problem of specialization in Turkish languages .....................................................110

**Günay Təvəkgül qızı Əfəndiyeva.** Müasir alman dilində feilin şəkilləri
Условная форма глагола в современном немецком языке
The mood of the verb in modern german ………………………………………………115

Texniki redaktor: Aləmzər Fətəliyeva
Dizayn-operator: Sevda Quliyeva

Yığılmağa verilmiş: 09.05.2023
Çapa imzalanmış: 05.06.2023
Kağız formatı: 27 x 18
Çap vərəqi: 10,8 ç.v.
Sayı: 200 nüsxə

Jurnalın web səhifəsi: bgu.edu.az
Elektron poçt ünvanı: info@bgu.edu.az
Bakı, M.Sənani küç. 62
Tel: (012) 595-30-02;
(070) 569-77-59